**Vəli BAXŞƏLİYEV**
**Abbas SEYİDOV**

# QƏDİM CULFA

**Naxçıvan - 2020**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında
Bilik Fondunun dəstəyi ilə nəşr edilir.

Elmi redaktoru: İsmayıl Hacıyev
*akademik*

Rəyçilər: Qadir Qədirzadə
*AMEA-nın müxbir üzvü*

Fəxrəddin Səfərli
*AMEA-nın müxbir üzvü*

***Baxşəliyev V.B., Seyidov A.Q. Qədim Culfa.*** *"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan, 2020, 176 səh.*

*Kitabda Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində yerləşən arxeoloji, tarixi və memarlıq abidələrinin son araşdırılması zamanı meydana çıxan tədqiqatların nəticələri öz əksini tapmışdır. Bu abidələrin öyrənilməsinə hələ XIX əsrdən başlansa da, Azərbaycan müstəqillik qazandıqdan sonra araşdırmalar daha da genişləndirilmiş, bəzi abidələrdə uğurlu tədqiqat işləri aparılmışdır. Həmin abidələrin bir qismi müəlliflər tərəfindən öyrənilmişdir.*

*Kitab tarixçi, arxeoloq, müxtəlif elm adamları və tələbələr üçün nəzərdə tutulmuşdur.*

4700000000
053-2020

© "Əcəmi" 2020.



*"Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir... Ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar, - burada yaşıllıq azdır, -bu, diyara xüsusi gözəllik verir..., bu, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi, insanlar da məğrurdurlar..."*

*Heydər ƏLİYEV*
*Azərbaycan xalqının ümummilli lideri*

M Ü N D Ə R İ C A T

**Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı** ........................... 5

**Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı** ........................... 7

**ÖN SÖZ** ........................................................................................ 8

**I FƏSİL. CULFA RAYONUNUN ARXEOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN** ........................................................ 9

**II FƏSİL. CULFA RAYONUNUN ARXEOLOJİ, TARİXİ VƏ MEMARLIQ ABİDƏLƏRİ** ........................................................ 14

- yaşayış yerləri ........................................................ 14
- qəbir abidələri ........................................................ 65
- qalalar ........................................................ 116
- türbə və pirlər, körpü, karvansara və digər tikililər ........................................... 129

**III FƏSİL. QƏDİM KÖÇ YOLLARI VƏ MƏDƏNİ ƏLAQƏLƏR** ............... 157

-Culfa bölgəsinin qədim yurd adları və köç yolları ............................................... 157

-Culfa abidələrinin Azərbaycan və Cənubi Qafqaz tarixində yeri ........................ 158

**NƏTİCƏ** ........................................................................................ 162

**ƏDƏBİYYAT** ........................................................................................ 164

## Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## S Ə R Ə N C A M I

Naxçıvan Muxtar Respublikası qədim, orta əsrlər və yeni dövr tariximizin izlərini özündə əks etdirən nadir maddi-mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Beş minillik şəhər mədəniyyəti tarixi olan bu qədim diyar özündə ilk insanların yaşadıqları mağaraları, qədim yaşayış yerlərini, erkən şəhər mədəniyyəti qalıqlarını, möhtəşəm qala divarlarını, qayaüstü təsvirləri, daş qoç heykəllərini, xatirə memarlığının ən gözəl nümunələri olan türbələri əks etdirir. Hazırda muxtar respublika ərazisində 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır ki, onların içərisində müdafiə qalalarının, o cümlədən “Əlincəqala”nın özunəməxsus yeri və rolu vardır.

Culfa rayonundakı Əlincə dağın üzərində yerləşən “Əlincəqala” ən qədim müdafiə və yaşayış yerlərindən biridir. “Əlincəqala”nın adı çəkilən ən qədim mənbələrdən biri “Kitabi-Dədə Qorqud” dastanıdır. “Əlincəqala” tarixdə Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmış, 1387-1401-ci illərdə, 14 il ərzində Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir.

Möhkəm divarlar və bürclərlə əhatə olunmuş “Əlincəqala”da Şəmsəddin Eldənizin hakimiyyəti illərində Azərbaycan Atabəylər dövlətinin baş xəzinəsi saxlanmışdır. O vaxt qalanın içərisində yaşayış evləri, təsərrüfat binaları, qalaya gedən yolların üstündə mühafizə məqsədi ilə səngər və bürclər tikilmişdir. Qalanın müxtəlif yerlərində qaya üzərində su hovuzları qazılmış, xüsusi arxlar çapılmışdır. “Əlincəqala”nın divarları və qalada olan tikililər əcdadlarımıza xas olan qədim tikinti mədəniyyətini günümüzə qədər gətirib çıxartmışdır.

Orta əsrlər zamanı “Əlincəqala”da Azərbaycanın ayrı-ayrı dövlətlərinin zərbxanaları yerləşmiş və burada müxtəlif dövrlərdə Azərbaycan feodal hakimlərinin adından sikkələr kəsilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən “Əlincəqala” haqqında da məlumatlar toplanmış və bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq “Əlincəqala” tarixi abidəsini milli-mədəni sərvət kimi qoruyub saxlamaq məqsədilə qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə "Əlincəqala"nın elmi-bərpa layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin və layihə üzrə bərpa işlərinin aparılmasını təmin etsin.

2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Culfa Rayon İcra Hakimiyyəti ilə birlikdə "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması üçün müvafiq tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 fevral 2014-cü il*

**Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin**

**S Ə R Ə N C A M I**

Naxçıvan ərazisi qədim abidələr və maddi-mədəniyyət nümunələri ilə zəngindir. Belə abidələrdən biri də dünya əhəmiyyətli Gülüstan türbəsidir.

Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən türbə on ikinci əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindəndir. Gülüstan türbəsi böyük Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarıdır.

Gülüstan türbəsində bərpa işlərinə başlanılmışdır. Orta əsr Azərbaycan mədəniyyətini müasir dövrümüzədək yaşadan bu möhtəşəm abidədə bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə Gülüstan türbəsində bərpa işlərinin elmi əsaslarla aparılmasını təmin etsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi “Gülüstan türbəsi” tədqiqat qrupunu yaratsın.

3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası bərpadan sonra Gülüstan türbəsinin ziyarətçilərə açıq olması üçün zəruri tədbirlər görsünlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 07 oktyabr 2015-ci il*

# G İ R İ Ş

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası maddi-mədəniyyət abidələrinin zənginliyi və rəngarəngliyi ilə dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Bu baxımdan, Culfa rayonunun ərazisində qeydə alınan və tədqiq olunan onlarla abidə tariximizin yazılmamış səhifələrinin işıqlandırılmasında mühüm rol oynayır. Bu ərazidə qeydə alınan tarixi-arxeoloji abidələr, Azərbaycan memarlığını özündə yaşadan türbə, məscid və körpülər, minilliklərin yadigarı olan qalalar tükənməz tariximizin daş yaddaşlarıdır.

Həmişə qürur mənbəyimiz olan Əlincəqala, Qazançı körpüsü, Gülüstan türbəsi və digər bir-birindən qədim mədəniyyət nümunələri qədim tariximizin əyani göstəriciləridir desək, səhv etmərik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Əlincə qalasının divarlarının yenidən bərpasına, qalada arxeoloji qazıntı işlərinin aparılmasına rəvac verilmişdir. Culfa rayonu ərazisində olan Gülüstan türbəsi, Qazançı və Ləkətağ körpüləri bərpa edilərək milli-mənəvi dəyərlərimiz üçün yenidən qazandırılmışdır.

Naxçıvanın arxeoloji abidələri Azərbaycanın qədim tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Əsasən Azərbaycanın cənub bölgələri ilə bağlı olan maddi-mədəniyyət abidələrinin tədqiqi ən qədim dövrlərdən başlayan tarixi-mədəni prosesləri izləməyə imkan verir. Tunc dövründə Naxçıvanda özünəməxsus xüsusiyyətləri ilə seçilən Kür-Araz mədəniyyəti, boyalı qablar mədəniyyəti yayılmış, bu mədəniyyət müxtəlif mərhələlərdən keçərək, Erkən Dəmir dövrünə kimi davam etmişdir.

Culfa rayonunun ərazisi bir sıra tarixi və arxeoloji mədəniyyətləri özündə yaşadan bölgələrdəndir. Düzdür, rayonun ərazisində yerləşən abidələr digər bölgələrə nisbətən indiyədək bir qədər zəif tədqiq olunduğundan, Azərbaycan arxeologiyasında onun yeri və mövqeyi kifayət qədər araşdırılmamışdır. Lakin son illərin tədqiqatları onu söyləməyə əsas verir ki, bu bölgənin tarixi Azərbaycan xalqının tarixinin açılmamış səhifələrini öyrənmək üçün dəyərli mənbələrdəndir.

Rayonun ərazisində bizdən əvvəlki müəlliflər və tərəfimizdən aparılan araşdırmalar zamanı Culfa bölgəsinin qədim abidələri kompleks şəkildə öyrənilmiş, yerli əhalidən toplanan etnoqrafik materiallar qədim əhalinin həyat tərzini qiymətləndirmək üçün əhəmiyyətli nəticələr vermişdir. Xüsusən, Göynük kəndi yaxınlığında, yüksək dağlıq ərazidə yerləşən Xornu abidələri, Nəhəcir kompleksi, Boyəhməd nekropolları və onlardan aşkar edilmiş maddi-mədəniyyət qalıqları Tunc və Erkən Dəmir dövrlərinin müəyyən problemlərini aydınlaşdırmaq üçün bir xəzinədir. Başlıca olaraq, boyalı qablarla xarakterizə edilən Nəhəcirin Orta Tunc dövrü keramikası bu mədəniyyətin mənşəyi və inkişafı ilə bağlı məsələlərə yeni baxışla yanaşmaq üçün dəyərli mənbə olmaqla bərabər, bu dövrün tayfalarının kimliyi, həyat tərzi və ideologiyasını da araşdırmağa imkan verir. Nəhəcir ətrafında aparılan araşdırmalar zamanı qədim suvarma sistemi, su kanalı və su anbarlarının qalıqları, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı yeni tapıntılar tariximizin açılmamış səhifələrini işıqlandırmaqda böyük əhəmiyyət kəsb edir.

# I FƏSİL

## CULFA RAYONUNUN ARXEOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN

Culfa rayonu abidələrinin arxeoloji cəhətdən öyrənilməsinə keçən əsrin birinci yarısından başlanmışdır. Nəhəcir qədim yaşayış yerində arxeoloq Ə.K.Ələkbərov XX əsrin 20-ci illərində apardığı kəşfiyyat işləri zamanı kəndin yaxınlığından bir ədəd boyalı küpə aşkar etmişdir (Alekperov, 1927). Sonrakı illərdə abidə uzun müddət arxeoloqların diqqətindən kənarda qalmışdır. Bunun bir neçə səbəbi vardır. Başlıca səbəb ondan ibarət olmuşdur ki, XX əsrin 50-ci illərinədək Naxçıvan abidələri ardıcıl, sistematik öyrənilməmişdir. İstər Naxçıvan ərazisində, istərsə də Azərbaycanın digər bölgələrində tədqiqat işi aparan arxeoloqların bir neçəsi istisna edilməklə, qalanları əcnəbilər olmuşlar. Onlar bu ərazidə yalnız qısa müddətli işlər gördükdən sonra vətənlərinə dönmüş və ərazidə tədqiq olunan abidələr yerli əhali tərəfindən dağıntıya məruz qalmışdır.

Culfa dəmir yolunun çəkilməsi ilə əlaqədar, 1939-1940-cı illərdə təsadüf nəticəsində bir nekropol dağıdılmışdır. Oradan aşkar olunmuş materiallar mühəndis K.K.Vasilyev tərəfindən toplandıqdan sonra, uzun müddət E.S.Torman adlı şəxsin evində saxlanılmış və 1951-ci ildə Gürcüstan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Monoxrom və polixrom boyalı qablardan, tunc silah və digər arxeoloji materiallardan ibarət olan tapıntılar haqqında 1968-ci ildə V.H.Əliyev məlumat vermişdir (Əliyev 1977, s. 49).




**Şəkil 1.** *Culfa 114 il əvvəl*

1950-ci ildə O.H.Həbibullayev Culfa rayonunun Ərəfsə və Bənəniyar kəndi yaxınlığında kəşfiyyat xarakterli tədqiqatlar aparmış və boyalı qablarla müşahidə olunan bir neçə abidə müəyyən etmişdir (Abibullayev, 1982, s. 14).

1966-cı ildə O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən Nəhəcir kəndi yaxınlığında aparılan kəşfiyyat xarakterli işlər nəticəsində Tunc dövrünə aid yaşayış yeri və kurqan tipli qəbir abidələri qeydə alınmışdır. Dağılmış qəbirlərdən boyalı qablar tapılmışdır (Əliyev, 13, s. 94-102).

XX əsrin 50-ci illərindən başlayaraq muxtar respublika ərazisində müntəzəm arxeoloji qazıntı işləri aparılmışdır. O.H.Həbibullayevin Kültəpə kəndi ərazisində apardığı arxeoloji qazıntı işlərinin ilkin nəticəsi olaraq 1959-cu ildə "Kültəpədə arxeoloji qazıntılar" kitabı nəşr edilmişdir. Tədqiqatçı kitabda müasir Culfa rayonu ərazisində yerləşən Nəhəcir abidələrindən də bəhs edərək, tapılmış boyalı qablar haqqında məlumat vermiş və onların dövrünü müəyyən etmişdir. O, üzərində adam və keçi şəkli çəkilmiş küpənin qədim maldarlıqla bağlı olduğunu göstərmişdir (Həbibullayev, 1959, s.132).

1966-cı ildə Nəhəcirdə arxeoloqlardan O.H.Həbibullayev və V.H.Əliyev kəşfiyyat xarakterli işlər görmüşlər. Tədqiqat işləri zamanı qədim yaşayış yerinin və qədim nekropolun ərazisinə baxış keçirilmiş, yerüstü materiallar, yerli əhali tərəfindən təsadüfən tapılmış boyalı və sadə qablar toplanmışdır (Abibullaev, 1982).

V.H.Əliyev 1977-ci ildə nəşr etdirdiyi "Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti" adlı kitabında Culfa rayonu ərazisindən tapılan, üzəri həndəsi motivdə naxışlanmış keramika və digər arxeoloji materialın dövrü haqqında məlumat verimişdir (Əliyev, 1977, s.49).

1982-ci ildə O.H.Həbibullayevin "Naxçıvan MSSR ərazisində Eneolit və Tunc dövrləri" adlı monoqrafiyası çapdan çıxır. Müəllif bu əsərində də Culfa-Nəhəcir abidələrinə və arxeoloji materiala müraciət etməklə, onları yenidən dəyərləndirmişdir (Abibullaev, 1982).

1990-cı ildə Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası Dəmir dövrünə aid III Nəhəcir yaşayış yerində Vəli Baxşəliyev tərəfindən kəşfiyyat xarakterli işlər aparmışdır. Bu abidə Nəhəcir kəndinə gedən yolun üstündə, kəndin qərb tərəfində yerləşir. Buradan yonulmamış qaya parçalarından iki cərgə tikilmiş düzbucaqlı otaq qalığı, dulus çarxında hazırlanmış çəhrayı və boz rəngli küpə, kasa, nimçə tipli qab qırıqları aşkar edilmişdir. V.B.Baxşəliyev və Ə.İ.Novruzlu arxeoloji materiala əsasən yaşayış yerini e.ə.VI-IV əsrlərə aid etmişlər (Novruzlu, Baxşəliyev, 1993).

V.H.Əliyev 1991-ci ildə nəşr olunan "Azərbaycanın Orta Tunc dövrü mədəniyyəti" adlı monoqrafiyasında Culfa rayonunun, həmçinin Nəhəcir qədim yaşayış yerinin arxeoloji materiallarına yenidən qayıdaraq onların dövrləşməsi məsələsinə öz münasibətini bildirmişdir (Aliev, 1991).

1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası Culfa rayonu ərazisində yerləşən bütün abidələrə baxış keçirmiş, onların bir qismi

arxeoloji qazıntılarla öyrənilmişdir. Qalan abidələrin isə siyahısı tərtib edilmiş, dövrü, yerləşdiyi ərazi, tutduğu sahə qeydə alınmışdır. Geniş şəkildə öyrənilən abidələrdən biri də I Nəhəcir yaşayış yeri olmuşdur. Bu tədqiqatlar zamanı Nəhəcir dağının ətəyində salınmış qədim yaşayış yerində 2-3 metr qalınlığında mədəni təbəqənin olması müəyyənləşdirilmiş, hündürlüyü bəzi yerlərdə 1,5 metrə çatan, yonulmamış daşlardan tikilmiş müdafiə divarının qalıqları aşkar edilmişdir. Aşınma nəticəsində yaranmış yarğanlarda mədəni təbəqənin tərkibində osteoloji qalıqlara və gil məmulatına rast gəlinmişdir. Tədqiqatçıların fikrincə, arxeoloji materiallar e.ə. III minilliyin sonundan e.ə. I minilliyin ortalarınadək olan dövrü əhatə etmişdir (Novruzlu, Baxşəliyev, 1993).

Elə həmin ildə V.B.Baxşəliyev və Ə.İ.Novruzlu tərəfindən Son Orta əsrlərə aid II Nəhəcir yaşayış yerində tədqiqat işləri aparılmış, burada çay daşı və kərpicdən tikilmiş tikinti qalıqlarına, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz gil qab parçalarına təsadüf edilmişdir. XIV-XVII əsrlərə aid edilən qabların naxışlanmasında göy, yaşıl, mavi rənglərdən daha çox istifadə olunmuşdur.

V.Baxşəliyev 1997-ci ildə İstanbulda nəşr olunmuş “Nahçıvan arkeolojisi” kitabında Nəhəcir boyalı qablarını Cənubi Azərbaycanın Urmiya ətrafı abidələrindən tapılmış boyalı qablarla müqayisə etmişdir [Bahşaliyev, 1997, s.29-34].

A.Seyidov 2000-ci ildə nəşr etdirdiyi “Naxçıvan Tunc dövründə”, 2002-ci ildə çapdan çıxan (V.B.Baxşəliyevlə) “Nəhəcirdə arxeoloji araşdırmalar” adlı monoqrafiyalarında Nəhəcir abidələrinə müraciət edərək, onların dövrləşməsinə öz münasibətini bildirmişdir (Seyidov, 2000, s.116-117)

Yuxarıda göstərilən bütün tədqiqat işləri çox mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, son 100 ilə yaxın dövr ərzində bu abidələrin ayrı-ayrı tədqiqatçılar tərəfindən öyrənilməsinə cəhd göstərilmişdir. Lakin həmin tədqiqatların hamısı kəşfiyyat xarakterli olmuş, tədqiqatçılar heç bir geniş miqyaslı arxeoloji qazıntı işləri aparmamış, yalnız yerüstü materialla kifayətlənmişlər. Məlum olmuşdur ki, Nəhəcir abidələri kompleksi e.ə. III minilliyin ikinci yarısından başlayaraq Son Orta əsrlər dövrünədək qədim insanların yaşayış məskəni olmuşdur.

2002-ci ilin iyul-avqust aylarında Nəhəcir abidələri kompleks halında tərəfimizdən öyrənilmişdir. Əvvəlki illərdən fərqli olaraq, altı sahədə aparılan qazıntılar əhəmiyyətli nəticələrlə Azərbaycan tarixinə yeni fikirlər gətirdi. Birinci sahədə, kəndin şimal tərəfində, Nəhəcir dağının ətəyində Orta Tunc dövrünə aid yaşayış yerində 2x2 metr (4 $m^2$) sahədə 1,3 metr dərinliyədək kəşfiyyat qazıntısı aparıldı. Buradan boyalı və sadə saxsı qab qırıqları, osteoloji qalıqlar aşkar olundu.

İkinci qazıntı sahəsi birincidən 50 metr cənubda, kəndə yaxın ərazidə seçildi. Burada 3x2 metr (6 $m^2$) sahədə orta əsrlərə aid mədəni təbəqə 1,4 metr dərinliyində, xam torpağa çatanadək qazıldı. Qazıntıdan osteoloji qalıqlar, kül qatları, orta əsrlər keramikası aşkar edildi. Üçüncü qazıntı sahəsi nekropolun ərazisində seçildi. Burada yonulmamış daşlardan oval şəklində qurulmuş 1 saylı daş qutu qəbir öyrənildi. Onun



**Şəkil 2.** *Xornu yaşayış yeri*



**Şəkil 3.** *Xornu şəlaləsi*

içərisində tam çürümüş vəziyyətdə olan insan skeletinin hissələrinə rast gəlindi. Buradan bir ədəd sadə küpə və bir ədəd kasa tipli qab əldə edildi.

Dördüncü qazıntı sahəsi kromlexli kurqanlar olan yerdə seçildi. Burada bir ədəd kurqan (2 saylı qəbir) öyrənildi. Beşinci tədqiqat sahəsi Nəhəcir qalasına salındı. Müəyyən edildi ki, qalanın üzərində bir sıra tikinti qalıqları vardır. Həmin tikinti qalıqlarının bir qismi qədim yaşayış yeri ilə həmdövrdür. Altıncı sahədə, nekropolun cənubunda 1,5x1,5 metr (2,25 $m^2$) ölçüdə kəşfiyyat qazıntısı aparıldı. Burada mədəni təbəqə aşkar olunmasa da, müəyyən maddi-mədəniyyət qalıqları əldə edildi.

2003-cü ildə tədqiqatlarımız Nəhəcir-Göynük istiqamətində oldu. Araşdırmalar qədim su kanalının, köç yollarının, yurd yerlərinin və yeni arxeoloji abidələrin aşkarlanması ilə nəticələndi. Göynük kəndi və ona yaxın ərazilərdə Xornu nekropolları və qədim yaşayış yerləri tərəfimizdən tədqiq olundu. Culfa rayonunun abidələrinin tədqiqi bu gün də davam etdirilməkdədir.

2015-2016-cı illərdə rayonun Camaldın, Ərəfsə, Bənəniyar kəndləri və onların ətrafında müəlliflər tərəfindən arxeoloji kəşfiyyat işləri aparılıb. Tədqiqatlar zamanı Camaldın kəndindən 5-7 kilometr şimal şərqdə orta əsrlərə aid yaşayış yerinin qalıqları tədqiq olundu. Xalq arasında Əl-Quti kimi tanınan ərazidən toplanmış arxeoloji materialların orta əsrlər dövrünə (XI-XVII əsrlər) aid olduğu aydınlaşdırıldı. Bu yaşayış yerinin tərk edilməsinə səbəb isə orada olan yeganə bulağın-su mənbəyinin batması olub. Oradan toplanmış materiallar boz və çəhrayı rəngli, üzəri şirli, müxtəlif formalı qablara aid parçalardan ibarət idi. Düzbucaqlı planlı evlərin bir qisminin xarabalıqları indi də qalır. Evlərin tikilməsində çiy və bişmiş kərpiclərdən, çay daşlarından istifadə olunub. Abidənin yaxınlığında isə yaşayış yerinə aid böyük müsəlman qəbiristanlığı yerləşir. Ərəfsə kəndi ərazisində orta əsrlərə aid yaşayış yerinin qalıqları da vardır. Abidə kənddən təxminən 2-3 kilometr qərbdə yerləşir. Xalq arasında "Camışlıq" kimi tanınır. Əldə edilmiş arxeoloji materiallar saxsı qablardan və daş alətlərdən ibarətdir. Araşdırmalar zamanı Bənəniyar kəndi ətrafından toplanmış orta əsrlərə aid arxeoloji materiallar da tədqiqata cəlb olunmuşdur. Culfa rayonu ərazisində yerləşən abidələr hazırda hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Ümid edirik rayon ərazisində yerləşən abidələrin gələcəkdə tədqiqi daha maraqlı nəticələr verəcəkdir.

## II FƏSİL

## CULFA RAYONUNUN ARXEOLOJİ, TARİXİ VƏ MEMARLIQ ABİDƏLƏRİ

## YAŞAYIŞ YERLƏRİ

Culfa rayonunun ərazisi Naxçıvan Muxtar Respublikasının digər bölgələri ilə müqayisədə arxeoloji cəhətdən nisbətən zəif tədqiq olunmuşdur. Hələlik apardığımız arxeoloji və tarixi araşdırmalara görə bu ərazidə qeydə alınan ən qədim abidə e.ə. IV minilliyin sonlarına aiddir. Bölgənin qədim yaşayış yerləri iki qrupa ayrılır: - daimi və mövsümi yaşayış yerlərinə. Daimi yaşayış yerlərində mədəni təbəqənin qalınlığı 1,3-1,5 metrə çatdığı halda, mövsümi yaşayış yerlərində bu 20, 30, bəzi hallarda 50 santimetrə qədər olur.

Artıq Tunc dövrünün ilkin mərhələsindən başlayaraq yaylaq maldarlığının inkişaf etməsi, dağ və aranla bağlı köçmə təsərrüfat sahəsinin meydana çıxması dağətəyi və dağlıq zonalarda belə yaşayış yerlərinin və nekropolların yaranmasına səbəb olmuşdur. Maraqlıdır ki, rayon ərazisində hələlik ən qədim sayılan, İlk Tunc dövrü Kür Araz mədəniyyətini özündə daşıyan bir qəbir abidəsi və ona məxsus mövsümi yaşayış yeri dağlıq ərazidə – Göynük kəndinin yaxınlığında yerləşir. Yaxınlıqdan keçən dağ çayının adına uyğun olaraq, Xornu yaşayış yeri və I Xornu nekropolu adlandırdığımız abidədən tapılmış maddi-mədəniyyət qalıqları Naxçıvanın Erkən Tunc dövrü abidələri ilə oxşardır.

### Xornu yaşayış yeri

Xornu yaşayış yeri Culfa rayonunun şimal-qərbində, dəniz səviyyəsindən təxminən 1500 metr yüksəklikdə olan Göynük kəndinin şimalından axan Xornu çayının vadisində salınmışdır. Abidə V.B.Baxşəliyev tərəfindən qeydə alınmış və ilk arxeoloji tədqiqat işləri də onun rəhbərliyi ilə aparılmışdır. Göynük və Nəhəcir kəndləri arasında torpaq yolu mövcuddur. Ərazinin coğrafi mövqeyi dağ yolları vasitəsilə Babək və Şahbuz rayonlarının yaşayış məntəqələri ilə əlaqə yaratmağı mümkün edir. Kəndin ərazisində boyalı qabların (Orta və Son Tunc dövrü) olması haqqında ilkin məlumatlar olsa da, onların yerini dəqiq müəyyənləşdirmək mümkün olmadı.

Qeyd etdiyimiz kimi, arxeoloji abidələr, başlıca olaraq, Göynük kəndi ətrafında və yaxınlıqdan keçən Xornu çayı vadisində yerləşir. Çay vadisində ən dəyərli abidə Xornu yaşayış yeridir. Yaşayış yeri vadidən solda, çaya doğru uzanan dağın yamacında, oval yastanda salınıb. Burada çoxlu daş yığınlarına rast gəlinir. Bu yerlər köçmə təsərrüfatla məşğul olan tayfaların yaylaqları olmuşdur. Qədim yaşayış yeri üç tərəfdən dərə ilə məhdudlaşır. Onun cənub tərəfində şirin sulu bulaqlar vardır. Ətraf ərazi bütövlükdə zəngin otlaqlarla örtülmüşdür. Bu ərazi hələ 5-6 min il əvvəl qədim maldar

tayfaların yurd yerinə çevrilmişdir. Dərin yarğanlarda maddi-mədəniyyət qalıqlarına və mədəni təbəqənin izlərinə rast gəlinir.

Yaşayış yerini onun yaxınlığında yerləşən nekropoldan aşkar olunan keramika məmulatına əsasən e.ə. IV minilliyin sonları – e.ə. III minilliyə aid etmək olar.

## Nəhəcirin qədim yaşayış yerləri

I Nəhəcir qədim yaşayış yeri 1928-ci ildə qeydə alınmışdır. Keçən əsrin 30-cu illərində abidədə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası yaşayış yerində olmuş və yerüstü materiallar toplamışdır. Yaşayış yeri Nəhəcir dağının ətəyi boyunca ensiz zolaq şəklində uzanır. Abidənin bəzi yerləri aşınma nəticəsində dağılmış və tikinti qalıqları üzə çıxmışdır. Onlar yonulmamış iri daşlardan gil məhlulu ilə tikilmişdir. Divarların hündürlüyü bəzi yerlərdə 1,5 metrə çatır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir. Aşınma nəticəsində yaranmış yarğanlarda təbəqənin tərkibində osteoloji qalıqlara, gil məmulatına və bad qalıqlarına təsadüf edilir.

Orta Tunc dövrünə aid qablar çoxluq təşkil edir. Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatının gilinin tərkibinə narın qum qatılmış, çəhrayı rəngdə, yaxşı bişirilmişdir. Onlar dulus çarxında hazırlanmışdır.

Nəhəcir abidələr kompleksi 2002-ci ildə tərəfimizdən genişmiqyaslı tədqiqatlarla öyrənilmişdir. Nəhəcir kəndinin şimal-şərqində Orta Tunc dövrünə aid yaşayış yeri və onun şərq qurtaracağında isə bu dövrə aid nekropol yerləşir. Bu yaşayış yeri Nəhəcir



**Şəkil 4.** *Nəhəcir dağı və kəndi*

dağının cənub-şərq ətəyində salınmışdır. Yaşayış yerinin dağın ətəyində yerləşməsi, başlıca olaraq, müdafiə məqsədi daşımışdır. Çünki, ətrafda xeyli düzən ərazi olmasına baxmayaraq, yaşayış binaları dik yamacda salınmış və Nəhəcir dağının sıldırım qayalıqlarınadək genişləndirilmişdir. Tikinti üslubu və memarlıq baxımından isə otaqlar iri qaya parçalarından tikilmişdir.

Yaşayış otaqlarının yerində qalan dördkünc çuxurlar, onların əsasən düzbucaqlı planda olduğunu göstərir. Otaqlardan birinin sahəsi 42 kvadratmetrdir (1 saylı otağın ölçüləri: 6x7 metr). Otağın divarları 50-60 santimetr hündürlükdə qalmışdır. Bir-birinin yaxınlığında yerləşən və iri qaya parçalarından tikilən evlər müdafiə üçün olduqca əlverişli olmuşdur. Təəssüf ki, qədim yaşayış yerinin bir hissəsi müxtəlif dövrlərdə aparılan tikinti işləri zamanı dağıdılmış və bu daşlardan müəyyən tikintilərdə



**Şəkil 5.** *Nəhəcirin Orta Tunc dövrü yaşayış yeri*

istifadə edilmişdir.

Qədim yaşayış yerinin ərazisində, dağa doğru uzanan yamacın ətəklərində iri qaya parçalarından hörülmüş daş divarların qalıqları qalmaqdadır. Doğrudur, onların da bir qismi Nəhəcir kəndinin müasir tikililəri altında qalmışdır. Bu tikinti qalıqları Orta Tunc dövründə Nəhəcir yaşayış yerinin müdafiə istehkamı ilə əhatə olunduğunu göstərir. Tikinti qalıqlarının Orta Tunc dövrünə aid olması saysız-hesabsız boyalı və sadə saxsı nümunələri ilə təsdiq olunur. Yaşayış yerində aparılan qazıntı işləri də bunu sübut edir.

Yaşayış yerinin dağın dik yamacında yerləşməsi onun müdafiəsini asanlaşdırmış, daha gərgin anlarda isə Nəhəcir dağının üzərində olan qalaya sığınmaq mümkün olmuşdur. Yaşayış yerinin salındığı ərazi burada mövcud olan yeganə su mənbəyini



**Şəkil 6.** *Nəhəcirin Orta Tunc dövrü yaşayış yeri*

mühafizə etmək üçün də əlverişli şərait yaratmışdır. Yerli əhalinin verdiyi məlumata görə, əvvəllər biri Nəhəcir kəndinin şərqində, digəri isə qərbində olan iki su mənbəyi olmuş, qədim yaşayış yeri iki bulağın arasındakı ərazidə yerləşmişdi. Lakin şərqdəki bulaq hazırda qurumuşdur. Bu gün də istifadə olunan yeganə su mənbəyi haqqında danışılan bulaqdır.

I Nəhəcir qədim yaşayış yerindən toplanmış Orta Tunc dövrünə aid yerüstü materialları iki əsas qrupa bölmək olar. Birinci qrup saxsılar çəhrayı, ikincilər isə boz rəngdə bişirilmişdir. Qeyd edək ki, yerüstü materiallar arasında çəhrayı rəngli keramika, xüsusilə boyalı qab parçaları üstünlük təşkil edir. Çəhrayı rəngli keramika sadə və boyalı qablardan ibarətdir. Keramika nümunələrinin rəng tonları narıncı, qırmızı və qəhvəyi rəng arasında dəyişir. Bu qrupa daxil olan qablar əsasən narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bəzən qabların kəsiyində iri qum dənələrinə rast gəlinir. Etnoqrafik müşahidələr göstərir ki, qabların gili hazırlandıqdan sonra, onun yoğrulması qum tökülmüş yerdə, yaxud parçanın üzərində davam etdirilir. İri qum dənələri qabların hazırlanma texnologiyası zamanı qarışa bilər. Araşdırmalar göstərir ki, təsərrüfatda və mətbəxdə istifadə olunan çəhrayı keramikanın bir qismi iri qum qarışığı olan gildən hazırlanmışdır.

Boyalı keramika küpə və kasa tipli qab parçalarından ibarətdir. Küpə tipli qablar əsasən ağız hissəsinin parçalarından ibarətdir. Ağız kənarı xaricə qatlanmış, qısa boğazlı küpələr qalın divarlıdır. Onların ağız kənarı çöldən qalınlaşdırılmışdır. Küpələrin xarici səthi və ağzının kənarı içəridən qırmızı rənglə boyanaraq yaxşı cilalanmış, qara rənglə həndəsi motivdə naxışlanmışdır. Bəzi küpələrin ağzının kənarı içəridən yivlidir. Qabların ağız kənarı içəridən bəzən çəpinə düz xətlərlə, bəzən isə iki sıra dalğalı



**Şəkil 7.** *Nəhəcirin Orta Tunc dövrü yaşayış yerinin materialları*

xətlərlə naxışlanmışdır.

Küpə tipli qabların əksəriyyəti forma verməyən parçalardan ibarətdir. Onlar dalğalı xətlər, düz xətlər arasına çəkilmiş dalğalı xətlər, qoşa xətlər arasına doldurulmuş dalğalı xətlərlə naxışlanmışdır. Sınıq xətlərdən ibarət olan naxışların bəzisi yuvarlaq damlalarla tamamlanır. Dalğalı xətlərlə doldurulmuş üçbucaqlar, düz və dalğalı xətlərin kompozisiyası geniş yayılmışdır. Bəzi küpələr üfüqi, bəzisi isə şaquli, ziqzaqşəkilli ornamentlə naxışlanmışdır.

Kasa tipli qablar, başlıca olaraq, yumurta gövdəli, bəzisi isə bikonik gövdəlidir. Onların gövdə hissəsi yuxarıda şarşəkilli olub, oturacağa doğru daralır. Ağız kənarı müxtəlif formalardadır. Bəzisi düz, bəzisi isə xaricə doğru köbəli olmaqla, ağzının altı batıq xətlə əhatələnmişdir. Naxışlar gövdənin yuxarı hissəsinə, başlıca olaraq, ağız kənarına çəkilmişdir. Kasaların xarici səthi və ağzının içərisi, bəzən isə hər iki üzü qırmızı boya ilə örtülmüş, xarici səthi parıldayanadək cilalanmışdır. Nazik divarlı qabların bir qrupu forma verməyən parçalarla təmsil olunmuşdur. Onlardan birinin gövdəsi qoşa xətlər arasına alınmış torlu romblarla naxışlanmışdır.

Çəhrayı rəngdə bişirilmiş sadə keramika məmulatı küpə, kasa, çölmək tipli qabların parçaları ilə təmsil olunmuşdur. Küpə və kasa tipli qablar formaca eyni tipli boyalı keramikanın təkrarıdır. Onların xarici səthinə qırmızı boya çəkilərək, yaxşı cilalanmışdır.

Çölmək tipli qablar formaca bir-birindən fərqlənir. Onlardan birinin gilinə narın qum qatılaraq, çəhrayı rəngdə yaxşı bişirilmiş, ağız kənarı xaricə qatlanaraq qalınlaşdırılmışdır. Gövdəsi bikonik formalıdır. İkinci çölməyin ağzının kənarı düz, gövdəsi



**Şəkil 8.** *Nəhəcirin Orta Tunc dövrü yaşayış yerinin materialları*



**Şəkil 9.** *Nəhəcirin Orta Tunc dövrü yaşayış yerinin materialları*

qabarıqdır. Gilinə iri qum qatılaraq orta dərəcədə bişirilmiş, xarici səthi hislə örtülmüşdür.

Boz rəngli keramika da küpə və kasa tipli qabların parçalarından ibarətdir. Onların gilinə narın, bəzən isə iri qum qatılaraq orta dərəcədə bişirilmişdir. Bəzi keramika nümunələri keyfiyyətli bişirilməsi ilə fərqlənir. Onlar hər iki üzdən yaxşı hamarlanmışdır. Bəziləri qara rəngli boya ilə örtülərək, parıldayanadək cilalanmışdır. Küpələrin ağzı xaricə doğru qatlanmış, bəzisinin boğazı konusvari, bəzisi isə silindrikdir. Bu tip qabların xarici səthi alacalı olub, bəzən divarı arasında bişməmiş təbəqəyə də rast gəlinir. Kasa tipli qabların ağız kənarı bir qədər içəri yığılmış formadadır. Bəzisinin ağzının altı batıq xətlə əhatələnmişdir. Belə keramika nümunələrinin üzəri anqobla örtülərək, yüngülcə cilalanmışdır. Bir neçə gil qab üzərində isə bitki qalığına rast gəlinmişdir.

Nəhəcirin Orta Tunc dövrü yaşayış yerində mədəni təbəqənin xarakterini müəyyənləşdirmək məqsədilə üç yerdə kəşfiyyat qazıntısı apardıq. Onlardan yalnız ikisində bu dövrə aid maddi-mədəniyyət qalıqlarına rast gəldik. Digər-üçüncü kəşfiyyat qazıntısı orta əsrlərə aid materialla zəngin idi. Birinci kəşfiyyat qazıntısı qədim yaşayış yeri ilə nekropolun qovuşduğu yerdən cənubda, 1,5x1,5 metr ölçülü sahədə aparıldı. Burada mədəni təbəqəyə rast gəlinmədi. Torpağın üst qatında Orta Tunc dövrünə aid, əksəriyyəti forma verməyən keramika nümunələrindən ibarət olan boyalı qab parçaları aşkar olundu. Qabların gilinə narın qum qatılaraq, çəhrayı rəngdə, yaxşı bişirilmişdir. Bəzisinin gilinin tərkibində iri qum dənələrinə rast gəlinir. Keramika nümunələri xaricdən qırmızı boya ilə örtülərək cilalanmış, qara rənglə naxışlanmışdır.

Çölmək tipli, naxışsız bir qabın ağız kənarı xaricə qatlanmışdır. Onun səthi qırmızı boya ilə örtülərək yaxşı sığallanmışdır. Banka tipli qab parçasının ağız kənarı düz, gövdəsi silindrikdir. Onun gilinə iri qum qatılaraq pis bişirilmiş, lakin hər iki

üzdən sığallanmışdır.

İkinci kəşfiyyat qazıntısı yaşayış yerinin mərkəzi hissəsində 2x2 metr ölçülü sahədə aparıldı. Müəyyən edildi ki, burada mədəni təbəqənin qalınlığı 1,3 metrdir. Qazıntı sahəsində mədəni layların ən üst qatında yerləşən təbəqənin qalınlığı 25 santimetr idi. Daş, torpaq və kül yığınından ibarət olan mədəni təbəqədə Orta Tunc dövrünün ilk mərhələsinə aid boz rəngli və boyalı gil qab parçalarına rast gəlindi. Üst təbəqədən aşkar olunan çəhrayı keramikanın rəng tonları narıncı, qırmızı və qəhvəyi arasında dəyişir. Keramika, başlıca olaraq çölmək tipli qabların parçaları ilə təmsil olunmuşdur. Onların ağız kənarı xaricə qatlanmışdır. Bəzilərinin gilinə iri qum qatılmış, üzərinə qırmızı boya çəkilməklə cilalanmış, qara rənglə naxışlanmışdır. Qazıntıdan bu dövrə aid qara rəngli daşdan hazırlanmış qaşov tipli qəlpələr də aşkar olundu.



**Şəkil 10.** *Nəhəcirqaladan yaşayış yerinin görünüşü*

0,5 metr dərinlikdə yumşaq torpaq və kül yığınlarından ibarət təbəqədə müxtəlif heyvan sümüklərinə də rast gəlindi. Bu dövrə aid maddi-mədəniyyət qalıqları əsasən çəhrayı rəngdə bişirilən keramika məmulatı ilə təmsil olunmuşdur. Onların gilinə narın qum və bəzən isə iri qum qatılaraq yaxşı və orta dərəcədə bişirilmişdir. Bəzilərinin xarici səthi alacalıdır. Qabların üzərinə qırmızı boya çəkilərək cilalanmış, qara rənglə naxışlanmışdır. Küpə, kasa tipli qabların xarici səthi qırmızı rəngdə boyanaraq cilalanmış, qara rəngli dalğalı və şaquli istiqamətdə boğazına çəkilən paralel düz xətlərlə naxışlanmışdır. Naxışlar arasında dalğalı xətlərlə doldurulmuş üçbucaqlar, təpəsi yuvarlaq dairələrlə tamamlanan üçbucaqlar da müəyyən yer tutur.

50-80 santimetr dərinlikdən əldə edilən maddi-mədəniyyət qalıqları arasında çəhrayı rəngli keramika üstünlük təşkil edir. Onlar küpə və kasa tipli qabların



**Şəkil 11.** *Nəhəcir kəndi. Orta əsrlərə aid dəyirman daşı*

parçalarından ibarətdir. Lakin 1 metr dərinlikdən aşkar olunan keramika məmulatı əsasən boyalı qab parçalarından ibarətdir. Onlar narın qum qatılmış gildən hazırlanaraq, keyfiyyətli bişirilmiş, incə bir zövqlə naxışlanmışdır. Naxışlar müxtəlif kompozisiyada şaquli və üfüqi istiqamətdə çəkilmiş həndəsi motivli ornamentlərdən ibarətdir. Bu qatdan gil qabların cilalanmasında istifadə edilən boz rəngli, məsaməli daşdan hazırlanan prizmaşəkilli daş alət tapılmışdır.

Qazıntı sahəsinin 1,2-1,3 metr dərinliyində çəhrayı və boz rəngdə bişirilmiş keramika nümunələrinə, şarşəkilli daş alətə və iri qaya parçalarından ibarət tikinti qalıqlarına rast gəlindi. Bu tikinti qalıqları şərq-qərb istiqamətində olub, dağılmış vəziyyətdə idi. Tikinti qalığının altında ana torpaq aşkarlandı.

Beləliklə, kəşfiyyat qazıntısından aşkar etdiyimiz maddi-mədəniyyət nümunələrinin elmi təhlilindən belə nəticəyə gəlirik ki, arxeoloji materialın hamısı eyni mədəni təbəqəyə aid olmaqla, Orta Tunc dövrü boyalı qablar mədəniyyətinin erkən mərhələsi üçün xarakterikdir. Yaşayış yerinin digər sahələrində mədəni təbəqənin daha qalın olduğu güman edilir. Yaşayış yeri tikinti qalıqları ilə zəngin olduğundan, daha geniş miqyaslı qazıntılara ehtiyac vardır. Arxeoloji materialların təhlilinə əsasən demək olar ki, yaşayış yeri e.ə. III minilliyin ortalarından e.ə. I minilliyin ortalarınadək mövcud olmuşdur. Orta əsrlərdə də bu yaşayış yerindən qismən istifadə edilmişdir.

II Nəhəcir yaşayış yeri Orta əsrləri əhatə edir. Abidə müasir Nəhəcir kəndinin şi-

mal-qərbində, Orta Tunc dövrü yaşayış yerinin olduğu sahədə salınıb. Abidə şimal tərəfdən Nəhəcir dağı ilə məhdudlaşır və onun yamacı boyunca ensiz zolaq şəklində şərqdən qərbə doğru uzanır. Burada 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılıb. 2002-ci ildə tərəfimizdən mədəni təbəqəni yoxlamaq məqsədi ilə 3x2 metr (6 $m^2$) sahədə kəşfiyyat qazıntısı aparıldı. 25-30 santimetr dərinlikdə müasir dövrə və Orta əsrlərə aid gil qab parçaları aşkar edildi. 40 santimetr dərinlikdə çatdıqda qalın kül yığını toplanmış mədəni təbəqəyə rast gəlindi. 60-80 santimetr dərinlikdən aşkar olunan tapıntılar orta əsrlər üçün xarakterik idi. Qəhvəyi rəngli mədəni təbəqədən xeyli dəmir əşya tapıldı. Qazıntı 1,4 metr dərinliyədək davam etdirildi. Alt qatlarda - 1,2-1,4 metr dərinlikdə Orta Tunc dövrünə aid gil qab parçalarına rast gəlindi. Mədəni



**Şəkil 12.** *Nəhəcir kəndi. Orta əsrlərə aid tapıntılar*

təbəqə 1,4 metr dərinlikdə xam torpaqla bitdi.

Qeyd edək ki, yaşayış yerinin bəzi hissələrində düzbucaqlı formalı tikinti qalıqları-divarlar 2-2,5 metr hündürlükdə qalır. Divarlar çiy kərpicdən, bəzi yerlərdə isə daşdan tikilmişdir.

Qazıntı zamanı aşkar olunan Orta əsr keramikası müxtəlif formalı kasa, küpə və dolça tipli qabların hissələri ilə təmsil olunur. Şirli qablar yüksək sənətkarlıqla hazırlanmaları ilə seçilirlər. Onların naxışlanmasında göy, yaşıl, mavi rənglərdən daha çox istifadə edilib. Qabların bir qrupunun yalnız oturacaq hissəsi qalıb. Dabanları hündür olan belə qablar içəridən daha dərindir. Qabların içərisi ağ anqob üzərində



**Şəkil 13.** *Nəhəcir kəndi. Zeyərək daşı. Orta əsrlər dövrü*

nəbati ornamentlə naxışlanaraq şəffaf şirlə örtülüb. Kasa tipli qablar iki tipə ayrılır. Birinci tipə aid narın qum qatılmış gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş qabarıq gövdəli kasaların ağzı bir qədər içəri yığılıb. Onların ağız kənarı çərtmə bəzəklərlə naxışlanıb. İkinci tip kasaların gövdəsi konusvari, ağız kənarı içəriyə doğru çıxıntılıdır. Narın qum qatılmış gildən hazırlanaraq içərisi və ağzının kənarı xaricdən yaşıl rənglə şirlənmişdir. Digər bir qabarıq gövdəli kasanın hər iki üzü ağ rəngli şirlə örtülmüşdür.

Küpə tipli qablar qulp parçaları, ağız kənarı və oturacaqlar ilə təmsil olunub. Onlardan bəzisinin xarici səthi batıq zolaqlarla, bəzisi isə cızma xətlərlə naxışlanıb. Dolça tipli qab silindrik boğazlıdır. Onun gilinin tərkibinə narın qum qatılaraq çəhrayı rəngdə yaxşı bişirilmişdir.

Orta əsr yaşayış yerindən bu dövrə aid yerüstü materiallar da toplanmışdır. Onlar kasa tipli şirli qabların parçalarından ibarətdir. Qabların gili çəhrayı, bəzisində isə sarı rəngdədir. Kasaların birinin üzəri ağ anqobla örtülərək qəhvəyi və yaşıl rənglə naxışlanmış, üstünə rəngsiz şir çəkilmişdir. İkinci kasanın içərisi açıq mavi rəng üzərindən yaşıl və göy rəngli xətlərlə naxışlanmış, rəngsiz şirlə örtülmüşdür. Digər bir kasa boz rəngdə olub, iri qum qarışığı olan gildən hazırlanaraq orta dərəcədə bişirilib.

Bu dövrə aid bir ədəd dəmir nizə ucluğu kənddən şərqdə, "Dəmiritən" adlı yerdən tapılıb.

Əhalinin verdiyi məlumata görə, Nəhəcir kəndinin girəcəyində yol salınarkən küp qəbirlər aşkar olunmuşdur.

Orta əsr Nəhəcir yaşayış yeri bütövlükdə XIV-XVII əsrləri əhatə edir.

III Nəhəcir yaşayış yeri Nəhəcir kəndindən qərbdə, Qahab kəndindən Nəhəcirə gedən yolun şimalında yerləşir. Abidə kəndə gedən torpaq yolla iki hissəyə bölünür. Onun qərb qurtaracağı isə quru çay vadisi ilə məhdudlaşır. Dəmir dövrünün abidəsidir. Qədim yaşayış yeri 1990-cı ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış və burada ilkin kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Arxeoloji materiallar və digər maddi-mədəniyyət nümunələri Dəmir dövrünü əhatə edir.

Hazırda yaşayış yerində duzbucaqlı planda tikilmiş böyük bina qalığı vardır. Onun divarları yonulmamış iri qaya parçalarından iki cərgə hörülərək, divarların arası kiçik həcmli daşlarla doldurulub. Yaşayış yeri dağətəyi zolaqda yerləşdiyindən mədəni təbəqənin üzəri qalın ot qatı ilə örtülü idi. Abidədə mədəni təbəqə 0,5-1 metr qalınlığında izlənilir. Yerüstü materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Əsasən çəhrayı rəngli gil məmulatı küpə, kasa və boşqab tipli qabların qırıqlarından ibarətdir. Aşkar edilmiş arxeoloji materialların qonşu abidələrlə qarşılıqlı təhlili və analogiyasına əsasən demək olar ki, III Nəhəcir yaşayış yeri e.ə. VI- eramızın IV əsrlərində mövcud olmuşdur.

## Ağsal yaşayış yeri

Ağsal yaşayış yeri Tunc və erkən Dəmir dövrünə aiddir. Abidə Əlincəçayın sol sahilində, Milax kəndindən şimal-şərqdə, Ağsal adlı yerin yaxınlığında yerləşir. Yaşayış yeri yerli əhali arasında "kənd yeri" adı ilə tanınır. İki hündür təpənin yamacını əhatə edən və qərb tərəfdə ensiz dərə vasitəsilə Əlincəçayla uzlaşan abidə strateji cəhətdən əlverişli mövqedə olub, hər tərəfdən hündür dağlarla əhatələnmişdir.

1991-ci ildə qeydə alınmış qədim yaşayış yeri kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Onun tutduğu sahə 3600 kvadratmetrdir. Buradan aşkar olunmuş arxeoloji materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Abidənin yerləşdiyi təpələrin üzəri uçub tökülmüş tikinti qalıqları ilə örtülmüşdür. Həmin qalıqlara əsasən demək olar ki, binaların tikintisində əsasən dağ daşından istifadə olunmuşdur. Təpələrdən birinin (şimal-qərbdəki təpənin) üzərində iri daşlardan hörülmüş divar qalıqları yaxşı qalmışdır. Divarın uzunluğu 3,5, eni isə 1,6 metrdir. Araşdırmalar belə divarların müdafiə məqsədilə tikildiyini göstərir.

Yaşayış yerinin bəzi hissələri aşınma nəticəsində dağıldığından, mədəni təbəqə üzə çıxmışdır. Qalınlığı bəzi yerlərdə 0,5 metrə çatan mədəni təbəqədən və abidənin üzərindən müxtəlif daş alətlər - dən daşı, çəhrayı və boz rəngli gil qab qırıqları əldə edilmişdir.

Boz rəngli keramika məmulatı əsasən küpə və kasa tipli qabların qırıqları ilə təmsil olunur. Qabların gilinə narın qum qatılaraq yaxşı bişirilmişdir. Boz rəngli gil məmulatına forma verməyən qab qırıqları da daxildir. Onların bəzisi çəhrayı astarlıdır. Bəzi qab qırıqlarının üzərinə qara boya çəkilmişdir.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqlarından ibarətdir. Bəzi qabların üzəri cızma xətlərlə naxışlanmış, xarici səthi hislənmişdir. Bəziləri isə hər iki üzdən qırmızı boya ilə örtülmüşdür.

Yaşayış yerində mədəni təbəqənin olduqca az yığılması burada həyatın mövsümi xarakter daşıdığını göstərir. Abidədən toplanmış gil məmulatının əksəriyyəti - xüsusilə ağzının altı batıq kasalar e.ə. I minilliyin birinci yarısı üçün, az bir qismi isə Tunc dövrü üçün xarakterikdir. Daş alətlər xronoloji cəhətdən Tunc dövrünün ilk çağlarına doğru meyl edir. Arxeoloji tapıntıların təhlilinə əsasən demək olar ki, burada yaşayış e.ə. III-I minilliklər boyu davam etmişdir.

## Boyəhməd qədim yaşayış yerləri

I Boyəhməd yaşayış yeri Culfa rayonunun eyni adlı kəndindən şimal-qərbdə, Dərəçayın sol sahilində yerləşir. Yaşayış yeri dağ silsiləsinin çaya enən yamacında yerləşir. 1991-ci ildə Vəli Baxşəliyev tərəfindən qeydə alınmış bu abidə şimal tərəfdən Dərəçay, şimal-şərq və şimal-qərbdə isə dərin dərə ilə məhdudlaşır. Sahəsi 1500 kvadratmetrdir. İlkin arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdir. Maddi-mədəniyyət nümunələrinin təhlili göstərir ki, qədim yaşayış yerində həyat Erkən Dəmir dövründə çiçəklənmişdir.

Abidənin yerləşdiyi ərazidən sonralar da uzun müddət yaşayış yeri kimi istifadə edildiyi üçün onun üzəri yerüstü materiallarla zəngin idi. Mədəni təbəqə isə tamamilə dağıdılıb. Yerin səthində xeyli sayda saxsı qab parçalarına və dən daşlarına təsadüf edilir. Keramika məmulatı əsasən forma verməyən qırıqlardan ibarət olub, narın qum qatışıqlı gildən hazırlanmış, boz rəngdə bişirilmişdir. Bəzi qabların üzərinə qara boya çəkilərək yüngülcə cilalanmışdır.

Dən daşları çəhrayı və boz rəngli tufdan hazırlanmışdır. Onlar alt daşlardan ibarətdir. Belə dən daşlarının işlək hissəsi oval formalı olub, orta hissədə bir qədər çökükdür. Yaşayış yerində həyat davamlı olmuşdur. Tədqiqatlara əsasən demək olar ki, müəyyən müddətdə yaşayış yerinin tutduğu sahə genişlənərək, Dərəçayın sağ sahilini də əhatə etmişdir.

Aşkar olunmuş materiallara əsasən I Boyəhməd yaşayış yerinin eradan əvvəl I minilliyin birinci yarısına aid etmək olar.

II Boyəhməd yaşayış yeri eyni adlı kəndin cənub-qərbində, Dərəçayın sağ sahilində yerləşir. Yaşayış yeri şimal və şərqdə dağ silsiləsi, şimal-qərb və cənub-qərbdə isə dərin dərələrlə əhatə olunmuşdur. Abidə 1991-ci ildə qeydə alınmış və ilkin olaraq kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Buradan əldə edilmiş ilk Orta əsrlər dövrünə aid arxeoloji materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır. Qədim yaşayış yerinin ümumi sahəsi təxminən 1300 kvadratmetrdir.

Abidə iki dərin dərənin yaratdığı çıxıntı üzərində yerləşir. Onun cənub-qərb tərəfində xeyli tikinti qalığı var. Düzbucaqlı evlərə aid bu tikililər daşdan inşa olunmuşdur. Bəzi evlərin yerində dördkünc formalı çalalar qalmışdır. Dərəçayın sağ sahilində dəyirman daşının hissələri vardır. Ağ rəngli dəyirman daşının ortasında diametri 10 santimetr olan deşik açılmışdır. Yaşayış yerinin bu hissəsində çəhrayı və boz rəngli gil məmulatına, həmçinin müxtəlif dən daşlarına təsadüf olunur.

Abidənin şimal hissəsində müasir müsəlman qəbiristanlığı yerləşir. Həmin sahədən bir qədər aşağıda yol çəkilərkən yaşayış yerinin mədəni təbəqəsi dağılmışdır. Qalınlığı 0,5 metrdən 1,5 metrə qədər olan mədəni təbəqə tünd rəngdə olub, tikinti qalıqları, heyvan sümükləri və gil qab parçalarından ibarətdir. Kəsikdəki təbəqədən tapılan çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqları yerüstü materiallarla eyniyyət təşkil edir.

Çəhrayı rəngli gil məmulatı küpə, kasa, çıraq tipli qablardan ibarətdir. Küpə tipli qablar iki ədəddir. Onların gilinə narın qum qatılmış, sarı rəngdə keyfiyyətli bişirilmiş, hər iki üzdən yaxşı hamarlanmışdır. Bura gil ocaq badının qırığı da daxildir. O, bitki qalığı olan gildən olduqca kobud hazırlanmış və pis bişirilmişdir. Gövdəsi azacıq qabarıq olub, oturacağa doğru trapesiya formasında genişlənir. Ağız kənarı dəyirmidir.

Boz rəngli gil məmulatı kasa tipli qabların qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir. Kasalar silindrik konusvari formada olub bir-birindən bir qədər fərqlənirlər.

Yaşayış yerində aparılan kəşfiyyat qazıntısı zamanı 20x20x5 santimetr ölçüdə bişmiş kərpiclər və digər inşaat materialları aşkar edildi. Daş və bişmiş kərpicdən inşa edilmiş evin qalığı düzbucaqlı-dördkünc formada idi. Mədəni təbəqədən xeyli miqdarda şirsiz və şirli qab qırıqları, şüşə parçaları tapıldı. Şirsiz saxsı məmulatı qazan və səhəng tipli qablardan ibarətdir.

Mədəni təbəqədən tapılmış şirli qablar isə əsasən monoxrom, marqans, həmçinin iki rənglə bəzədilmiş kasa və boşqab tipli qablara məxsusdur. Ağ anqob üzərindən çəkilmiş monoxrom şir yaşıl və mavi rənglidir. Qabların üzərinə işlənmiş təsvirlər nəbati və həndəsi motivlidir. Abidədən tapılmış arxeoloji materiallar Orta əsrlər dövrü üçün xarakterikdir.

## Berdi yaşayış yeri

Berdi yaşayış yeri eyni adlı qalanın qərb ətəyində yerləşir. Yaşayış yerində evlər qrup halında, bir-birinin yanında inşa olunmuşdur. İnşaat materialı kimi daş və çiy kərpicdən istifadə olunmuşdur. Evlər dördkünc formalıdır. Yaşayış yerinin ərazisində ictimai binaların, heyvan ağıllarının qalıqları vardır. Yaşayış yerinin həm cənub, həm də şimal qurtaracağında su qaynağı vardır.

Axtarışlar zamanı toplanan yerüstü materiallar olduqca geniş bir dövrü əhatə edir. Keramika məmulatına əsasən yaşayış yerini IV-XVIII əsrlərə aid etmək olar.

## Zoğala yaşayış yerləri

I Zoğala yaşayış yeri Əlincəçayın sağ sahilində, Milax kəndindən 6 kilometr şimal-qərbdə yerləşir. Yaşayış yeri cənub-qərbdə Zoğala çayı, şimal-şərqdə isə dərin dərə ilə sərhədlənir. Onu şimal tərəfdən dağ silsiləsi əhatə edir. Toplanmış maddi-mədəniyyət qalıqlarının təhlilinə əsasən abidənin Antik və İlk Orta əsrlərə aid olduğu təsdiqlənmişdir.

Yaşayış yerinin adı ədəbiyyatda Zağalı, Zoğalı, Zoğallı kimi qeyd edilmişdir.

Yerli əhali isə abidəni və onun yerləşdiyi ərazini “Yeni Zoğala” adlandırır. Yaşayış yerindən 1932-ci ildə təsadüfən iki tunc qrifon tapılmışdır. Qrifonlarla tanış olduqdan sonra İ.P.Şeblıkin bu ərazidə kiçik qazıntılar aparmış və sütun altlıqları aşkar etmişdir. 1987-ci ildə V.H.Əliyev və V.B. Baxşəliyev tərəfindən yaşayış yerinə kəşfiyyat xarakterli baxış keçirilmişdir.

Yaşayış yerinin yerləşdiyi sahə düzənlikdən ibarətdir. Onun qərb tərəfində, yolun kənarında tənha bir ağac vardır. Bu ərazi uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən, torpaq şumlandığından mədəni təbəqə tamamilə dağıdılıb. Aparılan tədqiqatlar nəticəsində yaşayış yerindən çəhrayı rəngli forma verməyən gil qab qırıqları, o cümlədən bir ədəd kasa parçası tapılmışdır.

Vaxtilə buradan İ.P.Şeblıkin tərəfindən tapılmış İlk Orta əsrlərə aid sütun altlıqları hazırda yoxdur. Onların harada olması da sual altındadır. Lakin buradan





**Şəkil 14.** *I Zoğala yaşayış yeri*

tapılmış iki ədəd tunc qrifonun biri Sankt-Peterburqda Dövlət Ermitajı Muzeyində, ikincisi isə Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır (inventar № 3675). Qrifon müxtəlif heyvanların əlamətlərini özündə birləşdirən fantastik bir varlıq şəklindədir. Qədim Şərq, o cümlədən türk xalqlarının mifologiyasında aslan bədənli, qartal qanadlı və başlı fantastik heyvan təsvirli olan bu fiqurun dik qulaqları, əyri dimdiyi var. Onun sinəsi döymə üsulu ilə nəbati naxışlarla bəzədilib. Aşağı qurtaracağında isə qüdrətli və qorxmaz heyvan olan aslanın güclü, geniş pəncəli ayaqları əks olunub. Tədqiqatçılar Zoğala qrifonlarının taxt ayağı olduğunu qeyd etmişlər. Fikrimizcə, bu qrifonlar hər hansı taxtın ayağından çox, oturacağın baş hissəsini özündə əks etdirir. Çünki, bunlar iki ədəddir. İstənilən taxtın isə dörd ayağı, oturacağın isə iki baş hissəsi olur. Bu qrifonların dövrü haqqında müxtəlif fikirlər söylənilir. Lakin bu qrifonları ilk Orta əsrlərə - eramızın V-VII əsrlərinə aid edənlər daha haqlıdırlar.

Aşkar olunmuş tapıntılara əsasən demək olar ki, I Zoğala yaşayış yerində həyat e.ə. IV əsrdən bizim eranın VII əsrinədək davam etmişdir. Müşahidələr göstərir ki, Zoğalada həyat sonrakı dövrlərdə bərpa olunmuş və Son Orta əsrlərədək davam etmişdir.



**Şəkil 15.** *II Zoğala yaşayış yeri*



**Şəkil 16.** *II Zoğala yaşayış yeri*



**Şəkil 17.** *Zoğaladan tapılımış tunc qrifon*

II Zoğala yaşayış yeri (Köhnə Zoğala) Milax kəndindən şimal-qərbdə, Zoğalaçayın sol sahilində, birinci yaşayış yerindən bir qədər aralıda yerləşir. Bu abidə şərqdə dərin dərə, cənub-qərbdə Zoğalaçay, şimalda isə dağ silsiləsi ilə məhdudlaşır. Burada 1987-ci ildə V.Əliyev və V.Baxşəliyev kəşfiyyat xarakterli tədqiqat işləri aparmışlar.

Abidə hündür təbii təpənin yamacında şimaldan şərqə doğru uzanır. Bu yaşayış yerində mövcud olmuş evlər və digər tikinti qalıqları tamamilə uçub dağılmış, onların yerində isə yalnız düzbucaqlı və oval formalı çalalar qalmışdır. Uçub tökülmüş tikinti qalıqlarına əsasən demək olar ki, tikintilər əsasən daşdan olmuşdur. Yaşayış yerində aparılan tədqiqatlar zamanı yerüstü gil məmulatına və yaxud əmək alətlərinə təsadüf edilmədi. Lakin tədqiqatlardan o müəyyən olundu ki, burada mədəni təbəqənin qalınlığı 0,5-1 metr arasındadır. Bu abidə Son Orta əsrlərə, təqribən XVI-XVIII əsrlərə aid yaşayış yeri olub.



**Şəkil 18.** *II Zoğala yaşayış yeri*

## Dəmirli yaşayış yeri

Dəmirli yaşayış yeri Dəmirliçayla Bərxudarçayın qovşağında yerləşir. Yaşayış yeri hər iki çayın sağ və sol sahillərini əhatə etsə də, onun çox hissəsi Dəmirliçayın sağ sahilində yerləşir. Bu ərazidə xeyli sayda düzbucaqlı və dairəvi formalı evlərin qalıqları vardır. Bəzi hissələrdə iri daşlardan hörülmüş, xalq arasında "kələk" adlandırılan tikinti qalıqları qalmışdır. Ətraf ərazilərdə geniş otlaq sahələrinin olmasına və aparılmış tədqiqatlara əsasən demək olar ki, yaşayış yeri yarımköçmə təsərrüfatla məşğul olan maldar tayfaların yurd yeri olmuşdur. Bu ərazidən toplanmış arxeoloji materialın azlığına baxmayaraq, onların dövrü göstərir ki, bu mövsümi yaşayış yeri Son Antik və Erkən Orta əsrlərə - yəni eramızın I-VII əsrlərinə aiddir.



**Şəkil 19.** *I Dəmirli yaşayış yeri*



**Şəkil 20.** *II Dəmirli yaşayış yeri*

## Çola yaşayış yerləri

I Çola yaşayış yeri Kərimquludizə kəndinin şərq qurtaracağında yerləşir. Abidə şərqdə hündür təbii təpə ilə məhdudlaşır. Onun ərazisi təsərrüfat işləri görülən zaman texnika vasitəsilə kürənib dağıdılmışdır. Bu ərazidə Orta əsrlərə aid xeyli sayda şirsiz keramika parçalarına rast gəlinir. Vaxtilə yaşayış yerinə çəkilən kəhriz hal-hazırda da fəaliyyət göstərir.

Yaşayış yerinin bəzi hissələrində daşdan tikilmiş düzbucaqlı planlı bina qalıqları mövcuddur. Arxeoloji materiallara əsasən yaşayış yerini III-VIII əsrlərə aid etmək olar.

II Çola yaşayış yeri xalq arasında Qalaqabağı da adlanır. Abidənin yerləşdiyi ərazidə iri daşlardan tikilmiş oval və dördkünc formalı tikinti qalıqları vardır. Yaşayış yeri suyu qurumuş çayın sahilində, strateji cəhətdən əlverişli mövqedə yerləşir. Araşdırmalar göstərir ki, bu yerlər yarımköçmə təsərrüfatla məşğul olan maldar tayfaların məskəni olmuşdur.

Yerüstü materiallar Son Orta əsrlər üçün xarakterik olan, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Aşkar olunmuş arxeoloji materiallar XVIII-XIX əsrlərə aiddir.

## Kolasu yaşayış yeri

Kolasu yaşayış yeri Culfa rayonunun Ləkətağ kəndindən şimal-şərqdə, Kolasu çayı ilə Dəmirli çayının qovşağında yerləşir. Yaşayış yeri 1991–ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Abidə dağ silsiləsinin çay qovşağına enən yamacında yerləşir. Yaşayış yeri bir-birinin üzərində yerləşən üç terrası əhatə edir. Onun üzəri uçub-tökülmüş tikinti qalıqları ilə örtülüb. Tikintilər tamamilə dağıdılıb. Binaların yerində dördkünc və oval formalı çalalar qalmaqdadır. Ətrafa səpələnmiş tikinti qalıqlarına əsasən belə hesab etmək olar ki, evlər əsasən daşdan inşa edilmişdir.

Tədqiqatlar nəticəsində müəyyən edildi ki, yaşayış yerində mədəni təbəqə yoxdur. Yerüstü materiallar sınmış dən daşı və çəhrayı rəngdə bişirilmiş gil qab parçalarından ibarətdir. Gil məmulatı forma verməyən qab parçaları ilə təmsil olunub. Onların gilinə narın qum qatılaraq çəhrayı rəngdə, yaxşı bişirilmişdir.

Dən daşları iki nümunə ilə təmsil olunub. Onlar boz rəngli çay daşından oval formada hazırlanıb. Bu tip əmək alətləri üst tərəfdə yastı, aşağıda isə qabarıqdır. Kolasu yaşayış yerindən aşkar olunmuş maddi-mədəniyyət qalıqları bütövlükdə VI-VIII əsrlərə aiddir.

## Qazançı yaşayış yeri

Qazançı yaşayış yeri indiki Qazançı kəndinin ərazisini və onun şimal hissəsini əhatə edir. Qədim yaşayış yerinin əksər hissəsi müasir tikintilərin altında qalmışdır. Onun yalnız kiçik bir hissəsi salamatdır. O şimal-şərqdə Qazançı qalası, şərqdə Əlincəçayla məhdudlaşır. Yaşayış yerinin şimal-qərbindən avtomobil yolu keçir.



**Şəkil 21.** *Orta əsrlərə aid gil qablar. Qazançı kəndi*



**Şəkil 22.** *Orta əsrlərə aid gil qablar. Qazançı kəndi*



**Şəkil 23.** *Sütun altı. Qazançı kəndi*



**Şəkil 24.** *Duz qabı. Qazançı kəndi*

Qədim yaşayış yerinin əsas hissəsi dağın ətəyində yerləşdiyindən, sahəsi girintili-çıxıntılıdır. Bu sahədə mədəni təbəqə aşınma nəticəsində dağılmış, şirli və şirsiz qab qırıqları ətrafa səpələnmişdir. Abidənin şərq hissəsində uçub tökülmüş tikinti qalıqlarına təsadüf edilir. Onlar yonulmamış qaya daşlarından ibarətdir. Dağıntı zamanı əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin qalınlığı aydın izlənilir. Bəzi yerlərdə təbəqə 2-3 metrə yaxındır. Təbəqə kül qarışıq torpaq laylarından ibarət olub kül, osteoloji qalıqlar və gil qab qırıqları ilə zəngindir. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən heyvan fiqurları və gil çıraqlar əldə edilmişdir.

Aşkar edilmiş şirli saxsı məmulatı daha zəngin ornamentlərlə naxışlanmışdır. Onların əksəriyyəti anqob üzərindən örtülmüş monoxrom şirli qablardan ibarətdir. Şirli qablar içərisində polixrom, marqans və kobaltla naxışlanmış qablara da təsadüf edilir. Buradan tapılmış marqans üzərindən cızma üsulu ilə bəzədilmiş sadə həndəsi naxışlı qablar da vardır. Belə qabların bölgədə əsas istehsal mərkəzi Naxçıvan şəhəri olmuşdur. Qabların bəzisi ağ anqob üzərindən qəhvəyi və göy rənglə nəbati ornamentlə naxışlanmışdır.

Heyvan fiqurları iki ədəddir. Onlar əsasən qırılmış şəkildə tapılıb. Hər ikisinin baş və gövdə hissəsi salamat qalmışdır. Fiqurlar çəhrayı rəngdə yaxşı bişirilmiş, ağ, göy və mavi rənglə naxışlanmışdır.

Aşkar olunmuş arxeologi materialların təhlilinə əsasən demək olar ki, Qazançı yaşayış yerində həyat IX-XVIII əsrlər boyu davam etmişdir.

## Qıtqın yaşayış yeri

Qıtqın yaşayış yeri Culfa rayonunun Xanəgah kəndindən şərqdə, Əlincəçayın sol sahilində, ondan təqribən 1 kilometr aralıda yerləşir. Yaşayış yeri şərqdə kiçik çay axan dərin dərə, şimalda isə hündür dağlarla məhdudlaşır. Cənub və cənub-qərbdə

abidə Əlincəçay boyunca uzanan kiçik təpələrlə əlaqələnir. Sahəsi orta hesabla 1700 kvadratmetrdir.

Yaşayış yeri 1981-ci ildə V.H.Əliyev və A.Q.Seyidov tərəfindən qeydə alınmışdır. 1991-ci ildə V.B.Baxşəliyev burada kəşfiyyat xarakterli tədqiqat işləri aparmışdır. Aşkar olunmuş arxeoloji materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Abidə dağ çayının sahili boyunca şimal-şərqə doğru uzanır. Onun yerləşdiyi ərazi iki yerdə dərin yarğanla kəsilib. Tikinti qalıqları tamamilə dağıldığından, onların yerində yalnız daş yığınları qalmışdır. Odur ki, yaşayış yerinin planını dəqiq müəyyən etmək mümkün deyil. Yerüstü materiallar çay daşından hazırlanmış dən daşları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz gil qab qırıqları və bişmiş kərpiclərdən ibarətdir. Kərpiclərin ölçüsü 19x19x4 santimetrdir.

Abidənin çox hissəsində mədəni təbəqə dağılmışdır. Lakin salamat qalan yerlərdə onun qalınlığı 1 metrə çatır. Yaşayış yerindən toplanmış yerüstü materiallar sadə və şirli gil qab qırıqlarından ibarətdir.

Şirli gil məmulatı əsasən kasa tipli qabların parçalarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, içəridən yaşıl, yaxud göy şirlə örtülmüşdür. Bəziləri göy rəng üzərindən qəhvəyi rənglə naxışlanmış və şəffaf şirlə örtülmüşdür. Naxışlar həndəsi motivlidir. Buraya forma verməyən qab qırıqları da daxildir. Onların üzərinə əsasən ağ anqob çəkildikdən sonra, qəhvəyi və göy rənglə naxışlanmış və rəngsiz şirlə örtülmüşdür. Qabların bəzisi anqob üstü cızma (enli) üsulu ilə naxışlanmış, oyuqlar yaşıl şirlə doldurulmuş və rəngsiz şirlə qapanmışdır.

Arxeoloji materiallar Qıtqın yaşayış yerinin IX-XVII əsrlərdə mövcud olduğunu deməyə əsas verir.

## Ərəzin yaşayış yerləri

Ərəzin yaşayış yeri eyni adlı kənddən qərbdə, Naxçıvan-Ərəfsə avtomobil yolunun sağ tərəfində yerləşir. Abidənin yerləşdiyi ərazi şimal-şərqdə və cənub-qərbdə quru çay vadisi ilə məhdudlaşır. Yaşayış yeri sel sularının yuyub açdığı yarğanlarla bir neçə hissəyə bölünmüşdür. Qədim yaşayış yeri 1989-cu ildə bu ərazidə su hovuzu tikilərkən təsadüfən aşkar olunmuşdur. Tikinti zamanı abidənin bir hissəsi dağılmışdır. 1991-ci ildə V.Baxşəliyev burada kəşfiyyat xarakterli tədqiqat işləri aparmış, yerüstü materiallar toplamışdır.

Yaşayış yerinin ətraf ərazilərə nisbətən bir qədər hündürdə olan mərkəzi hissəsi 360 kvadratmetr sahədə qismən salamat qalmışdır. Yerüstü tapıntılar əmək alətlərinin qırıqlarından, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı qab parçalarından, bişmiş kərpic və istehsal tullantılarından ibarətdir. Abidənin bir tərəfində mədəni təbəqə 2 m qalınlığında izlənilir. Lakin yaşayış yerinin kənarlarında mədəni təbəqə qismən az olmaqla qalınlığı 0,5 metrə çatır. Dağılmış hissələrdə qara rəngli kül dolu ocaq yerlərinə təsadüf olunur.

Yerüstü materiallar əsasən gil məmulatından ibarət olub, şirli və şirsiz gil qab qırıqları ilə təmsil olunub. Şirsiz saxsı məmulatı qapaq, çölmək, küpə və kasa tipli qabların parçalarından ibarətdir. Küpələr formaca müxtəlifdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Kasalar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onlar qabarıq gövdəlidirlər. Sadəcə, belə qablar ağız kənarlarının formasına görə bir-birindən fərqlənirlər. Kasaların bəzisinin ağzının kənarı xaricdən qabarıq zolaqla əhatə olunmuşdur.

Şirli saxsı məmulatı əsasən kasa tipli qabların hissələrindən ibarətdir. Lakin onların içərisində tək-tək badya və banka tipli qablara da təsadüf olunur. Qabların ağzının kənarı daxildən, bəzən isə xaricdən yaşıl şirlə örtülmüş, səthi anqoblanmış, üstü cızma üsulu ilə naxışlanmışdır. Cızılmış yerlərə tünd, yaxud açıq yaşıl rəng çəkilmiş və şəffaf şirlə örtülmüşdür. Naxışlar əsasən həndəsi xarakterlidir. Kasalardan bəzisinin ağız kənarı basma naxışla bəzədilmişdir. Arxeoloji materialların elmi təhlilinə əsasən Ərəzin qədim yaşayış yerini XIV-XVII əsrlərə aid etmək olar.

II Ərəzin yaşayış yeri eyni adlı kənddən qərbdə, Naxçıvan şəhərinə gedən yolun sol kənarında yerləşir. Yaşayış yeri şimaldan cənuba doğru uzanan oval təpə formasındadır. Yaşayış evləri tamamilə dağıldığından onların formasını müəyyən etmək mümkün deyil. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir. Onun qalınlığı 1-1,5 metr arasındadır. Abidənin üzərindən toplanmış maddi-mədəniyyət qalıqları çəhrayı rəngdə bişirilmiş şirsiz və şirli saxsı məmulatından ibarətdir. Aşkar edilmiş arxeoloji materiallar XIV-XVIII əsrlər üçün xarakterikdir.

## Zərişdərə yaşayış yeri

Zərişdərə yaşayış yeri Ləkətağ kəndindən cənub-qərbdə, Əlincəçayın sağ sahilində yerləşir. Abidə cənub-şərqdə avtomobil yolu, şimal-şərqdə isə dərin dərə ilə məhdudlaşır. Onu qərb tərəfdə hündür dağlar əhatə edir. Sahəsi təxminən 890 kvadratmetr olan yaşayış yerində 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Abidə dağ yamacında yerləşdiyindən mədəni təbəqə aşınaraq dağılmışdır. Suyun yuyub açdığı yarğanlarda mədəni təbəqəyə təsadüf edilmir. Lakin buradan forma verməyən şirsiz saxsı qab parçalarına təsadüf edilir.

Yaşayış yerinin ərazisindən hazırda əkin sahəsi kimi istifadə olunur. Odur ki, onun sərhədlərini dəqiq müəyyənləşdirmək mümkün deyil. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada böyük məscid və yaşayış evləri olmuşdur. Etnoqrafik məlumatlardan və infarmatorların söylədiklərindən aydın olur ki, buradan kir-kirə daşı, mis qablar, şamdan və başqa əşyalar tapılmışdır. Lakin aşkar olunmuş materialların heç biri indiyədək qalmamışdır.

Yaşayış yerinin şərq qurtaracağında pir vardır. O dairəvi formada iri daşlar və kollarla əhatələnmişdir. Arxeoloji materialların təhlili göstərir ki, Zərişdərə yaşayış yerində həyat təxminən XVI-XVIII əsrlərdə davam etmişdir.

## İlandağ yaşayış yeri

İlandağ yaşayış yeri Culfa rayonunun Gal kəndindən şimal-şərqdə, İlandağın şərq yamacında yerləşir. Abidənin şərq tərəfindən Gilançay istiqamətində gedən torpaq yol keçir. Yaşayış yerində 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yeri dağın yamacında, təbii cəhətdən əlverişli mövqedə yerləşir. Bura üç tərəfdən sıldırım qayalarla əhatələnib. Yerli əhali arasında onu "Nəbi qalası" da adlandırırlar. Qalanın ətrafına möhrədən divar tikilib. Divarın bünövrəsi bəzi yerlərdə qaya daşlarından hörülüb. Yaşayış yerində daş və möhrədən tikilmiş ev qalıqları vardır. Divarların tikintisində çınqıl qarışıqlı palçıqdan istifadə edilmişdir. Mədəni təbəqə aşınma nəticəsində dağılmışdır. Lakin bəzi yerlərdə onun qalınlığı 0,5 metrdən 1 metrə çatır. Yerüstü materiallar əsasən gil qab parçalarından ibarət olub, çəhrayı rəngdə yaxşı bişirilmişdir. Onlar küpə və kasa tipli qablara aiddir.

Küpələrin gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən hamarlanmışdır. Kasa tipli qabların oturacağı hündür dabanlı olub bir qədər içəriyə doğru batıqdır. İçərisi ağ anqob üzərindən yaşıl və qəhvəyi rənglə nəbati ornamentlə naxışlanmışdır. Bəzi kasaların ağız kənarı xaricdən sadə həndəsi xətlərlə bəzədilmişdir.

Tapıntılar içərisində şüşə qablar da vardır. Onlar bir neçə nümunə ilə təmsil olunur. Qablardan birinin boğazı silindrik, ağız kənarı pilləlidir. İkinci nümunə şüşə qabın oturacaq hissəsinə aid olub, yastıdır. Gövdəsi yuxarıya doğru şarşəkilli formada genişlənir. Aşkar edilmiş tapıntılara və tikinti qalıqlarına əsasən demək olar ki, İlandağ yaşayış yerində Antik dövrdən XI-XVIII əsrlərədək yaşayış olmuşdur.

## Göynük orta əsr yaşayış yerləri

Göynük kəndi Culfa rayonunun şimal-qərbində, dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq və arıçılıqdır. Göynük və Nəhəcir kəndləri arasında torpaq yolu mövcuddur. Ərazinin coğrafi mövqeyi dağ yolları vasitəsilə Babək və Şahbuz rayonlarının yaşayış məntəqələri ilə əlaqə yaratmağı mümkün edir. Kəndin ərazisində boyalı qabların (Orta və Son Tunc dövrü) olması haqqında məlumat alsaq da, onların yerini dəqiq müəyyənləşdirə bilmədik. Kənddən iki kilometr şimalda yerli əhali tərəfindən müqəddəs sayılan pir vardır.

Arxeoloji abidələr, başlıca olaraq, Göynük kəndi ətrafında və yaxınlıqdan keçən Xornu çayı vadisində yerləşir. Göynük kəndi ərazisində orta əsrlərə aid yaşayış yerlərindən biri kəndin şimal-qərbində, Xornu çayının sağ sahilində yerləşir. Bura yerli əhali arasında "Kənd yeri" adı ilə tanınır. Sakinlərin məlumatına görə, vaxtilə burada şəhər olmuşdur. Yaşayış yerində aparılan araşdırmalar onun böyük ərazini əhatə etdiyini göstərdi. Ümumi sahəsi 6 hektara yaxın olan yaşayış yerində uçub-tökülmüş daş və tikinti qalıqları var. Yerüstü materiallar şirli və şirsiz saxsı məmulatından ibarətdir. Yaşayış yerinin əksər hissəsi dağıntıya məruz qalsa da, müəyyən hissəsi salamatdır. Son Orta əsrlərə aid tikinti qalıqları hal-hazırda qalır. Dördkünc və dairəvi

formalı otaqlar etnoqrafik cəhətdən olduqca maraqlıdır. Küncləri dəyirmi dördkünc formalı evlərin bəzisinin mərkəzi hissəsində daşdan qurulmuş ocaqlara, bəzilərində isə kiçik həcmli təndirə rast gəlinir.

Orta əsrlərə aid ikinci yaşayış yeri Göynük kəndinin tikintiləri altındadır. Kəndin şimalında xalq arasında "Gilənarlıq" adlanan ərazidə mədəni təbəqə aşınma nəticəsində dağılmış, buradan Orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatına, habelə Elxanilər dövrünə aid mis sikkəyə rast gəlinmişdi. Təbəqədən həmçinin mis qabların parçaları tapılmışdır. Şirli qablar ağ anqob üzərindən yaşıl və mavi rəngli ornamentlə naxışlanmışdır. Onlar arasında marqans naxışlı keramika nümunələrinə də rast gəlinir. Arxeoloji tapıntılara əsasən bu yaşayış yeri XIV-XVII əsrləri əhatə edir. Lakin evlərin və digər tikintilərin memarlıq xüsusiyyətlərinə və aşkar olunan arxeoloji materiallara əsasən Göynük kəndi ətrafında olan yaşayış yerlərini bütövlükdə XI-XIX əsrlərə aid etmək olar.

## Yeycə yaşayış yeri

Yeycə yaşayış yeri Culfa rayonunun Saltaq kəndindən şimal-şərqdə, Əlincəçayın sol sahilində yerləşir. Abidə şimal şərqdə Əlincəçayla, şimal və cənubda dərin dərə ilə, şərq tərəfdə isə alçaq təpələrlə məhdudlaşır. Onun tutduğu sahə təxmini 1850 kvadratmetrdir. Yaşayış yeri 1991-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alnmışdır.



**Şəkil 25.** *Yeycə yaşayış yeri*





**Şəkil 26.** *Yeycə yaşayış yeri*

Abidə qərbdən şərqə doğru genişlənən uzunsov təpənin üzərində yerləşir. Təpə ətraf yerlərə nisbətən bir qədər hündürdədir. O cənub tərəfdən qayalıqlarla əhatə olunub. Yaşayış yeri arx çəkilərkən güclü dağıntıya məruz qalmışdır. Abidənin yerləşdiyi təpənin üzəri tikinti qalıqları ilə örtülüb. Tikintilər qrup halında iki yerdə yerləşir. Yerin üzərinə səpələnmiş tikinti qalıqlarına əsasən demək olar ki, evlər daşdan və möhrədən tikilmişdir. Onlar tamamilə dağıldığından yerlərdə dördkünc və oval çalalar qalmışdır. Tədqiqatlar göstərdi ki, bu tikinti qalıqları Son Orta əsrlərə aiddir.

Yaşayış yerinin qərb tərəfində möhrədən və daşdan hörülmüş divarlar aşkar olundu. Şimal-qərb tərəfdə arx çəkilərkən yaranan və hündürlüyü 5 metr olan kəsikdə bir-birinin üzərində yerləşən üç tikinti qatı aydın izlənilir. Yerin relyefindən asılı olaraq təbəqə 0,5-1,5 metr qalınlığında qalmışdır. O, kül və ağ rəngli çürüntü qarışığı olan torpaq laylardan ibarət olub, gil məmulatı və osteoloji qalıqlarla zəngindir. Təbəqə yumşaq olduğu üçün təbii aşınmaya məruz qalmışdır. Abidənin dağıntıya məruz qalmış hissəsində aparılan təmizləmə işləri zamanı qara rəngli, bişirilmiş gil qabların hissələri aşkar olundu.

Yerüstü materiallar əsasən şirli və şirsiz saxsı məmulatından ibarətdir. Şirsiz saxsı məmulatı çəhrayı və boz rəngdə bişirilmiş qabların qırıqları ilə təmsil olunub. Çəhrayı rəngdə bişirilmiş gil məmulatı küpə, badya və kasa tipli qablardan ibarətdir. Onların gilinin tərkibinə iri qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Bəzi qabların gövdəsinin yuxarı hissəsi iri çərtmə ornamentlərlə naxışlanmışdır.

Şirli saxsı məmulatı kasa tipli qabların parçalarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Kasalar formaca bir-birindən fərqlənirlər. Kasaların bir qrupu asimmetrikdir. Qabların gövdəsi yuxarıdan bir qədər içəriyə, aşağıdan isə xaricə doğru çıxıntılıdır. Ağız kənarı relsşəkillidir. Bəzilərinin içərisinə tünd yaşıl rəng çəkilmiş, anqob üstü cızma üsulu ilə işlənilməklə nəbati təsvirlərlə naxışlanıb. Naxışlar müxtəlif rənglərlə çəkilərək, enli xətlərlə sərhədlənib. İkinci qrup kasaların gövdəsi qabarıq olub, ağız hissədə bir qədər içəri yığılır. Onlar ağ anqob üzərindən göy rəngdə çəkilmiş xətlə nəbati ornamentlə naxışlanıb. Bəzi qabların hər iki üzü ağ anqobla örtülərək içərisi göy və yaşıl rənglə naxışlanmış, rəngsiz şəffaf şirlə örtülmüşdür.

Yeycə yaşayış yerindən aşkar edilmiş arxeoloji materialların təhlilinə əsasən belə hesab etmək olar ki, abidə IX-XVIII əsrlərə aiddir.

### Kırna yaşayış yeri

Kırna yaşayış yeri eyni adlı kəndin şərq tərəfində yerləşir. Onun tutduğu ərazi girintili-çıxıntılı olub, şərqdən hündür dağ silsiləsi, qərbdən Əlincəçay, şimal və cənubdan isə dərələrlə tamamlanır. Sahəsi təxminən 3700 kvadratmetr olan abidədə 1991-ci ildə aparılmış kəşfiyyat xarakterli tədqiqatlar zamanı məlum oldu ki, qədim yaşayış yerinin çox hissəsi hazırda yeni tikintilərlə örtülmüşdür. Kiçik bir sahədə-hündür təpənin üzərində və ətəklərində orta əsrlərə aid maddi-mədəniyyət qalıqlarına rast gəlindi. Təpənin üzərində orta əsrlərə aid türbə vardır. Bu nadir memarlıq abidəsi



**Şəkil 27.** *Daş karxanası. Kırna kəndi*



**Şəkil 28.** *Daş kanal. Kırna kəndi.*

təbii aşınmaya və dağıntıya məruz qalmışdır.

Yaşayış yerində vaxtilə mövcud olmuş tikintilər demək olar ki, dağılmış, kərpic və möhrə qırıqları ətrafa səpələnmişdir. Yerüstü materiallar olduqca azdır. Onlar cüzi miqdarda gil qab hissələri, qırılmış kərpic və dən daşlarından ibarətdir. Abidənin şimalında tərkibinə daş ovuntusu qatılaraq möhrədən hörülmüş divar qalıqları vardır. Araşdırmalar göstərir ki, yaşayış yerində tikintilər əsasən kvadrat formalı, yaxşı bişirilmiş, ölçüləri 18x18x4 santimetr, 18,5x18, 5x4 santimetr olan kərpiclərlə inşa edilmişdir.

Gil məmulatı şirli və şirsiz saxsı qabların qırıqları ilə təmsil olunub. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş və hər iki üzdən hamarlanmışdır. Bəzi qab hissələri

müxtəlif rəngdə naxışlanaraq, şəffaf və rəngli şirlə örtülmüşdür. Dən daşları bazalt cinsli daşdan hazırlanmışdır. Onların işlək hissəsi yastı və oval, aşağı hissəsi isə qabarıqdır.

Aşkar olunmuş arxeoloji materialların təhlilinə əsasən Kırna yaşayış yerini XI-XVII əsrlərə aid etmək olar.

## Saltaq yaşayış yeri

Saltaq yaşayış yeri eyni adlı kəndin şərqində, Əlincəçayın sol sahilində yerləşir. Abidə qərbdə Əlincəçayla, şimal və şimal-şərqdə ümumi dağ silsiləsi ilə məhdudlaşır.

Ümumi sahəsi 56000 kvadratmetr olan yaşayış yerində 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Abidənin ortasından keçən su arxı onu iki hissəyə ayırır. Bəzi yerlərdə qədim tikintilərin dağılmasına baxmayaraq, şimal-şərq tərəfdə uçub-tökülmüş tikinti qalıqları hazırda yaxşı vəziyyətdədir.

Yerüstü materiallar olduqca azdır. Çəhrayı rəngli qab parçalarının gilinə iri, yaxud narın qum qatılaraq yaxşı bişirilmişdir. Onlar küpə və banka tipli qablara aiddir.

Yaşayış yerində mədəni təbəqənin salamat qaldığı yerdə 3x3 metr (9 $m^2$) sahədə qazılmış kəşfiyyat şurfu zamanı uçub-tökülmüş daş yığınlarına və bişmiş kərpic parçalarına rast gəlindi. 0,5 metr dərinlikdən 1 metr uzunluğunda divar qalığı aşkar edildi. Onun əsas hissəsi qazıntı sahəsindən kənarda qaldığından enini müəyyən etmək mümkün olmadı. Divar yonulmuş daşlardan əhəng qatılmış gəc məhlulu ilə tikilmişdir. Qazıntıdan aşkar edilmiş kvadrat formalı kərpiclərin ölçüləri 23x25x5 santimetr; 23x23x2,5 santimetr dir. Mədəni təbəqə 1,5 metr qalınlığındadır. Saltaq yaşayış yerini X-XVI əsrlərə aid etmək olar.

## Xanəgah yaşayış yeri

Xanəgah yaşayış yeri Xanağa kəndindən şimal-şərqdə, Əlincəçayın sol sahilində yerləşir. Yaşayış yeri hər tərəfdən dağlarla əhatə olunmuş dərədə salınmışdır. Abidənin tutduğu sahə 22400 kvadratmetrdir. 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası yaşayış yerini kəşfiyyat xarakterli tədqiqatlarla öyrənmişdir. Qədim yaşayış yeri dərənin hər iki üzündə yerləşir. Onun əsas hissəsi isə nalşəkilli formalı təpənin yamacını əhatə edir. Hazırda yaşayış yerini iki hissəyə bölən dərə ilə kiçik çay axır. Çayın sahilini aşınmadan qorumaq üçün bu hissə şəhər tipli yaşayış yerlərinə uyğun şəkildə başdan-başa daşla hörülmüşdür. Lakin bu tikintilərin hazırda az bir qismi qalmışdır. Dağılmış yaşayış evlərinin yerində oval, yaxud dördkünc çalalar qalır. Yaşayış yerinin qərbində, təpənin üzərində mədəni təbəqə aydın izlənilir. Bu sahə aşınma nəticəsində dağıldığından, təbəqənin kəsiyi alınmışdır. Təbəqə möhrə, kül, sümük və gil qab hissələrinin yığınından ibarətdir. Mədəni təbəqənin qalınlığı 5 metrə yaxındır. Yerüstü materiallar tikinti qalıqlarından və gil qab parçalarından ibarətdir. Tikintilər daşdan, bəzən isə daş özül üzərində

möhrədən inşa olunmuşdur. Yaşayış yerinin mərkəzində hazırda bərpa edilmiş nadir memarlıq kompleksi yerləşir.

Xanəgah yaşayış yerindən toplanmış çəhrayı rəngdə bişirilmiş qab parçaları küpə, kasa nimçə tipli qablara aiddir. Onlar daxildən anqob üstü qəhvəyi və yaşıl rənglə nəbati təsvirlərlə bəzədilmiş və yarımşəffaf şirlə örtülmüşdür. Bəzisinin xaricdən səthinə göy rəng çəkilmişdir. Hər iki tərəfdən göy rəngli anqob təbəqəsi ilə örtülmüş, göy rəngli xətlərlə naxışlanmış, şəffaf şirlə örtülmüş qablara da təsadüf edilir.

Aşkar olunmuş arxeoloji materialların təhlili Xanəgah yaşayış yerini XI-XVIII əsrlərə aid etməyə imkan verir.

## Xarabalıq yaşayış yeri

Xarabalıq yaşayış yeri Ərəfsə kəndindən şimal-şərqdə, Əlincəçayla Gəvikçayın qovşağından bir qədər yuxarıda yerləşir. Abidə şimal-qərbdə Gəvik, cənub-şərqdə isə Əlincəçayın axdığı dərin dərə ilə məhdudlaşır. Yaşayış yerinin sahəsi 1600 kvadratmetrdir. Onun şərq hissəsində uçub tökülmüş tikinti qalıqları aydın nəzərə çarpır. Lakin tikintilər çox dağıdıldığından onların planını müəyyən etmək mümkün deyil. Yaşayış yerinin böyük bir hissəsi şumlanaraq ondan əkin sahəsi kimi istifadə edilib. Nisbətən salamat qalmış şərq tərəfdə orta əsrlər üçün xarakterik olan çəhrayı rəngli gil qab parçalarına təsadüf edildi.

Yaşayış yerinin bəzi hissələrində mədəni təbəqənin qalınlığı 0,5 metrə çatır. Yerüstü materiallar olduqca azdır. Toplanmış maddi-mədəniyyət nümunələri kasa və küpə tipli qabların hissələrinə aiddir. Kasalardan birinin oturacağı diskşəkilli olub içəriyə doğru batıqdır. O xaricdən yaxşı hamarlanmış, daxildən göy şirlə örtülmüşdür.

Küpə tipli qabın gilinə iri qum qatılmış, pis bişirilmişdir. Divarların arasında bişməmiş təbəqə qalmışdır. Oturacağı xaricdən uzunsov çərtmələrlə naxışlanıb. Aşkar olunmuş arxeoloji materiallardan görünür ki, Xarabalıq yaşayış yerində həyat XII-XVII əsrlərdə davam etmişdir.

## Camaldın yaşayış yeri

Camaldın yaşayış yeri eyni adlı kəndin şimal-şərqində, Alməmməd pirinə gedən yolun sağ tərəfində yerləşir. Şimalda quru çay vadisi, şərqdə dərə, cənub-qərbdə qəbiristanlıqla sərhədlənir. Şimal-şərqdə yaşayış yeri hündür dağ silsiləsi ilə əlaqələnir. Onun tutduğu sahə çox böyükdür - 96000 kvadratmetrdir.

Yaşayış yerinin yerləşdiyi ərazi girintili-çıxıntılıdır. Onun mərkəzi hissəsində hündür təpə var. Abidə uçub-tökülmüş tikinti qalıqları, əmək alətləri, gil qab qırıqları ilə zəngindir. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər və divarlar daşdan hörülmüşdür. Bəzi tikililərin yerində uzunsov, dördkünc və dairəvi çalalar qalmışdır. Araşdırmalar göstərir ki, yaşayış yeri müəyyən müddət quru çay vadisinin o biri sahilini də əhatə etmişdir.



**Şəkil 29.** *Kərpiclik. Camaldın yaşayış yeri*

Yerüstü materialın əksəriyyəti şirsiz və şirli gil qabların parçalarından ibarətdir. Şirsiz saxsı məmulatı küpə və badya tipli qablarla təmsil olunub. Onların gilinə narın qum qatılaraq, çəhrayı rəngdə yaxşı bişirilib. Şirli saxsı məmulatı kasa və nimçə tipli qabların hissələrini təşkil edir. Kasalar əsasən oturacaq və gövdə hissəsindən ibarətdir. Onlardan bir qrupunun oturacağı diskşəkilli olub içəriyə doğru batıqdır. Bəziləri ağ anqob üzərində yaşıl rənglə işlənilmiş həndəsi xətlər və nəbati təsvirlərlə naxışlanıb. Xətlərin arası göy, yaxud yaşıl rənglə doldurulub. Bəzi kasaların gövdəsi qabarıqdır. Ağzının altı enli batıq zolaqla əhatə olunub. İçərisi isə anqob üzərində qara rənglə çəkilmiş xətlərlə naxışlanaraq şəffaf, şüşəvari şirlə örtülüb.

Nimçə tipli qabın gövdəsi konusvaridir. Onlar hər iki üzdən ağ anqobla örtülmüş, ağzının kənarına göy rəng çəkilmişdir. Qablardan biri fırça ilə işlənilmiş yaşıl rəngli xətlərlə naxışlanıb. Şirli saxsı məmulatının bir qrupu forma verməyən hissələrdən ibarətdir.

Aparılmış tədqiqatlar və əldə edilmiş maddi-mədəniyyət nümunələri bu qədim yaşayış yerinin XII-XVII əsrlərdə mövcud olduğunu göstərir.

## "Ölən şəhər" yaşayış yeri

"Ölən şəhər"in qalıqları Gülüstan kəndindən qərbdə, Araz çayının sol sahilində yerləşir. Yaşayış yeri şimalda hündür dağ silsiləsi, cənubda Araz çayı, qərbdə qəbiristanlıqla məhdudlaşır. Bu qədim yaşayış yerinin və tarixi abidələrinin haqqında

orta əsr müəlliflərinin əsərlərində məlumatlar vardır. Burada Azərbaycan EA Tarix İnstitutunun və Naxçıvan Elm Mərkəzinin əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yeri ərazinin relyefinə uyğun olaraq, Araz çayının sol sahilində, ensiz zolaq şəklində qərbdən-şərqə doğru uzanır. Burada mövcud olmuş evlər tamamilə dağıdılmış, tikinti qalıqları ətrafa səpələnmişdir. Abidənin üzərini başdan başa bişmiş kərpic parçaları örtmüşdür. Görünür ki, tikintilər əsasən bişmiş kərpicdən olmuşdur. Yaşayış yerində şirli və şirsiz gil məmulatına, mis sikkələrə və başqa maddi-mədəniyyət qalıqlarına təsadüf olunmuşdur. Aşkar edilmiş arxeoloji materialların bir qismi hazırda Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində, bir qismi isə Gülüstan kənd tam orta məktəbində saxlanır. Yaşayış yerinin yaxınlığında xalq arasında "Şah Abbas körpüsü" adlanan körpü və karvansaranın qalıqları qalır.

Abidənin üzərindən yığılmış gil qablar çəhrayı rəngdə bişirilmişdir. Şirli saxsı məmulatı içərisində fayansdan hazırlanmış kasalar xüsusilə diqqəti cəlb edir. Onların ağzının kənarı dəyirmi, gövdəsi qabarıqdır. Oturacaqları diskşəkilli olub, içəriyə doğru batıqdır. Onlar ağ, yaxud yaşıl anqob üzərindən nəbati ornamentlə naxışlanaraq, şəffaf şirlə örtülmüşdür. Qabların əksəriyyəti çəhrayı rəngdə bişirilmiş və müxtəlif kompozisiyalı ornamentlə naxışlanmışdır.

Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerinin əsas fəaliyyət dövrünü XI-XVII əsrlərə aid etmək olar. Lakin bəzi təsadüfi tapıntılar burada həyatın müəyyən fasilələrlə XVIII-XIX əsrlərədək davam etdiyini göstərir.



**Şəkil 30.** *"Ölən şəhər"in xarabalıqları. Gülüstan kəndi*



**Şəkil 31.** *"Ölən şəhər"in xarabalıqları. Gülüstan kəndi*

## Xanağa yaşayış yeri

Xanağa yaşayış yeri müasir Xanəgah kəndinin tikintiləri altında qalmışdır. Buradakı evlərin və memarlıq abidələrinin töküntüləri dövrümüzədək qalır. Abidədə mədəni təbəqənin qalınlığı 4 metrdir. Tədqiqatlar nəticəsində toplanmış yerüstü materiallar müxtəlif növ şirsiz və şirli saxsı məmulatı parçalarından ibarətdir. Şirsiz qablar küp, küpə, qazan, aftafa tipli qabların hissələri ilə təmsil olunmuşdur. Dulus çarxında hazırlanmış bu qablar, qazanlar istisna olmaqla, yaxşı bişirilmişdir. Qazanlar boz, digər qablar isə çəhrayı rəngdə bişirilmişdir. Şirsiz qabların səthi anqob təbəqəsi ilə örtülmüşdür. Onların xarici səthi cızma həndəsi xətlərlə bəzədilmişdir.

Şirli qablar kasa, boşqab tiplidir. Onlar bir qayda olaraq, daxildən zəngin həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Fırça ilə çəkilmiş naxışların bir qismi kölgəli verilmişdir. Əldə edilmiş fayans qab hissələri daxildən və xaricdən nəbati təsvirlərlə naxışlanıb. Naxışlanmada yaşıl rəng və onun müxtəlif çalarlarından istifadə edilmişdir.

Xanağa yaşayış yerini yerüstü materiallar əsasında IX-XVIII əsrlərə aid etmək olar.

## Sürəməlik yaşayış yerləri

I Sürəməlik yaşayış yeri Nəhəcir kəndindən qərbdə, hündür təpəliklərin arasında yerləşir. Yaşayış yeri AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Yaşayış yerinin ərazisindəki otaqlar dördkünc formalı olub, çiy

kərpic və möhrədən tikilmişdir. Bəzi evlərin bünövrəsinə çay daşları düzülüb. Tikintilər olduqca pis qalmışdır. Kül qarışıq torpaq qatından ibarət olan mədəni təbəqənin qalınlığı 1-3 metr arasındadır.

Yaşayış yeri şimal tərəfdən çəkilmiş kəhrizlər vasitəsi ilə su ilə təmin edilmişdir. Kəhrizlərin suyundan indi istifadə edilsə də, onların bərpaya ehtiyacı vardır. Quyuların çoxu tutulmuşdur. Yaşayış yerindən toplanan şirli və şirsiz gil qabların parçaları son orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara əsasən yaşayış yerini XVI-XIX əsrlərə aid etmək olar.



**Şəkil 32.** *I Sürəməlik yaşayış yeri*

II Sürəməlik yaşayış yeri birincidən bir qədər yuxarıda, qurumuş dağ çayının sahilində yerləşir. Onun sahəsi üç min kvadrat metrdən artıqdır. Kül qarışıq torpaq qatından ibarət olan mədəni təbəqənin qalınlığı 0,5-1,5 metr arasındadır. Təbəqədə tikinti qalıqları və keramika parçalarına rast gəlinir.

Yaşayış yeri AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Yaşayış yerində bünövrəsi daşdan, divarları isə möhrədən hörülmüş dördkünc formalı evlərin qalıqları vardır. Yerüstü materiallar şirli və şirsiz qabların parçaları ilə təmsil olunur. Aşkar olunan keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir.

Binaların memarlıq xüsusiyyətləri və aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini XVI-XIX əsrlərə aid etmək olar.



**Şəkil 33.** *II Sürəməlik yaşayış yeri*

## Kahalıdərə yaşayış yeri

Kahalıdərə yaşayış yeri Göynük kəndindən şimalda, Xornu çayının vadisində, Köhnə Külüs yaşayış yerindən 1 kilometr qərbdə yerləşir. Abidə yarımköçmə təsərrüfatla məşğul olan maldar tayfaların yurd yeri olmuşdur. Onun ərazisində dairəvi və dördkünc formalı daş düzümlərinə rast gəlinir. Yaşayış yerinin ərazisi hazırda qalın otla örtülmüşdür. Yaxınlıqda gur sulu bulaq vardır. Buradakı kahalar tamamilə tutulduğundan, onların formasını müəyyən etmək mümkün deyil. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

## Köhnə Külüs yaşayış yeri

Köhnə Külüs yaşayış yeri Göynük kəndindən şimalda, Xornu çayının sağ sahilində yerləşir. Yaşayış yeri V.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Sahəsi 24000 kvadratmetrdir. Abidə xalq arasında "kənd yeri", "şəhər yeri" adlanır. Yaşayış yeri Xornu çayına doğru enişli vadidə yerləşir. Abidənin cənub-şərq hissəsində dördkünc formalı çay daşlarından hörülmüş tikinti qalıqları vardır. Onların bəzisinin mərkəzi hissəsində döşəmədə dördkünc formada daşdan qurulmuş ocaq vardır. Evlərin girişi cənub tərəfdəndir.

Yaşayış yerinin ərazisində uçub tökülmüş tikinti qalıqlarına, şirli və şirsiz gil qabların parçalarına rast gəlinir. Keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Abidəni bütövlükdə XIV-XIX əsrlərə aid etmək olar.





**Şəkil 34.** *Köhnə Külüs yaşayış yeri*

## Gal yaşayış yeri

Gal yaşayış yeri eyni adlı kəndin şimal-qərbində, dağ yamacında yerləşir. Yaşayış yerinin ərazisində iri daşlardan tikilmiş divar qalıqlarına və dördkünc formalı tikinti qalıqlarına rast gəlinir. Araşdırmalar zamanı müəyyən olundu ki, iri daşlardan hörülmüş divarların bir qismi torpağı sürüşmədən qorumaq üçün inşa edilmişdir. Torpağın aşınması nəticəsində yaranan yarğanlarda mədəni təbəqənin qalınlığı 1,8 metrə çatır.



**Şəkil 35.** *Gal qalası*

Tədqiqatlar zamanı yaşayış yerindən şirli və şirsiz saxsı parçaları toplandı. Aşkar olunan arxeoloji materiallar son Orta əsrlər dövrü üçün xarakterikdir. Tikinti qalıqlarına və arxeoloji materiallara əsasən yaşayış yerini X-XVIII əsrlərə aid etmək olar.

## Koreymər yaşayış yeri

Koreymər yaşayış yeri Teyvaz kəndindən şimalda, hündür təpənin yamacında yerləşir. Onun yaxınlığında bulaq vardır. Sahəsi təxminən 37400 kvadratmetrdir. Yaşayış yerinin ərazisində dördkünc formada daşdan və möhrədən tikilmiş evlərin qalıqları qalır. Evlər bir-birinin üstündə olan hamar meydançalarda, bəzən isə onlar üçün düzəldilmiş səkilərdə yerləşdirilib. Yaşayış yerinin yaxınlığında iki nekropol və təsərrüfat tikintilərinin qalıqları vardır. Abidənin ərazisində aparılan araşdırmalar zamanı Son Orta əsrlərə aid çəhrayı rəngli, şirli və şirsiz keramika nümunələrinə rast gəlindi. Yerli əhalinin verdiyi məlumata görə burada həyat keçən əsrin ortalarınadək davam etmişdir. Aşkar olunmuş arxeoloji materiallar XVIII-XIX əsrlərə aiddir.

## Xosuyatan yaşayış yeri

Xosuyatan yaşayış yeri Teyvaz kəndindən şərqdə yerləşir. Ərazisində daşdan tikilmiş dördkünc formalı evlərin qalıqlarına rast gəlinir. Yaşayış yerinin mərkəzində, iri qaya parçasının içərisində təbii oyuq vardır. Araşdırmalar bu yaşayış yerində də

həyatın mövsümi xarakterdə olduğunu və bu ərazinin maldar əhali tərəfindən istifadə edildiyini göstərir.

Yerüstü materiallar Son Orta əsrlərə aid küpə tipli qabların parçalarından ibarətdir. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

## Gülüstan yaşayış yerləri

I Gülüstan yaşayış yeri Araz çayının sol sahilində yerləşir. Yaşayış yeri şimalda hündür dağ silsiləsi, cənubda Araz çayı, qərbdə qəbiristanlıqla məhdudlaşır. Yaşayış yeri və onun tarixi abidələri haqqında Orta əsr müəlliflərinin əsərlərində məlumatlar vardır. Burada Azərbaycan EA Tarix İnstitutunun və Naxçıvan Elm Mərkəzinin əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yerində şirli və şirsiz gil məmulatına, mis sikkələrə və başqa maddi-mədəniyyət qalıqlarına təsadüf olunmuşdur. Aşkar edilmiş arxeoloji materialların bir qismi hazırda Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində, bir qismi isə Gülüstan kənd tam orta məktəbində saxlanılır. Yerüstü materiallar əsasən bişmiş kərpic, şirli və şirsiz saxsı məmulatından ibarətdir.

Aşkar olunmuş arxeoloji tapıntılara əsasən yaşayış yerinin əsas fəaliyyət dövrünü XI-XVII əsrlərə aid etmək olar. Lakin bəzi təsadüfi tapıntılar burada həyatın müəyyən fasilələrlə XVIII-XIX əsrlərədək davam etdiyini göstərir.

II Gülüstan yaşayış yeri Araz çayının sol sahilində, Gülüstan türbəsinin yaxınlığında yerləşir. Yaşayış yerində olan tikililər tamamilə dağılmışdır. Hazırda yaşayış yerinin ərazisində bir neçə yerdə möhrədən tikilmiş divar qalıqlarına rast gəlinir. Onlardan birinin uzunluğu 48 metr, eni 45 santimetrdir.

Abidədə aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələri aşkar olundu. Şirli qablar Orta əsrlərin inkişaf etmiş dövrü üçün xarakterikdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini X-XIV əsrlərə aid etmək olar.

## Üçtəpə yaşayış yeri

Üçtəpə yaşayış yeri Yaycı kəndinin cənub-şərqində, Araz çayının sol sahilindən təqribən 2 kilometr aralıda yerləşir. Yaşayış yerinin ərazisi dərin yarğanlarla bir neçə hissəyə bölünüb. Abidənin şimal-şərqindən dəmiryol xətti keçir. Daşdan və möhrədən tikilmiş bəzi evlərin qalıqları indiyədək qalır. Mədəni təbəqənin qalınlığı 2-4 metr arasındadır.

Yerüstü tapıntılar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub, müxtəlif tipli qabların parçalarından ibarətdir. Şirli saxsı məmulatının böyük bir qismi Son Orta əsrlər dövrü üçün xarakterikdir. Yaşayış yerinin ərazisində ətrafı kromlexlə əhatə olunmuş kurqanlara da rast gəlinir. Lakin onlar tədqiq edilmədiyindən hansı dövrə aid olduğu məlum deyil.

Aşkar olunmuş arxeoloji materiallara əsasən Üçtəpə yaşayış yerini X-XVIII əsrlərə aid etmək olar.

**Çətəndaş yaşayış yeri**

Çətəndaş yaşayış yeri Teyvaz kəndinin şərqində yerləşir. Onun yaxınlığında gur sulu bulaq vardır. Abidənin ərazisində qaya daşlarından və möhrədən tikilmiş dördkünc formalı tikinti qalıqları vardır. Yaşayış yerinin ərazisi uzun müddət otlaq sahəsi kimi istifadə edildiyindən, evlərin izləri tamamilə itmək üzrədir. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub, Son Orta əsrlərə aiddir. Yaşayış yerini arxeoloji materiallara əsasən XVIII-XIX əsrlərə aid etmək olar.





**Şəkil 36.** *Çətəndaş yaşayış yeri. Teyvaz kəndi*

## Əl-Kuti yaşayış yeri

Əl-Kuti yaşayış yeri Camaldın kəndindən 5-7 kilometr şimal şərqdə, Camaldın pirinə gedən yolun üzərində yerləşir. Abidənin xalq arasında Əl-Kuti adlandırılması marağımıza səbəb oldu. Burada olan "Kuti" toponimi bizi çox-çox uzaqlara, e.ə.III minilliyin ikinci yarısında Cənubi Azərbaycan ərazisində mövcud olmuş Kuti (Quti) dövlətinin tarixinə apardı. Odur ki, 2014-cü ildə bir neçə gün abidənin ətrafında ciddi kəşfiyyat işləri apardıq. Lakin toplanmış arxeoloji materialların Orta əsrlər dövrünə aid olduğu aydınlaşdırıldı. Düzbucaqlı planlı evlərin bir qisminin xarabalıqları indi də qalır. Evlərin tikilməsində çiy və bişmiş kərpiclərdən, çay daşlarından istifadə olunub. Bu yaşayış yerinin tərk edilməsinə səbəb isə orada olan yeganə bulağın-su mənbəyinin batması olub. Oradan toplanmış materiallar boz və çəhrayı rəngli, üzəri şirli, müxtəlif formalı qablara aid parçalardan ibarətdir. Abidənin yaxınlığında isə yaşayış yerinə aid böyük müsəlman qəbiristanlığı yerləşir. Arxeoloji materialın təhlili bu yaşayış yerini XI-XVIII əsrlərə aid etməyə imkan verir.



**Şəkil 37.** *Əl-Kuti yaşayış yerinin saxsı məmulatı. Camaldın kəndi*





**Şəkil 38.** *Əl-Kuti yaşayış yerinin saxsı məmulatı. Camaldın kəndi*



**Şəkil 39.** *Əl-Kuti yaşayış yerinin saxsı məmulatı. Camaldın kəndi*



**Şəkil 40.** *Əl-Kuti yaşayış yerinin saxsı məmulatı. Camaldın kəndi*

## Köhnə Xoşkeşin yaşayış yeri

Abidə eyni adlı kənddən şərqdə, İlandağın ətəyində yerləşir. Kəndin xarabalıqları İlandağın ətəyi boyunca uzanır. Kəndin ortasından torpaq yol keçir. Evlərin özülü daşdan, divarları isə daş parçaları qarışdırılmış möhrədən tikilmişdir. Daş tikililər balıqbeli texnikası ilə inşa edilmiş və gil məhlulu ilə bərkidilmişdir. Evlər bir, iki, bəzi hallarda üç otaqlıdır. Kəndin şərq tərəfində, "Qoşa qardaş" adlanan sahədə iri həcmli ikimərtəbəli evlərin qalıqları qalır. Bəzi evlərin içəri divarlarında taxçalar vardır.

Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olmaqla, Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materialın araşdırılması yaşayış yerini XI-XX əsrlərə aid etməyə imkan verir. Lakin kəndin ətrafındakı nekropollar burada həyatın daha qədim dövrdən mövcud olduğunu göstərir.

## Paradaş yaşayış yeri

Paradaş yaşayış yeri Xoşkeşin kəndindən şimalda, Gülnəzər kəndinə gedən torpaq yolun kənarında yerləşir. Evlərin xarabalıqları indiyədək qalır. Tikintilərin bünövrəsi iri daşlardan, yuxarısı isə möhrədən tikilmişdir. Bəzi divarlarda daş və möhrə hörgü bir-birini əvəzləyib. Daş tikintilər balıqbeli texnikası ilə hörülərək, gil



**Şəkil 41.** *Paradaş kəhrizi*

məhlulu ilə bərkidilib. Evlərin bəzisinin içəri divarlarında taxçalar düzəldilib. Kəndin cənub tərəfində kəhriz vardır.

Maddi-mədəniyyət qalıqları ilə zəngin olan mədəni təbəqənin qalınlığı 1-1,8 metr arasındadır. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatı ilə təmsil olunur. Aşkar olunan arxeoloji materiallar XIV-XX əsrlərə aiddir.

## Gülnəzər yaşayış yeri

Bu yaşayış yeri Xoşkeşin kəndindən şimalda, dağın yamacında yerləşir. Evlər dağın yamacında qurulmuş və ön tərəfdən qalın daş divarla möhkəmləndirilərək, xüsusi səkilərdə tikilmişdir. Divarlar, başlıca olaraq, daşdan tikilmiş və gil məhlulu ilə bərkidilmişdir. İri daşlardan tikilən divarların eni 1-1,2 metr arasındadır. Onların hörülməsində balıqbeli texnikasından istifadə edilmişdir. Abidədə mədəni təbəqənin qalınlığı 1-1,5 metr arasındadır. Yerüstü maddi-mədəniyyət nümunələri çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarətdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini XIV-XX əsrlərə aid etmək olar.

## Anzır yaşayış yerləri

Baş Anzır yaşayış yeri Xanəgah kəndindən şimalda, dağın yamacında yerləşir. Kəndin ərazisi dərin dərələrlə iki yerə ayrılır. Yaşayış yerində olan evlərin bünövrəsi daşdan, yuxarı hissəsi isə möhrədən tikilmişdir. Evlər bir, iki və üç otaqlıdır. Bəzi

otaqlarda divarın içərisində dördkünc və üçkünc formalı kiçik taxçalar düzəldilib. Kəndin mərkəzi hissəsində olan məscid binasının isə özülü yonulmuş iri daşlardan, yuxarısı isə möhrədən tikilib. Divarların seysmik davamlığını artırmaq üçün onların üzərinə uzun tirlər atılıb. Heyvanların saxlanması üçün tikilən iri binalar kəndin şərqində, dərənin başında yerləşir. Yaşayış yerində həyat XVII əsrdən-XX əsrin ortalarına qədər davam etmişdir.

Orta Anzır yaşayış yeri Baş Anzırdan 5 kilometr cənub-qərbdə nalşəkilli təpənin ətəyində yerləşir. Yaşayış yerində evlər dördkünc formalıdır. Divarların əsası daşdan, yuxarısı isə möhrədən tikilib. Bəzi otaqların içəri divarında taxçalar, cənub divarında isə buxarı düzəldilib. Divarların seysmik davamlığını artırmaq üçün möhrə hörgünün arasına bəzən ağac tirlər atılıb. Məscid binası kəndin mərkəzində yerləşir. Onun divarlarında taxçalar, cənub divarında isə mehrab düzəldilib. Kəndin qərb yarımhissəsində isə əsasən irihəcmli təsərrüfat tikililəri vardır. Yaşayış yerinin şimal qurtaracağında bulaq var. Burada da həyat əsasən XV-XX əsrin ortalarına qədər mövcud olmuşdur.

Aşağı Anzır yaşayış yeri Xanəgah kəndindən şimalda, hündür təpənin hər iki yamacında yerləşir. Evlərin tikilməsi üçün təpənin yamacında kiçik meydançalar hazırlanmışdır. Otaqların arxa divarları təpənin yamacına söykənir. Divarların bünövrəsi daşdan, yuxarı hissəsi isə möhrədən tikilib. Bəzi evlərin içəri divarlarında taxçalar düzəldilib. Kəndin içərisində gursulu bulaq var. Yaşayış yerinin xarabalıqlarından bir neçəsi hazırda bərpa olunaraq istifadə edilir. Kəndin şimal qurtaracağında qəbiristanlıq var. Buradan toplanan yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub Son Orta əsrlər dövrü üçün xarakterikdir. Yaşayış yerini XV-XX əsrin ortalarına aid etmək olar.

## Dərəşam mağarası

Dərəşam mağarası Gülüstan kəndi yaxınlığında, Dərəşam dəmiryol stansiyasından şərqdə, qayaların arasındadır. Təbii mağaranın ön tərəfi əhəng məhlulundan istifadə edilməklə daşdan hörülmüş hündür divarla kəsilmişdir. Vaxtilə mağaranın xüsusi girişi olmuşdur. Lakin hazırda divarın bir qismi və girişi tamamilə dağılmışdır. Divarla mağaranın döşəməsinə müxtəlif tullantılar və bitki çürüntüləri dolmuşdur. Yığılan mədəni təbəqənin qalınlığı 2,5 metrə qədərdir. Araşdırma zamanı burada Orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına rast gəlinmişdir. Tikinti qalıqlarına və keramika məmulatına əsasən demək olar ki, mağaradan XIV- XVII əsrlərdə yaşayış yeri kimi istifadə edilmişdir.

## Koreymər kahaları

Koreymər kahaları eyni adlı yaşayış yerindən şimal-şərqdə, təpənin ətəyində yerləşir. Kahalar təpənin yamacında tağvari formada qazılıb. Onlardan bəzisinin uzunluğu 15 metrə çatır. Kahaların hamısının döşəməsi qalın peyin qatı ilə örtülüb.



**Şəkil 42.** *Koryemər kahaları*

Onların dib divarlarında çıraq, yaxud piltə qoymaq üçün kiçik taxçalar düzəldilib. Taxçanın yaxınlığındakı divar və tavan odun təsirindən hislənib. Kahaların ön tərəfi təmizlənərək dəhliz şəklinə salınıb. Lakin uzun müddət istifadə edilmədiyindən, aşınmaya uğrayaraq, dağıdılıb. Araşdırmalar kahalardan xırdabuynuzlu heyvanların saxlanması üçün istifadə edildiyini göstərir.

Kahalardan XVI-XIX əsrlərdə daha səmərəli istifadə edilmişdir.

## Səfərevləri daş karxanası

Səfərevləri daş karxanası Kırna kəndindən şərqdə, kəndə doğru uzanan hündür təpənin yamacındadır. Təpə başdan-başa çəhrayı rəngli qayalıqdan ibarətdir. Karxananın ərazisində bir neçə yerdə prizmatik formada yonulmuş qəbir daşlarına və dairəvi formalı dəyirman daşlarına rast gəlinir. Bəzi dəyirman daşları hazır olmadığı üçün aparılmamış, digər bir qismi isə sındığı üçün istifadəyə yararsız vəziyyətdə karxanada qalmışdır. Aparılan araşdırmalar karxanadan müntəzəm şəkildə daş çıxarıldığını təsdiq edir. Kırna kəndində rast gəlinən düzbucaqlı qəbir daşlarının və qoç daşların bu karxanada hazırlandığı heç bir şübhə doğurmur.

Daş karxanası XX əsrin əvvəllərinədək istifadə olunmuşdur. Ondan XV-XVIII əsrlərdə daha geniş şəkildə istifadə edilmişdir.

**Sücüt su kanalı**

Sücüt su kanalı Sücüt çayından bağlara çəkilmiş geniş su arxıdır. Kəndin aşağısında çayın qarşısı bəndlə kəsilərək, su təqribən 3,5 metr yüksəkliyə qaldırılmış və torpaqda qazılmış kanalla bağlara aparılmışdır. Hazırda kanalın qalıqlarının eni 2, dərinliyi isə 1,5 metrdir. Su kanalının çayın üzərindən keçirilərək aparılması onun tikintisində mühəndis məharətinin mühüm rol oynadığını göstərir. Kanal çayın üzərindən onun sağ kənarındakı qayalığa söykənən xüsusi bəndin köməkliyi ilə keçirilmişdir. Bəndin tikintisində yonulmuş daşlardan və əhəng məhlulundan istifadə olunmuşdur. Bəndin qalıqları hazırda qalır. Kanalın ətrafından aşkar olunan keramika məmulatı onun I əsrdən başlayaraq fəaliyyət göstərdiyini təsdiq edir. Su kanalı XIX əsrədək bərpa olunmaqla istifadə olunmuş, lakin XX əsrdə onun bərpası üçün göstərilən cəhd uğursuz olmuşdur. Sücüt kanalından I-XX əsrlər ərzində istifadə olunmuşdur.



**Şəkil 43.** *Sücut kanalı*



**Şəkil 44.** *Yaşayış yerlərindən tapılmış Orta əsr sikkələri.*

## QƏBİR ABİDƏLƏRİ

Culfa rayonu ərazisində olan qədim qəbir abidələri yaşayış yerlərinə nisbətən daha ətraflı tədqiq olunub. Söz yox ki, yaşayış yerləri varsa, qəbir abidələri də olmalıdı. Culfa rayonu ərazisindən aşkar olunmuş qəbir abidələrinin tarixi e.ə. III minillikdən başlayaraq müasir dövrümüzə qədər davam edir. Bu regionda yerləşən qəbir abidələri Tunc, Dəmir, Antik və ilk Orta əsrlərə aid olsa da, onların əksəriyyəti Orta əsrlər dövrünü təmsil edir. Qəbir abidələrindən aşkar edilmiş arxeoloji materiallar həmin dövrün yaşayış yerləri ilə həmahəng olsalar da, qəbirlərdən tapılmış materiallar daha sağlam və bütöv şəkildə olur.

### Göynük nekropolları

Göynük kəndindən şimalda, Xornu vadisində bir neçə yerdə Erkən Tunc, Antik və Orta əsrlərə aid bir neçə nekropola və yaşayış yerinə rast gəlinir. Yaşayış yerlərində mədəni təbəqə yoxdur. Ehtimal ki, bu, köçmə təsərrüfatla bağlı olmuşdur. Bu yerlərdən hal-hazırda da əhali istifadə edir.

Göynük kəndinin şimal-qərbində, Xornu çayı vadisindən xeyli hündürdə yerləşən dağın yamacında qrup halında daş qutu qəbirlərdən ibarət nekropollar yerləşir. Onlardan ikisi bir-birinin yaxınlığındadır. Nekropollar dərin dərə ilə bir-birindən ayrılır. Onların yerləşdiyi ərazi xalq arasında "Yurd yeri" və "Xaraba Kültəpə" adlanır. Bu adlar həmin ərazidən orta əsrlərdə istifadə edilməsi ilə bağlıdır. Nekropolları Xornu çayının adı ilə şərti olaraq I, II, III və IV Xornu nekropolu adlandırırıq.

I Xornu nekropolu Xornu çayının vadisində yerləşir. Nekropol yaşayış yerinin yuxarısında hündür təpənin yamacındadır. Nekropoldakı Erkən Tunc dövrünə aid qəbirlərin yerüstü əlamətləri itmişdir. Qəbirlərin ikisi kiçik həcmli kurqan tipində olduğundan diqqəti cəlb etmiş və dağıdılmışdır. Dağıdılmış qəbir abidələrinin tədqiqi onların kromlexlə əhatə edildiyini göstərir. Kromlexlərin mərkəzi hissəsində daş qutu tipli qəbirlər olmuşdur. Dəfndən sonra qəbirlərin üzərində torpaq kurqan düzəldilmişdir. Ətrafa səpələnmiş insan skeletinin qalıqları qəbirlərdə inqumasiya üsulu ilə dəfn aparıldığını təsdiq edir.

Nekropol V.Baxşəliyev tərəfindən qeydə alınıb. Dağıdılmış qəbirlərin biri 2006-cı ildə V.Baxşəliyev və S.Aşurov tərəfindən öyrənilib. Aparılmış tədqiqat işləri zamanı qərb-şərq istiqamətində olan skelet qalıqlarına və daş qutu tipli qəbirin bir hissəsinə rast gəlinib. Qəbir avadanlıqları küpə, kasa, qədəh tipli qabların parçalarından ibarətdir. Həmin parçaları birləşdirməklə onların formasını tutmaq mümkün olmuşdur.

Küpə tipli qabın ağız kənarı düz, boğazı silindrik, gövdəsi qabarıq, oturacağı yastıdır. Gilinə narın qum qatılaraq, orta dərəcədə bişirilib. Qabın divarı arasında bişməmiş qəhvəyi rəngli təbəqəyə rast gəlinir. Xarici səthi hamar və cilalıdır.

Kasa tipli qabın gövdəsi qabarıq, ağız kənarı düzdür. Gilinə narın qum qatılaraq, qara rəngdə bişirilib. Xarici səthi cilalıdır. Gövdə hissəsində bəzi yerlərdə boz ləkələrə



**Şəkil 45.** *I Xornu nekropolunda kormlex. Göynük kəndi*




**Şəkil 46.** *I Xornu nekropolunun materialları*

rast gəlinir. Ağzının alt tərəfində İlk Tunc dövrü Kür-Araz mədəniyyəti üçün xarakterik sayılan yarımşar formalı qulpun qırığı qalıb.

Qədəh tipli qabın ağız kənarı xaricə də-yirmi, boynu silindrikdir. Qabarıq gövdəsi otu-racağa doğru ensizləşir. Gövdə ilə ağız kənarını birləşdirən halqaşəkilli qulpun yalnız bir parçası qalmışdır. Gilinə narın qum qatılmış bu qab boz-qara rəngdə yaxşı bişirilmiş və üzəri cila-lanmışdır.

Bu tip arxeoloji material Kür-Araz mə-dəniyyətinin son mərhələsi üçün xarakterikdir. Belə keramika məmulatı I Kültəpə və II Kültəpə yaşayış yerlərinin Erkən Tunc dövrü təbəqə-sindən, Dağlıq Qarabağ abidələrindən məlum-dur.

Bu tapıntılar Erkən Tunc dövrünün son mərhələsində əhalinin köçmə yaylaq maldarlığı ilə məşğul olduğunu, Xornu çayı vadisi ilə



**Şəkil 47.** *I Xornu nekropolunun materialları. Göynük kəndi*

şimala doğru hərəkət etdiyini göstərir. Qədim tayfalar hərəkət edən zaman başlıca su mənbələrindən ayrılmamışlar. Ətrafda bulaqlar olsa da, Xornu çayı yay vaxtlarında qurumayan, daimi və başlıca su mənbəyi olmuşdur. Vadi həm yaşayış üçün, həm də yadelli basqınlardan qorunmaq üçün əlverişli olduğundan insanlar uzun müddət burada məskunlaşmışlar. Aşkar olunan materiallara əsasən nekropolu e.ə. III minilliyə aid etmək olar.

II Xornu nekropolu daş qutu tipli qəbirlərdən ibarətdir. Qəbirlər düzbucaqlı, kvadrat, bəziləri isə oval formalıdır. Düzbucaq formalı daş qutular çoxluq təşkil edir. Yanları yastı sal daşlarla qurulmuş, üzəri isə eyni formalı daşlarla örtülmüş qəbirlər müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdədir. Torpağın aşınması zamanı daş qutular üzə çıxdığı üçün ətraf kəndlərin əhalisi tərəfindən dağıdılmışdır. Yerli əhalinin verdiyi məlumata görə, burada küp qəbirlər də olmuşdur. Qəbirlərin ətrafında iri həcmli küpə parçalarına rast gəlinir.



**Şəkil 48.** *II Xornu nekropolunda tədqiq olunan daş qutu tipli qəbrin planı. Göynük kəndi*



Şəkil 49. *II Xornu nekropolunda tədqiq olunan daş qutu tipli qəbirlərin keramikası. Göynük kəndi*

II Xornu nekropolunda olan daş qutu tipli qəbirlərin biri bizim tərəfimizdən təmizləndi. Şimal-qərb–cənub-şərq istiqamətində yerləşən qəbirin divarları uzun yastı sal daşlarla qurulmuş, bəzi yerlərdə isə yanlara kiçik həcmli qaya parçaları qoyulmuşdu. Ətrafa dağılan üst-qapaq daşlarının bir tərəfi yastı, digər tərəfi isə qabarıq idi. Qəbirin uzunluğu 1,40 metr, eni baş tərəfdə 67 santimetr, ortada 80 santimetr idi. Qəbir təmizlənərkən çəhrayı və boz rəngli gil qab parçalarına rast gəlindi. Aşkar olunmuş keramika məmulatı küpə tipli qab qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılaraq yaxşı bişirilmişdir.

Çəhrayı rəngli küpə qırığının ağız kənarı xaricə qatlanmış və dərin gəz açılmışdır. Boğazı qısa, gövdəsi qabarıqdır.

Boz rəngli keramika məmulatı gil qabların gövdəsinə və oturacağına aid parçalarla təmsil edilmişdir. Onların da gilinə narın qum qatılaraq, yaxşı bişirilmiş, xarici səthi cilalanmışdır.

Qəbirlərin ətrafından toplanmış iri həcmli küpə tipli qab parçaları qalın divarlı olub, iri qum qarışıqlı gildən hazırlanmış, orta dərəcədə bişirilmişdir. Onlardan birinin ağız kənarı cərgə ilə düzülmüş oval batıqlarla naxışlanıb.

III Xornu nekropolu ikinci nekropoldan bir qədər yuxarıda, Xornu çayının sol sahilində, çaya doğru uzanan təpənin yamacında yerləşir. Onlar bir-birindən dərin dərə ilə ayrılır. Buradakı qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri, yastı sal daşlarla qurulmuş, eyni tipli



**Şəkil 50.** *III Xornu nekropolunda tədqiq olunan daş qutu tipli qəbrin planı. Göynük kəndi*

daşlarla qapadılmışdır. Qəbirlər yamacda yerləşdiyindən aşınma nəticəsində üzə çıxmış və qarət edilmişdir.

Qəbirlərdən aşkar olunan çəhrayı və boz rəngli keramika parçaları ətrafa səpələnmişdir. 2003-cü ildə nekropoldakı dağıdılmış qəbirlərin bəzisi V.B.Baxşəliyev və A.Q.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı çəhrayı və boz rəngli keramika parçaları aşkar edilmişdir.

Daş qutu qəbirlərdənin birində dəfn adətini müəyyən etmək məqsədilə qazıntı işləri apardıq. Onun yalnız şimal və şərq divarı salamat idi. Burada pis vəziyyətdə qalmış skelet qalıqlarına rast gəldik. Sel sularının məzarın içərisinə dolması nəticəsində kəllənin ilkin vəziyyəti dəyişmişdi. Kəllə qalıqları və çənə sümükləri qəbirin müxtəlif hissələrinə səpələnmişdi. Skelet qalıqlarına əsasən ehtimal etmək olar ki, dəfn olunan adam sağ böyürü üstə, başı şimala olmuşdu. Qəbirin şimal hissəsindən dəmir ox ucluğu, bıçaq tiyəsinin qırıqları, silindrik formalı şüşə muncuq, obsidian alət aşkar olundu. Qəbirdə kiçik həcmli keramika parçaları da var idi.

Dəmir ox ucluğu üç pərlidir. Onun qısa, kəsikdə dairəvi olan saplağı uca doğru ensizləşir. Uzunluğu 6,1 santimetrdir.

Bıçaq tiyəsi olduqca pis qalıb. O kəsikdə üçbucaq formalı olan dəmir təbəqədən hazırlanıb. Tiyəsi uca doğru ensizləşən lövhə şəklindədir. Saplağı qırılıb.

Şüşə muncuq qara rəngli kütlədən silindrik formada hazırlanıb. Ortasından ip keçirmək üçün deşik açılıb.

Obsidian alət nazik bıçaqşəkilli lövhədəndir. Onun bir tərəfində işlənmə izləri qalıb. Ağız hissəsi dişərlənib.

Xornu nekropollarından aşkar olunmuş tapıntılar Antik dövrün son mərhələsi üçün xarakterikdir. Onların tarixləndirilməsi üçün üç pərli ox ucluğunun və şüşə parçalarının böyük əhəmiyyəti vardır. Bu tip ox ucluqlarından eramızın əvvəllərində çox istifadə etmişlər. Şüşə qabların parçaları yalnız forma verməyən hissələrlə təmsil olunmuşdur.

Əhalinin verdiyi məlumata görə, aşınma nəticəsində dağılmış qəbirlərdən tapılan kəllələrin ağzında bir ədəd mis pul olub. Bu qədim dəfn adəti idi. Məlum olduğu kimi, e.ə. I əsrin ortalarından Azərbaycana gətirilmə pullar arasında Roma sikkələri də var. Mingəçevir, Bərdə, Beyləqan və s. yerlərdə qəbirlərdən tapılmış, e.ə. I əsrin sonuna - eramızın III əsrinə aid edilən Avqust sikkələri bu dövrdə Zaqafqaziyada geniş yayılmışdı. Tapıntılara əsasən, nekropolları eramızın I-III əsrlərinə aid etmək olar.

Göynük kənd sakinləri bizə bu nekropoldan tapdıqları bir neçə əşya verdi. Onlar küpə və kasa tipli qablardan, şüşə muncuq, bülöv daşı, tunc ayna parçalarından ibarətdir.

Küpə qara rənglidir. Ağzının kənarı xaricə qatlanmış, boğazı qısa, gövdəsi qabarıqdır. Ağzının diametri 9, gövdəsinin diametri 18, hündürlüyü 16 santimetrdir. Xarici səthi yaxşı cilalanmışdır.

Kiçik həcmli kasa tipli qabın gövdəsi qabarıq olub, ağzının kənarı içəri yığılmışdır.

Gilinə narın qum qatılaraq qara rəngdə bişirilmiş, xarici səthi yaxşı hamarlanmışdır. Ağzının kənarı qırılmışdır. Ağzının diametri 6 santimetrdir. Hündürlüyü 4 santimetrdir.

Muncuq qara rəngli şüşə xəlitədən hazırlanmışdır. Xarici səthi zolaqlıdır. Silindrik formalı olub, ortasında uzununa deşik açılmışdır.

Tunc güzgüyə aid iki parça nazik təbəqədəndir. Onun bəzi hissəsi yaşıl mis oksidi ilə örtülmüş, bəzi hissəsi isə metal parlaqlığını saxlamışdır. Parçalar olduqca kiçik olduğundan, formasını bərpa etmək mümkün deyil. Lakin parçalara əsasən, güzgünün dairəvi olduğunu söyləmək olar.

Daş bülöv dördkünc, uzunsov formalı, sarı rəngli daşdan hazırlanıb. Yuxarı hissəsində asmaq üçün deşik açılmışdır. Alətin mərkəzi hissəsi işlənmədən aşınmışdır. Uzunluğu 8,3 santimetrdir. Bu tip bülövlərə Naxçıvanın Antik dövr abidələrində tez-tez rast gəlinir.

Əhali tərəfindən təqdim edilən əşyalar içərisində oval formalı ağac kömürü parçası var idi. Onun bir tərəfi düz kəsilərək hamarlanmışdır. Görünür, ondan müxtəlif məqsədlər üçün istifadə edilmişdir.

IV Xornu nekropolu çayın sağ sahisində, ikinci və üçüncü nekropollardan təqribən 150 metr aralıda yerləşir. Buradakı daş qutu tipli qəbirlər əsasən dağıdılmış, qəbir daşları ətrafa səpələnmişdi. Əhalinin məlumatına görə, Xornu çayının yuxarısında xalq arasında “Gərməşovluq” adlanan ərazidə də daş qutu tipli qəbirlərə rast gəlinir. Xornu çayının sol sahilində, çaya doğru uzanan təpənin yamacında yerləşir. Nekropol V.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri, yastı sal daşlarla qurulmuş, eyni tipli daşlarla qapadılmışdır. Qəbirlər yamacda yerləşdiyindən aşınma nəticəsində üzə çıxmış və qarət edilmişdir.

Qəbirlərdən aşkar olunan çəhrayı və boz rəngli keramika parçaları ətrafa səpələnmişdir. 2003-cü ildə nekropoldakı dağıdılmış qəbirlərin bəzisi V.B.Baxşəliyev və A.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı dəmirdən hazırlanmış ox ucluqları və keramika parçaları aşkar edilmişdir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən IV Xornu nekropolunu I-II əsrlərə aid etmək olar.

Xornu kromlexi nekropolun şərq qurtaracağında yerləşir. Kromlexin diametri 3,9 metrdir. Kromlex daş qutu tipli qəbirin ətrafına iri qaya parçalarının düzülməsi ilə yaradılıb. 2006-cı ildə onun dağımış hissəsinin qalıqları V.B.Baxşəliyev və S.Aşurov tərəfindən tədqiq edilmiş, başı cənuba, üzü qərbə yönəlmiş, sol yanı üstə uzadılmış skelet qalıqlarına rast gəlinmişdir. Tədqiqatlar zamanı daş qutu tipli qəbirin yalnız iki divarının qalıqları qeydə alınmışdır. Qəbir dördkünc formalı olub, qaya parçalarından iki sıra hörülmüşdü. Onun eni 1,1, uzunluğu 1,6 metr idi.

Bu qəbirdən qara rəngdə bişirilmiş və cilalanmış gil qabların parçaları aşkar olundu. Aşkar olunan maddi-mədəniyyət qalıqları Kür-Araz mədəniyyətinin son mərhələsinə aiddir. Kromlexi e.ə. III minilliyə aid etmək olar.

Göynük nekropolu eyni adlı kənddən şərqdə, hündür təpənin üzərində yerləşir.

Nekropol qərb-şərq istiqamətində yönəlmiş torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin yerüstü əlaməti tamamilə itmişdir. Bəzi qəbirlərin ətrafında dördkünc, bəzilərində isə dairəvi formalı daş düzümləri vardır. Araşdırmalar zamanı nekropolun ərazisində aşınmaya uğramış daş qoçlara rast gəlindi. Bir neçə hissəyə parçalanan qoç fiqurlarının birini bərpa etmək mümkün oldu. Nekropoldakı qəbirlərin ətrafından Orta əsrlərə aid şirsiz keramika məmulatı əsasən onu XIV-XVII əsrlərə aid etmək olar.

## Nəhəcir nekropolları

I Nəhəcir nekropolu Nəhəcir-Göynük yolunun əsasən qərb tərəfində, yoldan Nəhəcir dağının ətəyinədək uzanan ərazidə yerləşir. Abidə şərq-qərb istiqamətində təxminən 500 metr, şimal-cənub istiqamətində isə 350-400 metr uzanmaqla, 18-20 hektar sahəni əhatə edir. Onun ərazisi daş qutu tipli və kromlexlə əhatə olunmuş kurqanaltı qəbirlərdən ibarətdir. Burada 2002-ci ildə tərəfimizdən yeni aşkar olunan



**Şəkil 51.** *Nəhəcir nekropolu. Orta tunc dövrünə aid daş qutu tipli qəbir*



**Şəkil 52.** *Nəhəcir nekropolu. Orta tunc dövrünə aid daş qutu tipli qəbir*



**Şəkil 53.** *Nəhəcir nekropolu. Orta tunc dövrünə aid boyalı qablar*

iyirmidən artıq kromlexli kurqan qeydə alındı. Onlardan ən kiçiyinin dairəsinin diametri 5,6 metr, ən böyüyünün diametri isə 20,5 metrdir.

Nekropolda apardığımız tədqiqatlar zamanı məlum oldu ki, torpağın eroziyası nəticəsində üzə çıxan daş qutu tipli qəbirlərdən birinin bir hissəsi yuyularaq dağılmışdır. Qəbirin kamerası düzbucaqlı formada olub, cənub tərəfdə xeyli ensizləşir. O iki sıra iri qaya parçalarını üst-üstə qoymaqla düzəldilib. Qəbir kamerası iri qaya parçası ilə yarıdan iki yerə bülünüb. Daş qutu qəbirin cənub və şərq hissəsində giriş yeri var. Dağıdılan qəbirin ətrafına boz rəngdə bişirilmiş küpə və kasa tipli qabların parçaları səpələnənmişdi. Qəbir kamerası təmizlənərkən onun şimal yarımhissəsində, qərb divarına sıxışmış vəziyyətdə iri küpə tipli qaba təsadüf edildi. Küpə torpağın təzyiqi nəticəsində parçalanmışdı. Qəbirin şərq girişi qarşısında isə kasa tipli qab var idi. O da torpağın təzyiqi nəticəsində parçalanmışdı. Giriş qapısı kiçik həcmli daşlarla hörülmüş, sonra isə iri qaya parçaları ilə əlavə olaraq, qapadılmışdı. Kasa tipli qabın girişin yaxınlığında yerləşməsi belə ehtimal etməyə əsas verir ki, o dövrün insanlarının ideoloji baxışlarına uyğun olaraq, buradan qəbirə müəyyən yeyəcəklər qoyulurmuş. Maraqlıdır ki, cənub tərəfdə olan gil qab parçaları da girişin ağzına səpələnmişdi.

80 santimetr dərinlikdə olduqca pis vəziyyətdə qalmış skelet qalığına rast gəlindi. Skeletin kəllə sümüyü və digər hissələri çürümüş vəziyyətdə idi. Skelet qalıqlarına əsasən, onun bükülü vəziyyətdə, şərq-qərb istiqamətində dəfn edildiyini söyləmək olar. Qəbir kamerası şimal-cənub istiqamətində idi. Onun üzərində örtük daşlarına rast gəlinmədi. Qəbir daşlarının torpaqdan xaricdə qalan hissəsi mamırla örtülmüşdü. Qəbirin uzunluğu 2,9 metr, ən geniş yerinin eni 1,4 metr idi. Həmçinin,

şərq girişinin eni 0,4 metrə, cənub girişinin eni isə 0,6 metrə çatırdı.

Qəbirdən tapılmış küpənin gilinə narın qum qatılmaqla boz rəngdə, orta dərəcədə bişirilib. Onun xarici səthi yaxşı sığallanıb, ağız kənarı isə xaricə qatlanıb. Küpənin gövdəsi qabarıq olub, oturacağa doğru ensizləşir. Kasa tipli qabın da boz rəngdə narın qum qatılmış gildən hazırlanmasına baxmayaraq, pis bişirilmiş, lakin divarı hər iki üzdən hamarlanmışdır. Qabın divarı arasında bişməmiş təbəqə qalmışdır. İkinci kasa çəhrayı rəngdə olub yaxşı bişirilmişdir.

Araşdırmalar zamanı müəyyən edildi ki, müasir Nəhəcir kəndi qədim nekropolun üzərində salınıb. Yerli əhalinin həyətyanı sahələrində apardığı təsərrüfat işləri zamanı bəzi qəbirlər dağıdılmış, onlardan Orta Tunc dövrünə aid monoxrom boyalı və sadə gil qab nümunələri toplanmışdır. Həmin tapıntılardan olan çölmək tipli qabın ağız kənarı xaricə qatlanmış, gövdəsi qırmızı boya ilə örtülərək, yaxşı cilalanmışdır. Üzəri dalğalı xətlərlə doldurulmuş üçbucaq və romb düzümləri ilə naxışlanmışdır. Naxışlar qara rənglə çəkilib. Romblar aşağıda kiçik yuvarlaq dairələrlə tamamlanır.



**Şəkil 54.** *Nəhəcir nekropolu. Orta tunc dövrünə aid boyalı qablar*



**Şəkil 55.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanda qazıntı işləri*

Digər çölmək tipli qab olduqca yüksək zövqlə hazırlanıb. O narın qum qarışığı olan gildən keyfiyyətli bişirilmişdir. Qabın ağız kənarı içəridən batıq, gövdəsi şarvari, oturacağı diskşəkillidir. Bu tip boyalı çölməyə ilk dəfə rast gəlinir. Onun gövdə hissəsi sınıq və dalğalı xətlərlə doldurulmuş romb düzümləri ilə naxışlanıb. Sınıq xətlərin kompozisiyasından ibarət naxışlar səkkiz guşəli ulduz şəklində birləşdirilib.

Küpə tipli qabların ikisi narın qum qatılmış gildən hazırlanaraq, orta dərəcədə bişirilmişdir. Küpələrdən birinin xarici səthində qalan barmaq izləri onun əldə hazırlandığı göstərir. Qabların xarici səthi alacalı olub, yüngülcə hamarlanmışdır. Kü-



**Şəkil 56.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanda qazıntı işləri*



**Şəkil 57.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın qəbir kamerasının ilkin görünüşü*

pələrdən biri sadə, ikincisi isə naxışlı olub, boğaz hissədə cızma ornamentlə bəzədilib.

2002-ci ilin qazıntılarını 4 saylı kromlexli kurqanda davam etdirdik. Tədqiqat üçün seçilən kromlex Nəhəcir dağının ətəyində yerləşir. Qazıntı işləri bir aydan artıq davam etdi. Qazıntıdan əvvəl kromlexin mərkəzi hissəsi 0,7-0,8 metr hündürlükdə idi. Kurqanın diametri şərq-qərb istiqamətində 10,6 metr, şimal-cənub istiqamətində isə 10,9 metrdir. Onun daşlarının bir neçəsi (19 daş) aydın seçilsə də, digərləri torpağın altında qaldığından (9 daş), az nəzərə çarpırdı. O müxtəlif ölçülü daşlarla qurulmuşdu. Kromlex böyük olduğundan, onu dörd bərabər hissəyə bölüb, şərq yarımhissəsində qazıntı apardıq. 20 santimetr dərinlikdən daş yığınlarından başqa heç nə aşkar olunmadı. Kromlex 20 santimetr qazıldı. Yenə də xır töküntüləri və daş qalıqları ilə rastlaşdıq. Qərb yarımhissəsini də 40 santimetr dərinliyində qazdıqdan sonra müəyyən edildi ki, kromlexin içərisində oval planda düzülmüş daşlardan qurulmuş ikinci kromlex vardır. Onun diametri 4,5-5,5 metr idi. 60 santimetr dərinlikdən sonra, qazıntı işləri, başlıca olaraq daxili kromlexdə aparıldı.

Qazıntı işləri 2 metr dərinliyə çatdıqda kurqanın kəsiyi aydın şəkildə göründü. O yanlara doğru alçalan hündür təpə formasında idi. Qazıntı 3 metr dərinliyə çatdıqdan sonra kurqanın qərb yarımhissəsi də götürələrək, təmizləndi. Qəbir kamerası çox böyük olduğundan onun üzərinə qoyulan daşlar, demək olar ki, kurqanın daş yığınları ilə birlikdə içəriyə tökülmüşdü. Qəbirin üzərində iri daşlardan ibarət yığını təmizləmək heç də asan deyildi. Çətinliyə baxmayaraq, qəbir kamerasının üzərindəki ağır daşlar qaldırıldı. Daş yığını təmizlən-



**Şəkil 58.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın arxeoloji materialları*

dikdən sonra məlum oldu ki, qəbir kamerasındakı avadanlığın əksəriyyəti təzyiqdən parçalanıb.

Qəbir kamerası tamamilə təmizləndi. Yer səviyyəsindən 3,5 metr dərinlikdə olan qəbir kamerasının uzunluğu 4, eni qərb tərəfdə 1,4, ortada 1,7 və şərq tərəfdə 2 metr arasında idi. Qəbir kamerası şərq və qərb tərəfdə oval formada idi. Qəbirdə insan skeletinə rast gəlinmədi. Lakin qazıntıdan heyvan sümükləri tapıldı. Gil qabların içərisindəki torpaq təmizlənərkən, orada da heyvan sümüklərinin qalıntılarına rast gəlindi. Müəyyən edildi ki, torpaq qəbirdə dəfn prosesi başa çatdıqdan sonra üzəri yastı sal daşlarla qapadılmış, daha sonra onun üzərində 3 metr hündürlüyündə torpaq qarışıq daş kurqan qurulmuşdur. Kurqana toplanan ağır daşlar zamanla qəbirin qapaq daşlarını sıxışdıraraq içəri düşmüşdür. Bunun nəticəsində qəbir kamerasındakı qabların çoxu əzilib, dağılmışdır.

Qəbir avadanlığı 22 ədəd müxtəlif formalı və həcmli saxsı qabdan ibarət idi. Onları iki qrupa ayırmaq olar. Birinci qrupa çəhrayı-narıncı rəngdə olan qablar daxildir. Belə qabların gilinə narın qum qatılmış, narıncı rəngdə yaxşı bişirilmişdir. Çəhrayı rəngli çölməklərin biri boyalıdır. Onun qısa boğazı var. Ağız kənarı azacıq xaricə qatlanıb. Oturacağı yastıdır. Xarici və daxili səthində qalan konsentrik izlər qabın dulus çarxında hazırlandığını göstərir. Gilinə narın qum qatılaraq keyfiyyətli bişirilib. Xarici səthi boya çəkilmədən yüngülcə cilalanaraq, tünd qəhvəyi rəngli xətlərlə naxışlanıb.

Küpə tipli qabların biri qısa boğazlı olub, gövdəsi yumurtavari, oturacağı yastıdır. Dulus çarxında hazırlanıb.



**Şəkil 59.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın arxeoloji materialları*



**Şəkil 60.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın arxeoloji materialları*

Xarici səthi və ağzının kənarı boya çəkilmədən yaxşıca cilalanıb. Xarici səthinin bəzi hissələri alacalıdır. İkinci küpə qısa boğazlı, yastı oturacaqlıdır. Əldə hazırlanaraq yaxşı bişirilmişdir. Gövdəsi şarvari olan narıncı rəngli bu küpənin xarici səthi yüngülcə cilalanmışdır. Üçüncü küpənin gilinə narın qum qatılmış, orta dərəcədə bişirilmişdir. Üzərində boz ləkələr vardır. Dulus çarxında hazırlanıb. Çəhrayı rəngli küpələrin biri iri həcmlidir. Onun xarici səthi yaxşıca cilalanıb. Ağzının kənarı xaricə qatlanmış, gövdəsi qabarıq, oturacağı yastıdır. Çiyin hissəsi qabarıq zolaqla əhatələnib. Digər bir ağız kənarı azacıq xaricə qatlanmış küpənin gilinə iri qum qatılmış, xarici səthi yaxşı hamarlanmışdır. Qısa silindrik boğazı olan bu qabın gövdəsi şarvari, oturacağı yastıdır. Daha bir oxşar küpə narın qum qarışığı olan gildən yaxşı bişirilmişdir. Şarvari gövdəyə malikdir. Xarici səthi yaxşı hamarlanmış, oturacağına yaxın 1 santimetr diametrində ikitərəfli deşik açılmışdır.

Kasa tipli qablar iki nümunə ilə təmsil olunub. Onlar formaca bir-birindən fərqlənirlər. Qabalardan birinin gilinə narın qum qatılmış, orta dərəcədə bişirilmiş, xarici səthi yüngülcə cilalanmışdır. Onun ağzı içəri yığılıb. Gövdəsi qabarıq, oturacağı yastıdır. Çiyin hissəsində iki qabarıq qulaqcıq şəkilli çıxıntı var. İkinci kasanın gövdəsi yuxarıda içəriyə doğru yığılmış, ağzının kənarı xaricə qatlanmışdır. Yaxşı bişmədiyindən xarici səthi alacalıdır. Divarları arasında boz rəngli təbəqə qalmışdır.

Nəhəcir kromlexindən aşkar olunmuş keramika məmulatının bir qismi boz rəngdə bişirilmişdir. Bu qrupa daxil olan qabların rəng tonları boz, qonur və qara arasında dəyişir. Küpə, çölmək, kasa, badya tipli qablardan ibarət olan ikinci qrup keramika çox çeşidlidir. Küpələrdən biri iri həcmlidir. Onun gilinə iri qum qatılaraq

yaxşı bişirilmişdir. Daxildən çəhrayı, xaricdən qara rəngdədir. Üzərinə qara boya çəkilməklə, parıldayanadək cilalanmış, basma naxışlarla bəzədilmişdir. Oturacağına yaxın gövdəsində deşik açılmışdır. Boz rəngdə bişirilmiş eyni tipli küpələrdən biri yalnız naxışlanma motivinə görə fərqlənir. Boz rəngli küpələr formaca da bir-birindən fərqlənirlər. Onlardan birinin gövdəsi uzunsovdur. Xarici səthi hislə örtülüdür. Digər bir xarici səthi yaxşı hamarlanmış küpənin üzərində ilan təsviri var.

İkinci tip küpələrin gilinə narın qum qatılaraq yaxşı bişirilmiş, bəzisinin xarici səthinə qara rəng çəkilməklə cilalanmışdır. Onların ağız kənarı xaricə qatlanmış, boğazı silindrik, gövdəsi qabarıq, oturacağı yastıdır. Bəzi küpələrin xarici səthi sığallanıb, lakin cilalanmayıb. Elə küpələr var ki, bir və ya iki sıra qabarıq, həmçinin batıq zolaqlarla naxışlanıb. Boz rəngli küpələrin birinin boğazı konusvaridir. Başqa bir küpənin ağız kənarı xaricə qatlanıb. Gövdəsi şarvari, oturacağı yastıdır. İçərisi çəhrayı astarlı, xarici səthi boz rəngdə olub alacalıdır. Xarici səthi yaxşı cilalanıb.

Kasa tipli qabın ağız kənarı azacıq xaricə qatlanmış, gövdəsi qabarıqdır. Gövdəsində qulaqcıqşəkilli çıxıntısı vardır. Kasa tipli qabın ağzı içəri yığılmış, ağzının altı batıq zolaqla əhatələnmişdir.

Badya tipli qablar narın və iri qum qarışıqlı gildən hazırlanaraq, boz rəngdə bişirilib. Onlardan biri çəhrayı astarlıdır. Gövdəsi ağız hissədə içəri yığılmış, ağız kənarı yastıdır. İkinci badyanın ağzının kənarı yüngülcə xaricə qatlanıb. Gövdəsi qabarıq, oturacağı yastıdır. Onun xarici



**Şəkil 61.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın qəbir kamerası*



**Şəkil 62.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın arxeoloji materialları*

səthi yaxşı hamarlanaraq, yüngülcə cilalanıb.

Beləliklə, kromlexli kurqandan aşkar edilən arxeoloji materialın hamısı Orta Tunc dövrü mədəniyyəti abidələrinin istər boyalı, istərsə də basma naxışlı qabları ilə oxşarlıq təşkil edir. Bu materiallar göstərilən mədəniyyətin ilk və orta mərhələsini təmsil edir.

Bu ərazidə qeydə aldığımız və tədqiqatçılarını gözləyən iyirmidən artıq kromlexli kurqan haqqında isə qısa məlumatlar aşağıdakılardan ibarətdir:

1 saylı kromlexli kurqanın diametri qərb-şərq istiqamətində



**Şəkil 63.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqan*

20,5, şimal-cənub istiqamətində 19,6 metrdir. Onun ətrafına 43 ədəd müxtəlif ölçülü daş düzülüb. Ona yaxın yerləşən 2 saylı kromlexlə arasındakı məsafə 1,3 metrdir.

2 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 17,1, şimal-cənub istiqamətində 15,2 metrdir. Kromlex 28 daşdan ibarətdir. Ona ən yaxın olan 10 saylı

kromlexlə arasındakı məsafə 9,5 metrdir.

3 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 15,6, şimal-cənub istiqamətində 12,3 metrdir. Onun dairəsi 17 müxtəlif ölçülü daşdan qurulub. 4 saylı kromlexli kurqandan 1 metr, 10 saylı kromlexli kurqandan isə 84 metr aralıda yerləşir.

4 saylı kromlexli kurqan haqqında yuxarıda geniş məlumat verdik.

5 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 6, şimal-cənub istiqamətində isə 5,6 metrdir. Onun dairəsi 16 daşdan ibarətdir. 4 saylı kromlexli kurqandan 90 metr aralıda yerləşir.

6 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 9,6, şimal-cənub istiqamətində isə 5,6 metrdir. Onun dairəsi 16 daşdan ibarətdir. 5 saylı kromlexli kurqandan 30 metr aralıda yerləşir.




**Şəkil 64.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın planı*

7 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 9,6, şimal-cənub istiqamətində isə 10 metrdir. Onun ətrafını əhatələyən 7 daş görünür. 9 saylı kromlexli kurqandan 22 metr aralı yerləşir.

8 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 9,7, şimal-cənub istiqamətində isə 12 metrdir. Kromlexin dairəsini 12 daş əhatə edir. 9 saylı kromlexli kurqandan 10 metrlik məsafədədir.

9 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 15,5, şimal-cənub istiqamətində isə 11,5 metrdir. Ətrafı 25 daş düzümü ilə əhatələnib. 4 saylı kromlexli kurqandan 51 metr aralıda yerləşir.

10 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 10, şimal-cənub istiqamətində 9,3 metrdir. Dairəsini 6 daş tamamlayır. 11 saylı kromlexli kurqandan 11 metr aralıda yerləşir.

11 saylı kromlexli kurqanın ölçüləri qərb-şərq istiqamətində 11, şimal-cənub istiqamətində isə 8,5 metrdir. Ətrafı 7 daşdan ibarətdir.

Qalan kromlexli kurqanlar bunlardan təxminən 80-100 metr şərqdə, Göynük kəndinə uzanan yolun qərbində salınıb. Onların diametrləri 8-15 metr arasında dəyişir. Hamısının yerüstü əlamətləri açıq-aydın bilinir.

Bu tip kromlexli nekropollar, əsasən Orta Tunc dövrünün erkən və orta mərhələləri




**Şəkil 65.** *Nəhəcir nekropolu. Orta Tunc dövrünə aid 4 saylı kromlexli kurqanın arxeoloji materialları*

üçün xarakterikdir. Bunu qazıntıdan əldə edilmiş arxeoloji materiallar da sübut edir. Müqayisəli araşdırmalardan məlum olur ki, Nəhəcir kromlexli kurqanları e.ə. III minilliyin ikinci yarısından başlayıb e.ə. II minilliyin birinci yarısına qədərki dövrü əhatə edir.

II Nəhəcir nekropolu eyni adlı kəndin qərb tərəfində, uzunsov təpənin üzərində yerləşir. O ətraf yerlərə nisbətən bir qədər yüksəkdədir. Nekropolun şərqindən torpaq yol keçir. Burada 1991–ci ildə müəlliflər tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldakı qəbirlərin hamısı qərb-şərq istiqamətində salınıb. Onların baş daşları qalmayıb. Sinə daşları isə yastı sal, yaxud dördkünc prizmatik daşlardan ibarət olub, kobud formada işlənib. Bəzi sinə daşlarının üzəri yaxşı yonularaq, yuxarı hissədə tağvari formada tamamlanır. Yerli əhalinin verdiyi məlumata görə, nekropolda vaxtilə xeyli qoç-daş olmuşdur. Lakin hazırda onların heç biri qalmayıb. Onların bəzisi aparılıb, bəzisi isə sındırılıb. Sinə daşlarının üzərində heç bir yazıya, yaxud işarəyə təsadüf edilmir. Nekropolun cənub tərəfində yerləşən qəbirlərin bir qrupu qazılaraq dağıdılıb. II Nəhəcir nekropolunu XIV-XVII əsrlərə aid etmək olar.

## Ağsal nekropolu

Ağsal nekropolu Milax kəndindən şimal-şərqdə, Əlincəçayın sağ sahilində yerləşir. Onu şimal-qərbdə əkin sahələri, cənub-şərqdə isə Əlincəçay əhatə edir.

Ə.K.Ələkbərov və O.H.Həbibullayevin verdiyi məlumatlara görə, burada vaxtilə böyük nekropol olmuş və onlardan boyalı qablar tapılmışdır. Nekropolun yerləşdiyi ərazi xalq arasında “İydəlik” və “Camış rəddi” adlanır. Əlincəçayının vadisi başdan-



**Şəkil 66.** *Ağsal yaşayış yeri və nekropolu*

başa şumlanıb əkin sahəsi kimi istifadə edildiyindən nekropolun yerüstü əlamətləri tamamilə itmişdir. Odur ki, onun sərhədlərini dəqiq müəyyən etmək mümkün deyil. Yerli əhalinin verdiyi məlumata görə, "Camış rəddi" deyilən yerdə traktorla torpaq işləri görülərkən qəbir abidələri dağıdılmış və gil qablar aşkar edilmişdir. Təəssüf ki, aşkar olunmuş materiallar indiyədək qalmamışdır. Söylənənlərdən məlum olur ki, abidə Orta və Son Tunc dövrünün qovşağında mövcud olmuşdur.

## Boyəhməd nekropolları

I Boyəhməd nekropolu Boyəhməd kəndindən cənub-qərbdə, Dərəçayın hər iki sahilində yerləşir. Nekropol hər iki tərəfdən hündür dağlarla əhatə olunub. Abidənin tutduğu sahə 5000 kvadratmetrdir. Nekropol tikinti işləri görülərkən təsadüfən aşkar olunmuş və qəbir abidələrinin bir qismi dağıdılmışdır. 1989-cu ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin əməkdaşları dağıntı yerində olmuş və arxeoloji materiallar toplamışlar. Sərhəd bölgəsində gedən döyüşlə əlaqədar bu iş yarımçıq qalmışdır. 1991-ci ildə tədqiqatlar davam etdirilərək nekropolda iki dağıdılmış və iki toxunulmamış qəbir abidəsi öyrənilmişdir. Həmçinin, yerli əhali tərəfindən götürülmüş arxeoloji tapıntılar bir yerə toplanmışdır. Aşkar olunmuş materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilmişdir.

Nekropoldakı qəbirlər daş qutulardan ibarətdir. Əhalinin verdiyi məlumata görə, vaxtilə dağıdılmış qəbirlərdən bəzək əşyaları, tunc xəncərlər, yabalar, zəncir, nizə ucluğu və s. materiallar aşkar olunmuşdur. Kəşfiyyat işləri nəticəsində müəyyən edildi



**Şəkil 67.** *I Boyəhməd nekropolu*



**Şəkil 68.** *II Boyəhməd nekropolu*

ki, qəbirlər heç bir yerüstü əlamətə malik deyillər. Lakin bəzi qəbirlərin üst və yan daşlarının torpağın aşınması nəticəsində üzə çıxması onların dağıdılmasına səbəb olmuşdur. Nekropolda aparılan qazıntı zamanı iki daş qutu tipli qəbir öyrənildi. Yanlarda iri daşlarla qurulan qəbirlərin üzəri yastı daşlarla örtülmüşdür.

1 saylı qəbir şərq-qərb istiqamətində olmaqla, uzunluğu 2, eni 1,2 metr idi. Onun qərb divarı yaxınlığında üzü yuxarıya, qərb-şərq istiqamətinə yönəldilmiş iki kəllə aşkarlandı. Üçüncü kəllə onlardan 20 santimetr aralıda, dikinə qoyulmuşdu. Onun üzü cənub-qərbə doğru idi. Kəllələrin ətrafında ayaq və əl sümüklərinə və ayrıca qoyulmuş alt çənəyə təsadüf edildi. Sümüklər bir-birinin üzərində olduqca sıx yerləşdirilmişdi. Dördüncü kəllə qəbirin cənub divarı yaxınlığında idi. O, tamamilə əzilmişdi. Bu kəllənin altından ayaq sümükləri aşkar olundu. Skelet qalıqları təmizlənərkən onurğa və çanaq sümüklərinə rast gəlinmədi. Cənub divarının yaxınlığında olan kəllənin altından tunc xəncərə və ona aid qın, qərb divarının yaxınlığında olan kəllələrin altından isə tunc xəncər tapıldı. Skeletlərin ətrafından həmçinin, tunc bəzək əşyaları aşkar olundu. Şərq divarının yaxınlığında tunc boyunbağı, cənub və şərq divarlarının birləşdiyi yerdə xeyli aqat və pasta muncuqlar aşkar olundu. Skelet qalıqlarının arasından xırdabuynuzlu heyvana aid çənə sümükləri də tapıldı.

Qəbirdən aşkar olunmuş saxsı məmulatı əsasən boz rəngdədir. Küpə, qədəh və parç tipli qablar bişmə dərəcəsinə görə bir-birindən fərqlənirlər. Onların gilinə narın qum qatılıb. Bəzi qablar dulus çarxında hazırlanıb. Üzəri qeyri-bərabər olanlar da var. Bir neçə saxsı məmulatının xarici səthi yaxşı hamarlanıb və cızma xətlərlə naxışlanıb. Boz rəngli gil məmulatına forma verməyən hissələr də daxildir. Onların gilinə narın qum qatılaraq, pis bişirilmişdir. Qabın divarının kəsiyində çəhrayı laylar izlənilir.

Silahlar iki ədəd xəncərdən ibarətdir. Onlar formaca eyni tiplidir. Hər ikisi bütöv şəkildə, tökmə üsulu ilə hazırlanmışdır. Xəncərlərin başlığı şəbəkəli və konusvari olub, yuxarıda şarşəkilli çıxıntı ilə tamamlanır. Onların dəstəyi ensiz olmaqla ağac inkrustasiya keçirmək üçün çərçivəsi vardır. Birinin tiyəsi üçbucaq şəkilli və sadədir. İkincinin tiyəsi isə ensiz qabarıq və batıq zolaqlarla naxışlanıb. Qəbir avadanlığının bir qismi tuncdan hazırlanmış bilərzik, sırğa, pilək, asma, toqqa və boyunbağılardan ibarətdir.

2 saylı qəbir birincidən 2 metr şimal tərəfdə yerləşir. Qəbirin uzunluğu 1.8, eni 1.35, dərinliyi 0,8 metr idi. Cənub tərəfdə eni 1,9 metrdir. Qəbirin kamerası şərq-qərb istiqamətində olmaqla dikinə qoyulmuş yastı sal daşlardan qurulub. Daşların üzərində əlavə olaraq dağ daşları ilə iki cərgə hörgü vardır. Qəbirin içərisi təmizlənərkən 0,4 metr dərinlikdən başlayaraq ağac kömürünün və insana aid ayaq lülə sümüyünün qalıqları aşkar olundu. Sümük qalıqlarına qəbirin qərb və şimal hissəsində də təsadüf edildi. 0,6 metr dərinlikdən sümük qalıqları və kəllə qapağının bir hissəsi tapıldı. Bu səviyyədən başlayaraq həmçinin boz rəngli qab parçaları aşkar edildi. Qəbirin şərq hissəsində düzbucaqlı formada hazırlanmış tunc piləyə rast gəlindi.

Tədqiqatlar zamanı dağıdılmış qəbirlərin materiallarına da rast gəlindi. Onlar boz rəngdə bişirilmiş küpə, kasa, nimçə, badya və s. qabların parçalarından ibarətdir. Aşkar olunmuş materialların təhlilinə əsasən I Boyəhməd nekropolunu e.ə. I minilliyin əvvəllərinə-Dəmir dövrünə aid etmək olar.

II Boyəhməd nekropolu eyni adlı kəndin şimal tərəfində, hündür dağın yamacında yerləşir. Abidə şərq və cənub-şərqdə dərin dərə ilə məhdudlaşır. Bu sahədə aparılan tikinti işləri zamanı təsadüfən bir qəbir abidəsi dağıdılmışdır. Həmin qəbirin materialları kənd sakinləri tərəfindən toplanmışdır.

Nekropolun yerləşdiyi ərazi 1991-ci ildə tədqiq edilmişdir. Qəbirlər heç bir yerüstü əlamətlərə malik deyil. Qəbirin materialları iki tunc bilərzikdən və bir tunc bıçaqdan ibarətdir. Təəssüf ki, onlarla birlikdə toplanmış gil qablar qalmamışdır.

Tunc bilərziklər eyni formada olub içəridən yastı, xaricdən qabarıq şəkilli məftillə hazırlanıb. Ucları bir-birindən aralıdır. Tunc bıçaq isə yastı tiyəlidir. Ortada bir qədər əyri olmaqla, uc hissəsi arxaya doğru daha da əyilərək dəyirmiləşdirilib. Sapı qısadır. Uca doğru getdikcə ensizləşir.

Aşkar olunmuş arxeoloji materiallar II Boyəhməd nekropolunun Erkən Dəmir dövrünə e.ə. I minilliyin əvvəllərinə aid olduğunu göstərir.

III Boyəhməd nekropolu eyni adlı kəndin şimal-şərqində, hündür təpənin yamacında yerləşir. O şimal-şərqdə hündür dağlarla, cənub tərəfdə isə torpaq yolla məhdudlaşır. Sahəsi təxminən 1600 kvadratmetrdir. Nekropol xalq arasında qəbiristanlıq adlandırılır. 1991-ci ildə burada tərəfimizdən kəşfiyyat xarakterli tədqiqat işləri aparıldı.

Buradakı qəbirlərin bir qismi torpağın aşınması nəticəsində dağılıb. Onların əksəriyyətinin baş daşları düşmüş, sinə daşları isə istiqamətini itirmişdir. Qəbirlər əsasən qiblə istiqamətindədir. Qəbirüstü daşlar yastı olub, dördkünc formalıdır. Onlar olduqca

kobud hazırlanmışdır. Bəzi sinə daşlarının üzərində ərəb əlifbası ilə yazılara təsadüf olunur. Sinə daşlarının bəzisi dördkünc formalı, yuxarıda isə tağşəkillidir.

Nekropolu təxminən XIV-XVII əsrlərə aid etmək olar.

## Ləkətağ nekropolu

Ləkətağ nekropolu eyni adlı kəndin girəcəyində, Əlincəçayın sağ sahilində yerləşir. Nekropol şərq tərəfdən torpaq yol, şimalda həyatyanı sahə, qərbdə isə dərə ilə sərhədlənir. Abidə 1975-ci ildə yol çəkilərkən təsadüf nəticəsində aşkar olunmuşdur.

Nekropol çox da hündür olmayan təpənin üzərindədir. Onun ərazisi həyatyanı sahəyə daxil edildiyindən burada arxeoloji qazıntı işləri aparmaq mümkün olmadı. Yol çəkilərkən alınmış kəsikdə iri sal daşlara təsadüf olundu. Bu göstəricilər buradakı qəbirlərin daş qutu tipli olmasının nişanəsidir. Ərazidən bir neçə forma verməyən gil qab hissələrinə təsadüf edildi. Onların gilinə narın qum qatılaraq boz, bəzən isə qara rəngdə bişirilib. Keramika məmulatı Boyəhməd nekropolundan aşkar edilmiş materiallarla oxşar olub, eyni dövrə aiddir. Arxeoloji materiallara əsasən Ləkətağ nekropolunu Erkən Dəmir dövrünə e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.

## Culfa nekropolu



**Şəkil 69.** *Ləkətağ nekropolu*



**Şəkil 70.** *Ləkətağ nekropolu*

Culfa nekropolu eyni adlı şəhərin yaxınlığında yerləşir. Nekropol 1939-1940-cı illərdə Culfa dəmir yolu çəkilərkən təsadüfən dağıdılmışdır. Aşkar olunmuş materiallar mühəndis K.K. Vasilyev tərəfindən toplansa da, kolleksiya uzun müddət E.S. Tormanın evində saxlanılmış, 1951-ci ildə Gürcüstan Dövlət Tarix Muzeyinə verilmişdir.

Culfa arxeoloji tapıntıları çəhrayı və boz rəngdə bişirilmiş gil qablardan və yüksək sənətkarlıqla hazırlanmış müxtəlif tunc bəzək əşyalarından ibarətdir.

Çəhrayı rəngli gil qabların bir qrupu boyalıdır. Onların üzəri qırmızı, yaxud sarı anqob üzərindən qara və qırmızı rənglə çəkilmiş xətlərlə naxışlanıb. Naxışlar əsasən həndəsi ştrixlərdən, yaxud torlu üçbucaq və romblardan ibarətdir. Bəzi qabların oturacaq hissəsi də bəzədilib. Boyalılar içərisində hər iki tərəfdən batıq olan kasalar və ayaqqabı tipli qablar xüsusilə maraq doğurur.

Boz rəngli gil məmulatı küpə, kasa, vaza, çaynik və qədəh tipli qablardan ibarətdir. Onların gövdəsi bucaqşəkilli və ya üfüqi cızma xətlərlə naxışlanıb.

Tapıntıların böyük bir qismi tunc əşyalardan ibarətdir. Onların içərisində yastı tiyəli, şəbəkəli dəstəyi olan bir, Ön Asiya tipli dörd xəncər, ox ucluqları, sancaqlar, üzəri cızma ornamentlə naxışlanmış bilərzik və boyunbağılar vardır. Tapıntılar içərisində bir ədəd tunc toppuz da maraq doğurur.

Culfa arxeoloji materiallarının təhlili onları Erkən Dəmir dövrünə-e.ə. XIII-IX əsrlərə aid etməyə imkan verir.

## Camaldın nekropolları

I Camaldın nekropolu Camaldın kəndinin cənubunda, düzənlik sahədə yerləşir. Onu şərq tərəfdən asfalt yol, şimaldan isə hündür təpə əhatə edir. Hazırda abidə yaşayış evlərinin altında qalmışdır.

1989-cu ildə tikinti işləri görülərkən təsadüfən aşkar edilmiş nekropolun ərazisində M.M. Seyidov, A.Q. Seyidov və V.B.Baxşəliyev tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılıb. Dağılmış küp qəbirlərdən üç ədəd saxsı və bir şüşə qab aşkar olunub. Küp qəbirlərin yuxarı hissəsi və orada olan skeletlər tamamilə dağıdılıb və tədqiqat üçün yararsız halda olub. Küplərin salamat qalmış oturacaq hissələrinin vəziyyətinə əsasən demək olar ki, küp qəbirlərin ağzı cənub və cənub qərb istiqamətinə yönəldilib. Çəhrayı rəngdə, qeyri-bərabər bişirilmiş küplərin ağzı iri sal daşlarla örtülmüşdür.





**Şəkil 71.** *Camaldın nekropolu*



**Şəkil 72.** *Camaldın nekropolu*

Nekropolda aparılan tədqiqatlar zamanı daş qutu tipli bir qəbir öyrənildi. Onun örtük daşı yox idi. Ola bilsin ki, o torpaq işləri zamanı dağıdılıb. Qəbirdə bir skeletə rast gəlindi. Onun kəlləsi cənub-qərbdə olmaqla, sağ böyrü üstə, bükülü vəziyyətdə dəfn olunmuşdu. Kəllə sümüyü olduqca pis qalmış və əzilmişdi. Əl barmaqları çənənin altında, pəncələri bud sümüyünün yaxınlığında idi. Skeletin əl barmaqlarından birində tunc üzük, boyun tərəfində isə xeyli şəvə və serdolik muncuqlar aşkar olundu. Kəllə sümüyünün üst tərəfində bir-birinin üzərinə qoyulmuş iri balıqqulaqları var idi. Qəbirə balıqqulağı qoyulması adətinə Naxçıvanda ilk dəfə idi ki, təsadüf edilirdi.



**Şəkil 73.** *Kaftarlıq mağarası. Camaldın kəndi*

Nekropoldan aşkar olunmuş arxeoloji materialların təhlilinə əsasən onu Antik dövrə eramızın I-II əsrlərinə aid etmək olar.

II Camaldın nekropolunda 2014-2016-cı illərdə A.Seyidov və V.Baxşəliyev tərəfindən kəşfiyyat işləri aparılmışdır. Abidə kənddən şimal-şərqdə, Alməmməd pirinə gedən yolun sağ tərəfində, uzunsov təpənin üzərində yerləşir. O şərqdə dərə, qərbdə isə quru çay vadisi ilə məhdudlaşır. Şimal-şərqdə nekropolun yerləşdiyi təpə yaşayış yeri ilə birləşir. Buradakı qəbirlər qərb-şərq istiqamətində olub, düzbucaqlı və dairəvi formalardadır. Onların əksəriyyətinin baş daşları qalmışdır. Qəbirlərin üzəri daş yığınları ilə örtülüb. Daşların üzəri qalın mamır qatından görünməz olub. Bəzi qəbirlərin ətrafı dikinə qoyulmuş sal daşlarla, bəzilərininki isə kiçik həcmli daşlarla düzbucaqlı formada əhatələnib. Qəbiristanlıqda müxtəlif ölçülü bişmiş kərpiclərə, çəhrayı rəngdə bişirilmiş şirsiz gil qab parçalarına təsadüf edilir. Yerli əhalinin verdiyi məlumata görə, burada vaxtilə xeyli qoç-daş olmuşdur. Lakin hazırda onların heç biri qalmamışdır. Burada olan qəbirlərin bir neçəsi isə qazılıb dağıdılmışdır.

Qəbir tiplərinə və aşkar olunan keramika məmulatına əsasən II Camaldın nekropolunu XIV-XVIII əsrlərə aid etmək olar.

## Gərməşovluq nekropolu

Gərməşovluq nekropolu Göynük kəndindən şimalda, Xornu çayının yuxarı axarında, hündür təpənin yamacında yerləşir. Nekropol AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınıb.

Nekropol yamacda yerləşdiyindən, qəbirlər aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Qəbirlər dördkünc, bəzən isə oval formalı olub, müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdədir. Onlar yanlarda iri sal daşlardan qurulub. Qəbirlərin üstü iri,



**Şəkil 74.** *Gərməşovluq nekropolu*

yastı sal daşlarla örtülüb. Ətrafa səpələnmiş skelet qalıqları inqumasiya üsulu ilə dəfn adətinin olduğunu göstərir.

Qəbirlərdən aşkar olunan gil qablar qırılmış və ətrafa səpələnmişdir. Boz və çəhrayı rəngdə bişirilən keramika məmulatı eramızın I-II əsrlərinə aiddir.

## Dirəkdaş nekropolu

Dirəkdaş nekropolu Göynük kəndi yaxınlığında, Xornu çayına doğru axan dağ çaylarından birinin sahilində, hündür təpənin üzərindədir. Nekropoldakı qəbirlər daş qutu tiplidir. Onlar bir sıra iri sal daşlarla qurulub. Qəbirlər torpağın aşınması nəticəsində üzə çıxdığından tamamilə dağıdılıb. Onlar müxtəlif istiqamətlərə yönəldilib. Araşdırmalar zamanı qəbirlərdən çəhrayı və boz rəngli gil qabların parçaları aşkar olundu. Tapıntılar Antik dövrə eramızın I-II əsrlərinə aiddir.

## Dəmirli nekropolu

Dəmirli nekropolu Ləkətağ kəndindən şimalda, Dəmirliçayla Bərxudarçayın qovşağında, uzunsov təpənin üzərində yerləşir. Nekropolun ətrafında yaşayış yeri var. Buradakı qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri sal daşlarla qurularaq irihəcmli yastı sal daşlarla qapadılıb. Qəbirlərin istiqaməti müxtəlifdir. Bəzi qəbirlər hansısa



**Şəkil 75.** *Dəmirli nekropolu*



**Şəkil 76.** *Dəmirli nekropolu*

dövrdə qazılaraq dağıdılıb. Üst-örtük daşları aşınma nəticəsində qəbirlərin ətrafına düşmüşdür. Ərazidən torlanan çəhrayı və boz rəngli keramika parçalarının elmi təhlilinə əsasən nekropolu I-VII əsrlərə aid etmək olar.

## Qızılca nekropolu

Qızılca nekropolu eyni adlı kənddən cənubda, ətraf yerlərə nisbətən hündür təpənin üzərində yerləşir. Abidə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Sahəsi 845 kvadratmetrə çatan nekropolun ərazisindən əkin sahəsi kimi istifadə edildiyindən təpənin üzəri şumlanmış və qəbirlər tamamilə dağıdılmışdır. Burada xeyli daş yığınlarına rast gəlindiyindən qəbirlərin daş qutu tipli olduğu ehtimal olunur.

Nekropolda aparılan araşdırmalar zamanı çəhrayı rəngdə, yaxşı bişirilmiş keramika parçaları toplandı. Aşkar olunan keramika nümunələrinə əsasən nekropolu e.ə. IV-I əsrlərə aid etmək olar.



**Şəkil 77.** *Qızılca nekropolu*



## I Zoğala nekropolu

Zoğala nekropolu Milax kəndindən şimal-qərbdə, birinci yaşayış yerinin yaxınlığında yerləşir. Onları bir-birindən dərin dərə ayırır. Nekropolun yerləşdiyi ərazi şimal-qərb və cənub-şərqdə dərin dərə ilə məhdudlaşmaqla, şimal tərəfdə ümumi dağ silsiləsi ilə qovuşur. Nekropol 1987-ci ildə V.Əliyev və V.Baxşəliyev tərəfindən tədqiq edilmişdir. Buradakı qəbirlər qərb-şərq istiqamətindədir.



**Şəkil 78.** *I Zoğala nekropolu*

Onların demək olar ki, heç birinin baş daşları qalmayıb. Qəbirlərin üzəri dördkünc formada kiçik həcmli daşlarla əhatələnib. Bəzilərinin üzəri isə başdan-başa daşla örtülüb. Qəbirlərin əksəriyyəti itmək üzrədir.

Nekropolu təqribən XVI-XIX əsrlərə aid etmək olar.

## II Zoğala nekropolu

II Zoğala nekropolu Zoğalaçayın sağ sahilində, yaşayış yerinin yaxınlığında yerləşir. Qəbirlər yanlarda iri sal daşlardan qurulmuşdur. Bəzi qəbirlərin üzərində üst daşlarına rast gəlinir. Onların yan daşları torpağın aşınması nəticəsində üzə çıxmış,





**Şəkil 79.** *II Zoğala nekropolu*

bəziləri qazılıb dağıdılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdədir. Qərb-şərq istiqamətində olan qəbirlərdən birinin uzunluğu 1,3 metr, eni 0,7 metr idi. Qəbir kamerası baş və ayaqda bir, yanlarda bir neçə yastı sal daşla qurulmuşdu.

Nekropolu I-VII əsrlərə aid etmək olar.

## Söyüdlü nekropolu

Söyüdlü nekropolu Milax kəndindən şimalda, Zoğalaçayın sağ kənarındakı uzunsov təpənin üzərində yerləşir. Qəbirlər daş qutu tipli olub müxtəlif istiqamətlərə yönəlmişdir. Onların yan daşları torpağın aşınması nəticəsində üzə çıxmışdır. Qəbirlər yanlarda iki iri, yastı sal daşla qurulmuşdur. Qəbirlərin üzəri ağır yastı sal daşla örtülmüşdür. Bəzi qəbirlərin üzərində örtük daşları yoxdur.

Nekropolun ərazisi tədqiq edilərkən çəhrayı və boz rəngli keramika parçalarına rast gəlindi. Onlardan bəzisinin üzəri yaxşı anqoblanmış və cilalanmışdır.

Aşkar edilmiş arxeoloji materiallara əsasən Söyüdlü nekropolunu III-VIII əsrlərə aid etmək olar.

## Tülkütəpəsi kurqanı

Tülkütəpəsi kurqanı Camaldın karvansarasından şərqdə, əkin sahələrinin arasında yerləşir. Kurqan AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Onun ətrafı çay daşları ilə əhatələnmişdir. Kurqanın hündürlüyü 2,8, diametri 26 metrdir. Kurqanın tökmə torpağı yumşaq olduğundan, heyvanların açdığı oyuqlarda çəhrayı və sarı rəngli keramika parçalarına rast gəlinir. Kurqanın bitki örtüyü zəifdir.

Kurqanın üzərindən toplanan keramika nümunələri erkən Orta əsrlər üçün xarakterikdir. Kurqanı təxmini olaraq III-VIII əsrlərə aid etmək olar.

## Gülüstan nekropolları

I Gülüstan nekropolu eyni adlı kənddən şimal-qərbdə, yaşayış yerinin qərb qurtaracağında yerləşir. Abidə cənub-qərbdə Araz çayı, şimalda dağ silsiləsi, şərqdə yaşayış yeri ilə məhdudlaşır. Nekropolda Azərbaycan EA Tarix İnstitutunun və Naxçıvan Elm Mərkəzinin əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropolun yerləşdiyi ərazi girintili çıxıntılı olub, 5 hektardan artıq sahəni əhatə edir. Burada müxtəlif dövrlərə aid qəbir abidələri vardır. Qəbirüstü daşlar, öz zahiri formasına görə fərqlənirlər. Onların içərisində qoç daşlar, daş sənduqələr, düzbucaqlı prizma formasında hazırlanmış sinə və baş daşları vardır. Baş daşlarının üzərində müxtəlif süjetli təsvirlərə təsadüf olunur. Onların içərisində qanadlı əjdaha obrazı tez-tez təkrar olunur. Təsvirlərdə qanadlı əjdahalar bəzən allahın qoruyucusu kimi verilmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Gülüstan nekropolunda olan qoç daşların bir qismi aparılmış, bir qismi isə qırılıb dağıdılmışdır. Nekropolun Orta əsr



**Şəkil 80.** *Gülüstan nekropolu*

qəbirləri XII-XVIII əsrləri əhatə edir. Lakin burada XIX əsrə aid qəbirlərə də təsadüf olunur.

II Gülüstan nekropolu Gülüstan kəndindən şərqdə, hündür oval təpənin üzərində yerləşir. Nekropolun ərazisi torpaq işləri görülərkən dağıdılmışdır. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri sal daşlarla qurulmuşdur. Müxtəlif istiqamətlərə yönəldilmiş qəbirlərin üstü iri yastı sal daşlarla qapadılmışdır. Dağıdılmış qəbirlərdən maddi-mədəniyyət nümunələri aşkar edilməmişdir. Nekropolu IV-VIII əsrlərə aid etmək olar.

## Kolasu nekropolu

Kolasu nekropolu Culfa rayonunun Ləkətağ kəndindən şimal-şərqdə, eyni adlı yaşayış yerinin şimalında, onunla bir ərazidə yerləşir. Nekropol 1991-ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Nekropol ensiz zolaq şəklində qərbdən-şərqə doğru uzanır. Qəbirlər əsasən qərb-şərq istiqamətində yönəldilmişdir. Onların baş daşları qalmayıb. Sinə daşları yonulmamış iri sal daşlardan ibarət olub, dördkünc formalıdır. Aşınma nəticəsində bəzi qəbirlərin üzəri açılmış və yan daşlar üzə çıxmışdır. Tədqiqatlara əsasən demək olar ki, qəbirlər daş qutu tipli olmuşdur. Nekropol yaşayış yerindən azacıq aralıda yerləşir. Nekropolu yaşayış yeri ilə eyni dövrə VI-VIII əsrlərə aid etmək olar.

## Qazançı nekropolları

I Qazançı nekropolu Əlincəçayın sağ sahilində, Qazançı kəndinin şimal-şərqində, uzunsov təpənin üzərində yerləşir. Hazırda nekropol kəndin əhatəsindədir. Buradakı qəbirlər müsəlman qibləsi istiqamətində olub, yerləşdiyi təpənin bütün səthini əhatə edir. Qəbirlərin əksəriyyətinin baş daşları yoxdur. Sinə daşları uzunsov və dördkünc formada olmaqla bir qədər kobud hazırlanmışdır. Sinə daşlarının bir qrupu sandıqşəkillidir. Onlar yuxarıda tağvari formada tamamlanır. Bu tip sinə daşlarının gövdəsi boyunca süjetli təsvirlər vardır. Təəsüf ki, belə sinə daşlarının əksəriyyəti qırılıb dağıdılmışdır. Qəbiristanlıqdakı sinə daşlarının bir qrupu qoç daşlardan ibarətdir. Onların da əksəriyyəti qırılıb dağıdılmış və ətrafa səpələnmişdir.



**Şəkil 81.** *Daş qoç heykəllər. Qazançı kəndi*

I Qazançı nekropolunu ətrafdan tapılmış saxsı qab sınıqları və sinədaşları əsasında XIII-XVII əsrlərə aid etmək olar.

II Qazançı nekropolu Əlincəçayın sağ sahilində, Qazançı kəndinin cənub-şərqində yerləşir. Abidə şərqdə Əlincəçay, şimalda isə dərin dərə ilə məhdudlaşır. Nekropolun yerləşdiyi təpə qərbdə ensiz zolaq şəklində ümumi dağ silsiləsi ilə əlaqələnir.

Onun qərb tərəfindən asfalt yol keçir.

Nekropolda müxtəlif dövrlərə aid qəbirlər vardır. Qəbirlərin üzərində baş daşları qalmayıb. Bir qədər qədim dövrlərə aid qəbirlərin əksəriyyəti dağıdılıb. Qəbirlər qiblə istiqamətindədir. Sinə daşları dördkünc və uzunsov formalı olub, olduqca kobud hazırlanmışdır. Bəzi sinə daşları yastıdır. Qəbirlərin üzərində heç bir işarə, yaxud yazıya



**Şəkil 82.** *Daş qoç heykəllər. Qazançı kəndi*

təsadüf edilmir. Yalnız iki qəbirin üzərində həndəsi xətlərin olduğu müəyyən edildi. Orta əsrlərə aid sinə daşlarının üzəri qalın mamır qatı ilə örtülüb. Yerli əhalinin verdiyi məlumata görə, əvvəllər qəbiristanlıqda xeyli qoç daşlar olub. Hazırda onlardan yalnız biri qalmış, qalanları isə qırılıb dağıdılmışdır. II Qazançı nekropolundakı qəbirləri XIV-XVIII əsrlərə aid etmək olar.

## Əbrəqunus nekropolları

I Əbrəqunus nekropolu eyni adlı kəndin qərbində, Ərəfsə-Naxçıvan yolunun sağ tərəfində, uzunsov təpənin üzərində yerləşir. Abidə ətraf yerlərə nisbətən hündürdə olub, hər tərəfdən əkin sahələri ilə əhatələnmişdir. Nekropolun şimal-şərqindən torpaq yol keçir. Sahəsi təxminən 3200 kvadratmetrdir.

Nekropoldakı qəbirlər müxtəlif dövrlərə aiddir. Onlar təpənin üzərini tamamilə əhatə edir. Şərq-qərb istiqamətində olan qəbirlərin baş daşıları qalmamışdır. Sinə daşlarının əksəriyyəti dördüzlü prizma formasında olmaqla, olduqca kobud hazırlanmış və üzərləri mamırla örtülmüşdür. Bəzi sinə daşlarının yuxarı hissəsi tağvari formada tamamlanır. Sinə daşlarının içərisində həndəsi və memarlıq ornamentləri ilə naxışlananlar da var. Onlardan birinin üzərində süjetli təsvir həkk olunub. Rəsmlər sxematik quş, ucları dəyirmiləşdirilmiş həndəsi xətlər, insan və ağac təsvirlərindən ibarətdir. Təsvir oyma naxışla haşiyələnib. Qəbiristanlıqdan forma verməyən, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz qab parçaları aşkar edildi. Burada müasir qəbirlərə də təsadüf olunur. I Əbrəqunus nekropolunu XIV-XVII əsrlərə aid etmək olar.

II Əbrəqunus nekropolu birincidən bir qədər aralıda, Ərəfsə-Naxçıvan avtomobil yolunun sağ tərəfində, nalşəkilli formada uzanan kiçik təpənin üzərində yerləşir. Hər tərəfdən əkin sahələri ilə əhatə olunan abidənin tutduğu sahə təxminən 5600 kvadratmetrdir. Onun şərq tərəfindən asfalt yol keçir. Burada 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Nekropoldakı qəbirlər əsasən qiblə istiqamətindədir. Onların baş daşları qalmayıb. Sinə daşları düzbucaqlı prizma formasında kobud hazırlanıb. Sinə daşlarından birinin üst hissəsi tağvari formada tamamlanır. Daşların əsas hissəsi qırılıb, dağıdılıb. Bir qırığın üzərində insan təsviri vardır. Bəzi sinə daşlarının yan tərəfində həndəsi və səkkizguşəli gül təsvirləri verilib. Qəbirlərin bir neçəsinin yeri qazılmış, sinə daşları qırılmışdır. Məlumata görə, vaxtilə nekropolda xeyli qoç daşlar olmuşdur.

Aparılan tədqiqatlar zamanı yerüstü materiallara təsadüf olundu. Onlar Son Orta əsrlərə aid şirli və şirsiz saxsı qab parçalarından və yüksək keyfiyyətli fayans hissələrindən ibarətdir. Nekropolda iki müasir qəbirə təsadüf edildi. Bütövlükdə nekropolda olan Orta əsr qəbirləri XIV-XVII əsrlərə aid etmək olar.

III Əbrəqunus nekropolu eyni adlı çayın sol sahilində, kəndin cənub-qərbində yerləşir. Nekropol hər tərəfdən yaşayış binaları ilə əhatə olunmaqla, cənub-qərbdə dərin yarğandan axan Əbrəqunus çayı ilə sərhədlənir. Nekropol asfalt yolla iki hissəyə ayrılıb. Sahəsi təxminən 1800 kvadratmetrdir. 1991-ci ildə burada kəşfiyyat xarakterli tədqiqatlar aparıldı. Onun yerləşdiyi ərazi əsasən düzənlikdən ibarət olsa da, bəzi yerlərdə kiçik təpələr də vardır. Hazırda nekropolun izləri itmək üzrədir. Qəbirlərin baş daşları qalmayıb, sinə daşları isə yerindən tərpədilib. Sinə daşları olduqca kobud hazırlanıb. Bəzi qəbirlərin üzərinə yonulmamış dördkünc daşlar qoyulub. Qəbirlər əsasən qərb-şərq istiqamətindədir. Daşlar üzərində heç bir yazıya, yaxud işarəyə təsadüf olunmur. Yalnız bir neçə qəbir daşının üzərində kiçik həndəsi xətlər cızılmışdır. Nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

## I Ərəzin nekropolu

I Ərəzin nekropolu yaşayış yerindən şimalda, dərənin yamacında yerləşir. Müsəlman qəbirlərindən ibarət olan qəbiristanlıq torpağın aşınması nəticəsində tamamilə dağılıb. Torpaqda qazılmış qəbirlərin üzəri yaşıl rəngli yastı sal daşlarla örtülmüşdür. Qəbirlərin birinin üstünün düzəldilməsində rəngli kaşılardan istifadə edilmişdir. Kaşıların dağılmış qalıqlarına əsasən demək olar ki, onlar kvadrat formalı blok halında yığılaraq istifadə edilmişdir.

I Ərəzin nekropolunu arxeoloji materiallara əsasən XV-XIX əsrlərə aid etmək olar.

## II Ərəzin nekropolu

Ərəzin nekropolu eyni adlı kənddən şimal-şərqdə, Ərəzin-Camaldın asfalt yolunun sol tərəfində, hündür təpənin üzərində yerləşir. Onun yerləşdiyi təpə ətraf yerlərə nisbətən hündürdədir. Təpə şimala doğru uzanır və ümumi dağ silsiləsi ilə əlaqələnir. Cənub və cənub-qərb tərəflərdən düzənliklərlə əhatə olunub.

Nekropolda 1991-ci ildə müəlliflər kəşfiyyat xarakterli tədqiqat işləri aparmışlar. Nekropol hazırda itmək üzrədir. Buradakı qəbirlərin üzü şərq-qərb istiqamətinədir. Onların üzərinə dördkünc formalı yonulmamış sal daşlar qoyulub. Qəbirlərin baş daşıları qalmayıb. Bəzi qəbirlər qazılıb dağıdılıb. Nekropolun ərazisində Son Orta əsrlərə aid şirsiz saxsı məmulatlarına təsadüf edilir.

Nekropolu təqribən XVI-XVIII əsrlərə aid etmək olar.

## Zərişdərə nekropolu

Zərişdərə nekropolu yaşayış yerindən qərbdə, hündür təpənin üzərində və eyni zamanda dağ silsiləsinin çaya tərəf uzanan yamacında salınıb. 1990-1991-ci illərdə nekropolun ərazisində kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Buradakı qəbirlərin hamısı şərq-qərb istiqamətindədir. Onların baş daşları qərb tərəfdədir. Qəbirlərin çoxunun baş daşı düşmüş, üzəri isə kiçik həcmli daşlarla örtülmüşdür. Bəzilərinin üzərinə iri sal daşlar qoyulub. Əksəriyyəti batmış və hazırda itmək üzrədir. Bəzi qəbir daşlarının üzərində oxunması mümkün olmayan ərəb əlifbası ilə yazılmış kitabələr var.

Nekropolu təqribən XVI-XVIII əsrlərə aid etmək olar.

## Kırna nekropolları

I Kırna nekropolu eyni adlı kənddən şimalda yerləşir. Nekropol hündür təpəni və onun yamaclarını əhatə edir. Abidə qərb tərəfdə Əlincəçay, cənubda torpaq yol, şimal-şərqdə isə dərin dərə ilə sərhədlənir. Burada tərəfimizdən 1985-1991-ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldan hazırda da yerli əhali qəbiristanlıq kimi istifadə edir. Orta əsrlər və müasir dövrün qəbirləri bir-birinə qarışıb. Qədim qəbirlərin baş daşları qalmayıb. Sinə daşlarının isə bir çoxu yerindən tərpədilərək çevrilib. Sinə daşları müxtəlif formalıdır. Onlar əsasən düzbucaqlı və prizmaşəkilli olub, bəzən yuxarıda tağvari formada tamamlanır. Bir neçə qəbirin baş tərəfində tağşəkilli oyuqlar açılıb. Bəzi qəbirlərin üzərində quş və haça təsvirləri vardır. Onların üzərində yazıya təsadüf edilmir.

Tək-tək qəbirlərin üzərinə nəhəng qoç daşlar qoyulub. Qoçların bir neçəsi düzbucaqlı altlıq üzərində yonulub. Qoçların hamısı yüksək ustalıqla işlənmişdir. Onların baş tərəfi spiralşəkilli buynuzları olan oval çıxıntı ilə tamamlanır.

I Kırna nekropolundakı qəbirlərin bir qrupu iri daşlarla əhatə olunmuşdur. Daş





**Şəkil 83.** *Kırna nekropolu*

düzmələr əsasən düzbucaqlı planlıdır. Lakin onların çoxusu hazırda dağıdılaraq məhv edilmişdir.

Nekropolun mərkəzində çiy kərpiclərdən hörülmüş türbənin qalıqları vardır. Bu tikinti düzbucaqlı planda olub 5 x 5 metr ölçüdə, 25 kvadratmetr sahəni əhatə edir. Tikilinin hər divarında eni 1 metr olan giriş qapısı vardır. Türbə hündürlüyü 0,6 - 0,75 metr olan daş özül üzərində qurulmuşdur. Divarların eni 0,66 metrdir.

Qəbirüstü abidələrin tədqiqinə əsasən belə hesab etmək olar ki, nekropolun qədim hissəsi XIV-XVIII əsrlərə aiddir. Lakin ondan sonrakı dövrlərdə də istifadə edilmişdir.

II Kırna nekropolu isə Kırna kəndindən şərqdə yerləşir. Nekropol düzənlik sahədə salınsa da, şimal-şərq və cənubdan hündür dağlarla əhatə olunub. Qərb tərəfdə onun yaxınlığından torpaq yol keçir. Nekropolda 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır.

Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada xeyli qoç-daş olmuşdur. Elə ona görə də nekropol xalq arasında bəzən "qoçluq" da adlandırılır. Lakin onların əksəriyyəti aparılmışdır. Hazırda nekropolda bir tərəfi sındırılmış üç ədəd qoç-daş qalıb. Qoç-daşlar boz, yaxud qəhvəyi rəngli daşdan yonulub. Onların biri düzbucaqlı formada hazırlanıb. Araşdırmalar əsasında müəyyən olundu ki, qoç daşların hazırlanmasında, kəndin yaxınlığındakı "Səfər evləri" adlanan daş karxanasından istifadə edilmişdir. Nekropolu təqribən XIV-XVI əsrlərə aid etmək olar.

## Göydərə nekropolu

Göydərə nekropolu Culfa rayonunun eyni adlı kəndindən şimal-qərbdə, hündür dağ yamacında yerləşir. Nekropol qərbdə dərə, şimalda dağ silsiləsi, şərqdə və cənubda Göydərə kəndi ilə əhatələnir. Yaşayış yerində 1990-1991–ci illərdə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Buradakı qəbirlərin hamısı qərb-şərq istiqamətindədir. Onların baş daşları qalmayıb. Sinə daşları dördkünc, prizmatik formadadır. Burada, həmçinin qoç daşlara və sənduqələrə təsadüf olunur. Sənduqələrin bir qismi düzbucaqlı formada hazırlanaraq, yuxarıda tağvari şəkildə tamamlanır. Bəzi qəbirlərin üzərində ərəb əlifbası ilə kitabələrə təsadüf edilir. Qəbirlərdən birinin yan tərəfində Azərbaycanın orta əsr təsviri sənəti üçün xarakterik olan tüfəng və qılınc təsvir edilib. Qoç daşlar yüksək sənətkarlıqla hazırlanıb. Onlardan birinin üzərində ox işarəsi vardır. Oxun o biri ucu oval dairə ilə tamamlanır.

Göydərə nekropolunu XIII-XVII əsrlərə aid etmək olar.

## Saltaq nekropolları və sərdabəsi

I Saltaq nekropolu Əlincəçayın sol sahilində, yaşayış yerinin qərbində, hündür təpə üzərində yerləşir. Qərbdən Əlincəçayın sıldırım sahili, cənub və şimalda isə dərin

dərə ilə məhdudlaşır. Abidə şərqdə ensiz zolaq vasitəsilə yaşayış yeri ilə əlaqələnir. Nekropolda 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Qəbirlərin bir çoxu ərazidə təsərrüfat işləri görülərkən dağıdılıb. Onların heç birinin baş daşı yoxdur. Sinə daşları düzbucaqlı prizma formasındadır. Bəziləri yuxarıda tağvari forma ilə tamamlanır. Onların uzunluğu 1,45-1,55 metr, hündürlüyü 0,6 metr, eni 0,4 metrdir. Sinə daşlarından birinin üzərində böyük ox işarəsi vardır. I Saltaq nekropolunu XIV-XVI əsrlərə aid etmək olar.

II Saltaq nekropolu Əlincəçayın sağ sahilində, Saltaq kəndinin şimal-qərbində yerləşir. Nekropol asfalt yolla iki hissəyə bölünüb. Abidə şərqdən su kanalı, şimaldan dağ silsiləsi ilə məhdudlaşır.

Nekropolun asfalt yoldan aşağıda qalan hissəsi tamamilə dağıdılıb. Burada yalnız bir neçə ədəd sinə daşı qalıb. Onlar düzbucaqlı prizma şəklində olmaqla, kobud formada yonulmuşdur. Daşların üzərində heç bir işarəyə yaxud yazıya təsadüf olunmur. Qəbiristanlığın ikinci yarısından hazırda da yerli əhali tərəfindən istifadə edilir. Buradakı qəbirlərin çoxunun yerüstü əlaməti itib. II Saltaq nekropolu XIV-XVI əsrlərə aiddir.

Saltaq sərdabəsi qəbiristanlığın mərkəzində yerləşir. Daşdan tikilmiş bu abidə diqqəti cəlb edir. O üstəgələk formasında olub, kiçik həcmli daşlardan tərkibinə əhəng məhlulu qatılmış gəclə tikilmişdir. Sərdabənin tavanı tağvari formada tamamlanır. Onun girişi xaricə doğru çıxıntılıdır. Qapının tikintisində bişmiş kərpicdən də istifadə edilib. Bişmiş kərpiclərin ölçüləri 23 x 23 x 5 və 20 x 10 x 5 santimetrdir. Sərdabənin içərisi gəclə suvanıb. Bəzi yerlərdə suvaq uçub tökülmüşdür. Onun içərisində taxta tabut və insan skeletinin qalıqları vardır. Tabutun taxtaları əldə düzəldilmiş dördkünc, yastı mismarlarla bərkidilib. Lakin taxtaların üzərində müasir mismarlara da təsadüf olunur ki, bu da onların nə zamansa bərpa edildiyini göstərir. Ola bilsin ki, sərdabənin giriş qapısının tikintisində istifadə edilən bişmiş kərpiclər də onun sonrakı dövrlərdə bərpası ilə əlaqədar olmuşdur. Saltaq sərdabəsi XVI əsrə aiddir.

## Xanəgah nekropolları

I Xanəgah nekropolu eyni adlı yaşayış yerinin şimal-şərqində, memarlıq kompleksinin ətrafında yerləşir. Nekropol vaxtilə epiqraflar M.Nemətova və F.Səfərov tərəfindən tədqiq edilmiş və burada olan kitabələr oxunmuşdur. 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu nekropolda kəşfiyyat xarakterli tədqiqat işləri aparmışdır.

Abidə memarlıq kompleksinin ətrafına çəkilən daş divarla iki hissəyə bölünmüş və divarın içərisində olan qəbirlər demək olar ki, dağıdılmışdır. Hazırda qəbirlərin əksəriyyəti itmək üzrədir. Onların çoxunu yalnız baş daşlarına görə seçmək mümkündür. Baş daşlarının bəzilərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Vaxtilə nekropolda olan bir neçə qəbrin üzərində mərmərin xüsusi növündən-oniksdən yüksək sənətkarlıqla hazırlanmış sinə daşları olmuşdur. Sinə daşlarının bəzisi Xanəgahda, digərləri isə Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.



**Şəkil 84.** *Xanəgah nekropolu*

Nekropolun qərb tərəfində orta əsrlərə aid bir sərdabənin qalıqları vardır. Sərdabə planda düzbucaqlı formada olub daşdan tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış gəc məhlulundan istifadə edilib. İçərisi gəclə suvanıb. Sərdabənin yuxarı hissəsi tağvari şəkildə tamamlanır. Onun uzunluğu 3,5, eni 2,85 metr, hündürlüyü 2 metrdir. I Xanəgah nekropolunu XII-XVI əsrlərə aid etmək olar.

II Xanəgah nekropolu Şeyx Xorasan memarlıq kompleksinin cənubunda, hündür təpənin yamacında yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itib. Bəzilərinin ətrafında dördkünc formalı daş düzümlərinə rast gəlinir. Bir neçə qəbirin üzərinə qoç daş və ya dördkünc formalı sinə daşı qoyulub. Qəbir daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Təəssüf ki, qəbiristanlıqdakı qoç daşların hamısı sındırılıb. Nekropolun ərazisində torpaq yolun alt tərəfində bişmiş kərpicdən tikilmiş türbənin sərdabəsinə aid qalıqlar vardır.

Qəbiristanlığın ərazisindən çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələri aşkar edildi. Qəbirüstü abidələr və aşkar edilən keramika nümunələrinə əsasən nekropolu IX-XVII əsrlərə aid etmək olar.

## Xanağa nekropolu

Xanağa nekropolu Əlincəçayın sağ sahilində, Xanəgah kəndindən qərbdə yerləşir. Hazırda onun ərazisi əkin sahəsinə çevrilib. Burada 1991-ci ildə Azərbaycan EA

Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropolun yerləşdiyi sahə Əlincəqalanın cənub tərəfindədir. Nekropolda olan qəbirlərin əksəriyyətinin baş daşları düşmüşdür. Sinə daşları düzbucaqlı əsas üzərində hazırlanmaqla, yuxarıda tağvari sonluqla tamamlanır. Vaxtilə burada xeyli qoç-daşlar olmuşdur. Hazırda onların yalnız bir neçəsi qalmışdır. Bəzi qəbirlərin üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır.

Xanağa nekropolunu XIV-XVII əsrlərə aid etmək olar.

## Sürəməlik qəbir abidələri

Sürəməlik nekropolu eyni adlı yaşayış yerinin qərb tərəfində, hündür təpənin üzərində yerləşir. Qəbiristanlığın yerləşdiyi sahə düzənlikdir. Nekropoldakı qəbirlər qərb-şərq istiqamətində olub, qibləyə doğru yönəldilib. Qəbirlərin ətrafı dördkünc formada daşlarla əhatə olunub. Bəzi qəbirlərin ətrafı kromlexlərlə əhatələnmiş, bəzilərinin isə üzəri tamamilə daşla qapadılmışdır. Bu tip qəbir formaları Orta əsrlər üçün xarakterikdir.

Nekropolun ərazisində şirsiz, bəzən isə şirli saxsı məmulatına rast gəlinir. Arxeoloji tapıntılara və qəbir tiplərinə əsasən nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

Sürəməlik kromlexi nekropolun şimal tərəfində yerləşir. Qəbirin ətrafı boz rəngli daşlarla dairəvi formada əhatələnib. Kromlexin diametri 5 metrdir. Kromlex daşlarının bəzisi içəriyə, bəzisi isə xaricə doğru aşıb. Naxçıvanın Orta əsr nekropollarında bu tip qəbirlərə xeyli rast gəlinir. Kromlexin nekropolla eyni dövrə aid olduğunu demək olar. Sürəməlik kromlexini arxeoloji materiallara və qəbir tiplərinə əsasən XVII-XVIII əsrlərə aid etmək olar.

Sürəməlik qəbiristanlığı eyni adlı nekropolun yaxınlığında, düzənlik sahədə yerləşir. Nekropoldan fərqli olaraq qəbirlərin baş daşları qalmışdır. Qəbirlər qərb-şərq istiqamətində olub, qibləyə doğru yönəldilib. Bəzi qəbirlərin yanlarına çay daşları düzülmüş, bəzilərinin isə üzəri tamamilə daşlarla örtülmüşdür. Qəbir daşları üzərində yazıya təsadüf olunmur. Bu tip qəbir abidələrinə Naxçıvanın digər Orta əsr qəbiristanlıqlarında da rast gəlinir. Qəbiristanlıqdan Son Orta əsrlərə aid çəhrayı rəngli şirsiz keramika parçaları toplandı.

Qəbiristanlığı qəbir tiplərinə və aşkar olunmuş arxeoloji materiallara əsasən XVI-XIX əsrlərə aid etmək olar.

## Ləkətağ nekropolu

Ləkətağ nekropolu eyni adlı kənddən şimal-qərbdə, hündür təpənin yamacında yerləşir. Qəbirlər qiblə tərəfə istiqamətlənib. Onların bir çoxunun baş daşları qalmamış, bəzilərinin yerüstü əlamətləri tamamilə itmişdir. Lakin ayrı-ayrı qəbirlərin üzərində baş daşlarına rast gəlinir. Onlardan ikisi ağ rəngli su mərmərindən hazırlanıb. Baş

daşlarının üzərində ərəb əlifbası ilə yazı vardır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda qoç daşlar və daş sənduqələr olmuşdur. Hazırda nekropolun yerüstü əlamətləri itmək üzrədir.

Qəbir tiplərinə və aşkar olunan epiqrafik abidələrə əsasən nekropolu XI-XIX əsrlərə aid etmək olar.

## Köhnə Külüs nekropolu

Köhnə Külüs nekropolu eyni adlı yaşayış yerinin şimal-şərqində yerləşir. Nekropolun yerləşdiyi ərazi sarı rəngli, quru təpələrdən ibarətdir. Buradakı qəbirlərin bir çoxu qazılıb dağıdılmışdır. Bəzi qəbirlərin üzərində dördkünc formalı sənduqə tipli sinə daşları olmuşdur. Qəbir daşlarında yazıya rast gəlinmədi. Müsəlman qəbirlərindən ibarət olan nekropol yaxınlıqdakı yaşayış yeri ilə həmdövrdür.

Abidəni XIV-XIX əsrlərə aid etmək olar.

## Qızılca qəbiristanlığı

Qızılca qəbiristanlığı Qızılca kəndinin cənub tərəfində, uzunsov, aypaраşəkilli təpənin üzərində və ətəyində yerləşir. Qəbirlərin bir çoxunun baş daşları qalmasa da, onların əksəriyyətinin nişangah daşları vardır. Onların ətrafına, bəzən isə üstünə başdan-başa çay daşları düzülüb. Baş daşlarının üzərində ərəb qrafikası ilə yazılmış kitabələr vardır.

Nekropolun ərazisində Son Orta əsrlərə aid müxtəlif tipli keramika parçalarına rast gəlinməsi qəbiristanlıqda müsəlman adətinə uyğun müəyyən mərasimlərin keçirildiyini göstərir. Qəbiristanlığı XV-XX əsrlərə aid etmək olar.

## Şurut nekropolu

Şurut nekropolu Şurut kəndindən cənub-qərbdə, təpənin yamacında yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropolun ərazisi aşınma nəticəsində dağılıb. Bəzi qəbirlərin baş daşları qalır. Digərləri yoxdur. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda qoç daşlar olub. Hazırda nekropolda olan qəbirlərin ətrafında daş düzümlərinə rast gəlinir. Nekropolun ərazisində tədqiqat apararkən Son Orta əsrlərə aid şirsiz saxsı məmulatına rast gəldik.

Aşkar edilmiş arxeoloji materiallara və qəbirüstü daşların tiplərinə görə Şurut nekropolunu XIV-XVIII əsrlərə aid etmək olar.

## Dərəşam nekropolu

Gülüstan kəndi yaxınlığında, Dərəşam dəmiryol stansiyasından şərqdə, eyni adlı mağaradan bir qədər aralıda dağın üstündə salınmışdır. Qəbirlərin ətrafı qaya parçaları və çay daşları ilə əhatə olunmuş, bəzi qəbirlərin üzərində daş yığınları

toplanmşdır. Qəbirlərdən birinin üzərində astral təsvirlərə rast gəlinir. Aşkar olunan keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Nekropolu XVII- XIX əsrlərə aid etmək olar.

## Yaycı qəbiristanlığı

Yaycı qəbiristanlığı eyni adlı kənddən qərbdə, düzənlik sahədə yerləşir. Qəbiristanlıqdan bu gün də istifadə edilir. Buradakı müsəlman qəbirlərinin əksəriyyətinin üstü dördkünc formada çay daşları ilə örtülüb. Bəzi qəbirlərin ətrafı iri qaya parçaları ilə əhatələnib. Qəbiristanlığın ərazisində son Orta əsrlərə aid şirsiz keramika parçalarına rast gəlinir. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə bəzi qəbirlərin üzərində qoç daşlar olmuşdur. Yaycı qəbiristanlığını XVI-XX əsrlərə aid etmək olar.

## Ərəfsə nekropolu

Ərəfsə nekropolu eyni adlı kəndin qərb tərəfində, təpənin ətəyində yerləşir. Qəbirlər qiblə istiqamətində yönəldiyindən, onların müsəlman qəbirləri olması heç bir şübhə doğurmur. Onlardan bəzisinin üzərində ərəb əlifbası ilə yazıya təsadüf olunur. Qəbirlərin əksəriyyətinin baş daşları saxlanmışdır. Onların ətrafı çay daşları, bir çox hallarda çaxmaqdaşı ilə əhatələnib. Qəbirlərdən birinin baş daşı insan fiquruna bənzədilib.



**Şəkil 85.** *Daş qoç. Ərəfsə nekropolu*



**Şəkil 86.** *Daş balbal. Ərəfsə nekropolu*

Qəbiristanlıqda Son Orta əsrlərə aid keramika nümunələrinə rast gəlinir. Onlar çəhrayı və sarı rəngdə yaxşı bişirilmiş şirsiz qabların parçalarından ibarətdir. Nekropolu XI-XVIII əsrlərə aid etmək olar.

## Qızılqaya nekropolu

Qızılqaya nekropolu Yaycı kəndinin qərbində, dağların arasında, dəmiryol xəttinin yaxınlığında, dağın yamacında yerləşir. Onlar bir-birindən xeyli aralıda olan torpaq qəbirlərdən ibarətdir. Ətrafı çay daşları ilə əhatələnən qəbirlərin bir neçəsi qazılaraq dağıdılıb. Nekropolun ərazisindən Son Orta əsrlər üçün xarakterik olan çəhrayı rəngdə bişirilmiş şirsiz keramika parçaları tapılmışdır. Nekropolun maldarlıqla məşğul olan türkdilli yaycı tayfalarına mənsub olması heç bir şübhə doğurmur.

## Bənəniyar nekropolu

Bənəniyar nekropolu eyni adlı kəndin qərbində, asfalt yolun kənarında yerləşir. Nekropolun bir hissəsindən hazırda istifadə edilməsinə baxmayaraq, onun cənub hissəsində Son Orta əsrlərə aid qəbirüstü daşlara rast gəlinir. Qəbirüstü daşlar sənduqə tiplidir. Onların bəzisinin yuxarı hissəsi tağvari formada yonulub. Sənduqələrin bir çoxu aşınma nəticəsində dağılmış, bəziləri isə torpağın altında qalmışdır. Tədqiqat zamanı qəbir daşlarının bir neçəsində ərəb əlifbasında yazıya rast gəldik. Lakin yazılar oxunmaz haldadır.

Aşkar olunan sənduqə tipli sinə daşlarının son Orta əsrlər üçün xarakterik olmasını nəzərə alaraq, nekropolu XVI-XIX əsrlərə aid etmək olar.



**Şəkil 87.** *Bənəniyar nekropolu*

## Koreymər nekropolu

Nekropol Koreymər kahalarının yaxınlığında yerləşir.Bəzi qəbirlərin baş daşları üzərində ərəb qrafikası ilə yazılar var. Nekropol XVIII-XIX əsrlərə aid edilə bilər.



**Şəkil 88.** *Koreymər nekropolu*

## Xoşkeşin nekropolları və kromlexi

I Xoşkeşin nekropolu Köhnə Xoşkeşin kəndinin şərqində, təpənin üzərində yerləşir. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Bəzi qəbirlərin baş daşları, bəzilərinin isə sənduqə tipli sinə daşları qalmışdır. Sinə daşlarının biri oyma, tağşəkilli ornamentlə, digəri isə qabartma rəsmlərlə naxışlanıb. Qəbirlərin ətrafına çay daşları düzülmüş, bəzilərinin üzərində isə daş yığınları toplanmışdır. Nekropolun ərazisində şirli və şirsiz saxsı qabların parçalarına da rast gəlinir. Aşkar olunmuş arxeoloji materiallar XI-XVII əsrlərə aiddir.

II Xoşkeşin nekropolu birincidən bir qədər aralıda yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlərin izləri tamamilə itmişdir. Onlardan yalnız bəzisinin baş daşları qalıb. Bəzi qəbirlərin üzərində daş yığınlarına rast gəlinir. Nekropolu XVII-XIX əsrlərə aid etmək olar.



**Şəkil 89.** *Xoşkeşin qəbiristanlığı*

III Xoşkeşin nekropolu Köhnə Xoşkeşin yaşayış yerinin cənub-qərbində yerləşir. Qəbirlərin izləri itmək üzrədir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlərin ətrafı çay daşları ilə əhatələnmiş, bəzisinin isə üzəri tamamilə daşla örtülmüşdür. Qədim türk tayfaları üçün xarakterik olan bu adət indiyədək Naxçıvanın kəndlərində qalmaqdadır. Nekropolu XVIII-XIX əsrlərə aid etmək olar.

IV Xoşkeşin nekropolu yaşayış yerinin qərbində, təpənin üzərində yerləşir. Nekropol qiblə istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Onların ətrafı dördkünc formada qaya parçaları və çay daşları ilə əhatələnib. Bəzi qəbirlərin üzərində daş yığınları vardır. Nekropolu XIII-XVIII əsrlərə aid etmək olar.

Xoşkeşin kromlexi III Xoşkeşin nekropolunun ərazisində qeydə alınıb. İri daşlardan qurulmuş kromlexin diametri 8 metrdir. Onun içərisi müxtəlif həcmli daşlarla doldurulub. Bu tip kromlexlər başlıca olaraq, Tunc dövrü üçün xarakterikdir. Kromlexi e.ə. III minilliyə aid etmək olar.

## Gülnəzər nekropolu

Gülnəzər nekropolu yaşayış yerinin şərqində, hündür təpənin üzərində yerləşir. Nekropolun şimal tərəfində olan tikinti qalıqları vaxtilə burada yaşayış binalarının olduğunu göstərir. Nekropoldakı qəbirlər qiblə istiqamətindədir. Qəbirlərin əksəriyyətinin baş daşı yıxılmışdır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada da qoç daşlar olmuşdur. Hazırda isə onların heç biri qalmayıb.

Nekropolu yaşayış yeri ilə eyni dövrə – XIV-XX əsrlərə aid etmək olar.



**Şəkil 90.** *Gülnəzər nekropolu*

## Anzır nekropolları

Baş Anzır nekropolu eyni adlı kəndin qərb qurtaracağında, çökək bir sahədə yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlər itmək üzrədir. Bəzi qəbirlərin baş daşları qalmışdır. Onlardan bəzisinin ətrafı kiçik daşlarla əhatələnmiş, bəzisinin isə üzərini daş yığınları ilə örtülmüşdür.

Orta Anzır nekropolu kənddən xeyli aralıda, yolun kənarında salınmışdır. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin əksəriyyətinin baş daşı düşmüşdür. Bəzi qəbirlərin baş və ayaq tərəfində baş daşlarına rast gəlinir.

Aşağı Anzır nekropolu eyni adlı kəndin xarabalıqlarından şimalda, təpənin yamacında yerləşir. Qəbirlərin əksəriyyəti itmişdir. Baş daşları olduqca az qalmışdır. Onlar qəbirlərin baş tərəfinə sancılmış adi daş parçalarından ibarətdir. Bəzi qəbirlərin üzərində sənduqə tipli sinə daşları vardır. Qəbir daşları üzərində kitabələrə rast gəlinmir. Hər üç nekropolu XVII-XX əsrlərə aid etmək olar.

## Paradaş nekropolu

Paradaş nekropolu kəndin şərqində, uzunsov təpənin üzərində yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropol tamamilə dağılmış, qəbirlərin baş daşları yıxılmışdır. Kənd sakinlərinin məlumatına görə, vaxtilə nekropolda qoç daşlar olmuşdur. Lakin hazırda onların heç biri qalmayıb. Nekropolu yaşayış yeri ilə eyni dövrə - XIV-XX əsrlərə aid etmək olar.



**Şəkil 91.** *Paradaş nekropolu*

## QALALAR

Culfa rayonunun ərazisində qədim və Orta əsrlər dövrlərinə aid möhtəşəm qalalar vardır. Onların sırasına Qazançıqala, Nəhəcirqala, Əlincəqala, Göynükqala, Qırxlarqala və b. aid etmək olar. Bu qalaların hər biri Azərbaycan xalqının tarixində mühüm yer tutan, qeyrət və mərdlik simvolu olmuşdur.

### Qazançıqala

Qazançıqala Culfa rayonunun eyni adlı kəndindən şimalda, Əlincəçayın hər iki sahilində yerləşir. Qalanın sağsahil və solsahil hissəsi sıldırım qayalardan ibarət dərin dərə ilə bir-birindən ayrılır.

Qalada Azərbaycan EA Tarix İnstitutunun əməkdaşları və 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası kəşfiyyat xarakterli tədqiqatlar aparmışdır. Nəticədə qalanın hər iki hissəsinin planı meydana çıxmışdır. Tədqiqatlar zamanı aşkar olunmuş materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdir. Abidənin sahəsi 5,6 hektardır.

Qalanın sağ sahil hissəsi konusvari təpə formasındadır. O şərqdə sıldırım qayalarla məhdudlaşır. Onun şimal və cənub-qərb tərəfi maili olduğu üçün bu istiqamətlərdən qalaya qalxmaq mümkündür. Vaxtilə təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala olmuşdur. Lakin hazırda bu qaladan əsər-əlamət



**Şəkil 92.** *Qazançıqala*





**Şəkil 93.** *Qazançıqala*



qalmayıb. Qazançı gölü tikilərkən abidənin bu hissəsi partladılaraq, yerlə yeksan olunub. Hazırda abidənin cənub və şimal-qərb hissəsində iri daşlardan tikilmiş divarların qalıqları qalır. Burada mədəni təbəqənin qalınlığı 0,5 metrdən 1,5 metrə qədərdir. Mədəni təbəqə dağıdıldığından gil qab qırıqlarına tez-tez təsadüf olunur. Yerüstü materiallar dən daşlarından, çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Yerüstü materialların böyük bir qismini boyalı qablar təşkil edir.



Abidənin solsahil hissəsi sağsahilə nisbətən xeyli böyükdür. Solsahil qalası iki hissədən ibarət olub, hər tərəfdən sıldırım qayalıqlarla əhatələnib. Qalanın birinci hissəsi ikincidən çox da dərin olmayan dərə boyunca çəkilmiş iki qat divarla ayrılır. Bu hissədə qalanın şərq tərəfində yarımdairəvi formada tikilmiş bürclərin qalıqları vardır. Bürclərin biri daş divarla iki yerə bölünüb.



**Şəkil 94.** *Qazançıqala*





**Şəkil 95.** *Qazançıqala*

Qalanın təbii cəhətdən əlçatmaz mövqedə yerləşməsinə baxmayaraq, o hər tərəfdən iri daşlardan hörülmüş, divarlarla əhatə olunmuşdur. Divarların eni müxtəlifdir. Şimal və şimal-şərqdə qala təbii cəhətdən zəif müdafiə olunduğu üçün burada divarların eni 2,6-3 metrə çatır. Divarlar 1-2 metr hündürlüyədək qalmışdır.

Divarlar ərazinin relyefinə uyğun olaraq girintili-çıxıntılıdır. Tədqiqatlara əsasən demək olar ki, qala bəzi yerlərdə iki və üç cərgə divarla möhkəmləndirilmişdir. 1999-cu ildə burada aparılan araşdırmalar zamanı, onun mərkəzi hissəsində Narınqalanın olduğu müəyyən edilmişdir.

Qazançı qalasından toplanmış yerüstü materiallar çəhrayı və boz rəngli gil məmulatından ibarətdir. Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqları təşkil edir. Onların gilinə narın qum qatılaraq yaxşı bişirilib. Gil məmulatının bir qismini boyalı keramika təşkil edir. Onların üzəri boyalı anqobla örtülmüş, qara rənglə həndəsi motivdə naxışlanmışdır. Çəhrayı rəngli gil qab qırıqlarının birinin üzərində göbələkvari çıxıntısı vardır. Onun gilinə narın qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Xarici səthi uzunsov çərtmələrlə naxışlanıb. Çəhrayı rəngli gil məmulatının bir qrupu forma verməyən qırıqlardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanmaqla keyfiyyətli bişirilmiş, səthi qırmızı boya ilə örtülərək, qara rəngdə naxışlanmışdır. Naxışlar üfüqi, şaquli və çəpinə çəkilmiş xətlərdən ibarət olub, əsasən həndəsi xarakterdədir.

Boz rəngli gil məmulatı əsasən küpə tipli qabların qırıqlarından ibarətdir. Onlar formaca müxtəlifdir. Boz rəngli gil məmulatına forma verməyən qırıqlar da daxildir. Onların bir qismi narın qum qatılmış gildən hazırlanaraq, qara rəngdə bişirilmişdir. Üzəri batıq üfüqi zolaqlarla naxışlanmışdır.

Aşkar edilmiş arxeoloji materialların təhlili Qazançı qalanın e.ə. III-I minilliyə aid olduğunu göstərir.

## Göynük qalası

Göynük qalası eyni adlı kəndin şərqində, hündür təpənin üzərində yerləşir. Abidə S.H.Aşurov tərəfindən qeydə alınıb. Təpənin yuxarı hissəsi dördkünc formalı divarla əhatə olunub. Divarlar yanlarda iri qaya parçalarından hörülüb. Qalanın içərisində dördkünc formalı binanın qalıqları vardır.

AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının apardığı araşdırmalar zamanı buradan xeyli yerüstü material toplanmışdır. Başlıca olaraq, gil qabların parçalarından ibarət olan yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı keramika nümunələri də vardır.

Aşkar olunmuş arxeoloji materiallara əsasən Göynük qalasını e.ə. III-I minilliklərə aid etmək olar.



**Şəkil 96.** *Göynük qalası*

## Əlincəqala



**Şəkil 97.** *Əlincəqala*

Əlincəqala Culfa rayonunun Xanəgah kəndi yaxınlığında yerləşir. Qala Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Yazılı qaynaqlarda adı X yüzildən başlayaraq “Alıncaq”, “Alancıq”, “Əlincək” və “Əlincə” şəklində çəkilən qala Naxçıvan-Culfa yolunun kənarında, Əlincəçayın sağ sahilində yalçın dağ üzərində yerləşir. Bu adın qədim türk dilindəki “alan” (yastı, düzənlik, meydan) sözündən yarandığı ehtimal edilir.

Əlincəqalanın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı təqribən 2 min il bundan əvvələ aid edirlər. “Kitabi-Dədə Qorqud” dastanında Əlincəqala möhkəm istehkam kimi təsvir olunur. Orta əsr qaynaqlarında Əlincə adı qala, dağ, çay kimi nəzərdə tutulmuşdur. Əlincəqala haqqında tarixçilərdən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr),











**Şəkil 98.** *Əlincəqala (bərpadan əvvəl)*

türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumatlar vermişlər. Tikinti sənətinin xüsusiyyətlərinə görə Əlincəqala daha qədim dövrlərə aiddir.

Əlincə yüzillərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinə qulluq göstərsə də, tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamət və xəzinə yeri kimi tanınmış, dövrünün ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan böyük cahangir Əmir Teymuru belə möhkəmliyi ilə heyrətləndirmişdir.

Azərbaycan Atabəyləri–Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artaraq, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilir. Naxçıvan hakimi Zahidə xatunun iqamətgahı və Eldənizlərin xəzinəsi Əlincəqalada yerləşirdi.

Şəmsəddin Eldənizin hakimiyyət illərindən başlayaraq Atabəylər dövlətinin baş xəzinəsi Əlincəqalada saxlanmış, Əlincədəki saraylar və yardımçı binaların bir çoxu Azərbaycan Atabəylərinin sifarişi ilə ucaldılmışdır. Geniş düzənliyin ortasında yüksələn çılpaq, sıldırım dağa üç yandan dar "keçi cığırı" ilə qalxmaq olur. Bu cığırların zəif yerlərində divar və bürclərdən istehkamlar, səngərlər quraşdırılmışdır.

Qalanın içərisində, dağ belinin geniş terrasında müxtəlif funksiyalı çoxlu tikili qalıqları durur. Bunlar yaşayış evləri, təsərrüfat binalarıdır. Qalaya su kəməri çəkilişi mümkün olmadığından inşaatçılar ibtidai və min



**Şəkil 99.** *Əlincəqala*

illərin sınağından çıxmış üsula əl atmışlar: qayalarda açılmış şırımlar, arxcıqlar yağış suyunu axıdaraq su tutarlarına–qaya içində ovulmuş hovuzlara toplayırdı. Qalada bu cür hovuzların sayı iyirmi üçdür.

Dağın ən uca yerində Əlincənin iç qalası yerləşir. Bu içqalanı yerli əhali "Şahtaxtı" adlandırır. Mütəxəssislər Əlincəqalanın Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl əsərlərindən biri heasb edirlər.

11 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamından sonra Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA Naxçıvan Bölməsi abidənin elmi-bərpa layihəsini hazırlamışdır. Bundan sonra Əlincəqala bərpa edilmişdir.

## Nəhəcirqala

Nəhəcirqala eyni adlı kənddən şimal-qərbdə, Nəhəcir dağının üzərində, hündür təbii qayada salınmışdır. Qalaya qərb və şərq tərəfdən qalxmaq mümkündür. Araşdırmalar qalanın girişinin əsasən şərq tərəfdən olduğunu göstərir. Bu hissədə qorunmaq məqsədilə müdafiə istehkamı tikilmişdir. Müdafiə divarının qalıqları indi də qalır. Onun salamat qalan hissəsinin uzunluğu 45, eni 2,8 metrdir. Müdafiə divarı bəzi yerlərdə 1,8 metr hündürlükdə izlənilir. Divarlar orta həcmli qaya parçalarından inşa edilmişdir.

Qalanın qərb tərəfinə müdafiə səddi çəkilməmişdir. Ehtimal ki, onun yuxarısında yerləşən və bir-birinə söykənən daş tikintilər həm də müdafiə məqsədi daşımışdır. Qalanın üst hissəsindəki kiçik meydançada bir-birinə bitişik tək otaqlı, iki otaqlı və üç



**Şəkil 100.** *Nəhəcirqala*





**Şəkil 101.** *Nəhəcirqala*

otaqlı yaşayış evlərinin qalıqları qalır. Həmin tikintilər dağıntıya məruz qalıb. Yerli əhalinin məlumatına görə, Orta əsrlərdə və son dövrlərdə onlardan anbar kimi istifadə edilmişdir.

Bu kiçik meydançadan xeyli yuxarıda uzunluğu 11, eni 5 metr olan böyük tikinti qalığı vardır. Onun divarlarının eni 1 metrdir. Qismən dağıntıya məruz qalmış bu otaq iri qaya parçalarından tikilib. Onun tikintisində bərkidici məhlul kimi palçıqdan istifadə edilib. Divarlar 0,8-1 metr hündürlüyündədir.





Nəhəcirqaladakı otaqların içərisi zəngin bitki qatı ilə örtüldüyündən maddi-mədəniyyət qalıqlarını izləmək imkanı məhduddur. Lakin qalanın yuxarı-səki hissəsindən orta əsrlərə aid xeyli keramika topladıq. Keramika, başlıca olaraq, forma verməyən parçalardan ibarətdir. Qalanın üçüncü hissəsi qayaların keçilməz yerində salınmış və daş divarla əhatə olunmuşdur. Bu hissəsinə yalnız şimal tərəfdən qalxmaq mümkündür.



**Şəkil 102.** *Nəhəcirqala*

Nəhəcirqala Orta əsr qalaları üçün xarakterik xüsusiyyətlərə malik olsa da, bundan qədim dövrdə də müdafiə məqsədilə istifadə olunduğu güman olunur. Orta Tunc dövrünə aid Nəhəcir yaşayış yerinin əlverişli mövqedə salınması göstərir ki, bu dövrün tayfalarının müdafiəyə ehtiyacı olmuşdur. Qalanın yeri

strateji cəhətdən olduqca əlverişli olub, bu əraziyə daxil olan yolları nəzarətdə saxlamağa imkan verir.

Şübhəsiz ki, qaladan həm də gözətçi məntəqəsi kimi istifadə etmişlər. Nəhəcir dağının üstü geniş sahəni əhatə etdiyi və zəngin bitki örtüyünə malik olduğu üçün, yerli əhali tərəfindən otlaq yeri kimi də istifadə olunur. Qalaya kəndin qərbindəki bulağın üstündən qalxmaq mümkündür.

## Sücütqala

Sücütqala eyniadlı yaşayış yerinin yaxınlığında, Sücüt çayı ilə Qaranlıq dərənin qovşağında yerləşir. Qala sıldırım qayalarla əhatə olunmuş dağın zirvəsində yerləşir. Ehtimal ki, qaladan gözətçi məntəqəsi kimi istifadə olunmuşdur. Sücüt bağlarını qaladan nəzarət altında saxlamaq mümkündür. Qalanın mərkəzi hissəsində dördkünc formalı tikinti qalıqları vardır. Evlərin tikintisində daşdan və bişmiş kərpicdən istifadə olunmuşdur. Əhalinin verdiyi məlumata görə, qalanın yarımdairəvi formada tamamlanan mağzalları olmuşdur. Hazırda yaşayış yerinə səpələnən bir tərəfi qövsşəkilli olan bişmiş kərpiclər də bunu təsdiq edir. Yaşayış yerinin yaxınlığında, dərənin içərisində su dəyirmanı fəaliyyət göstərmişdir. Onun qalıqlarına indi də rast gəlinir. Qaladan aşkar olunan keramika məmulatı I-XIX əsrlərə aiddir.



**Şəkil 103.** *Sücüt qalasının pilləkəni*

## Berdiqala

Berdiqala Qazançı kəndindən cənub-şərqdə yerləşir. Qala təbii qayanın üzərindədir. O, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalanın yalnız şərq tərəfində müdafiə divarının qalıqlarına rast gəlinir. Onun mərkəzi hissəsində heyvan saxlamaq üçün kələk və dördkünc formalı yaşayış binalarının qalıqları vardır. Yaşayış binaları bir otaqlıdır. Axtarışlar zamanı Berdiqaladan Orta əsrlərə aid keramika məmulatı aşkar olundu. Qaladan I-XVIII əsrlərdə müdafiə istehkamı kimi istifadə edilmişdir.

## Qırxlarqala

Qırxlarqala Əlincəqalanın qərbində, Qazançı kəndinə gedən asfalt yolun sol tərəfində, üçbucaq formalı təpənin üzərində yerləşir. Abidə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Qala təpənin relyefinə uyğun olaraq üçbucaq formasında tikilmişdir. Qala divarlarının eni 1,65 metrdir. Divarlar sökülüb dağıdıldığından onların yalnız bünövrəsi qalır. Qalanın içərisində dördkünc formalı yaşayış evlərinin qalıqları vardır. Onlar orta həcmli qaya parçalarından tikilib. Qalanın sahəsi təxminən 136 min kvadratmetrdir.

Tədqiqat zamanı qalanın ərazisindən şirsiz və şirli keramika nümunələri aşkar edilmişdir. Keramika nümunələrinə əsasən qalanı XI-XV əsrlərə aid etmək olar.



**Şəkil 104.** *Qırxlar qalası. Ümumi görünüş.*

# TÜRBƏ VƏ PİRLƏR, KÖRPÜ, KARVANSARA VƏ DİGƏR TİKİLİLƏR

Culfa rayonu ərazisində minilliklərdən xəbər verən onlarla türbə, körpü, karvansara, pir, xanəgah, qədim daş karxanası, mağara, su kanalı, kahalar vardır. Bu abidələrin tədqiqi də Azərbaycan tarixinin açılmamış sirlərinin öyrənilməsində önəmli yer tutur. Çünki, tarix boyu sosial-siyasi və ideoloji mərkəzlərdən olan xanəgahlar və pirlər insanların dünyagörüşündə mühüm rol oynamışdır. Məlum olduğu kimi, VIII əsrdən başlayaraq Müsəlman Şərqində təşəkkül tapan sufi təriqətləri Naxçıvanda da geniş yayılmışdır. Bu təriqətlərə rəhbərlik edən şeyxlər bir sıra yaşayış məskənlərində öz ibadət, zikr və təhsil mərkəzlərini – xanəgahlarını qurur, ətraflarına müridlər toplayır, ideyalarını mənimsədirdilər. Bu baxımdan belə tarixi abidələrin tədqiqi mühüm əhəmiyyət kəsb edir (F.Səfərli, səh.11-12).

## Gülüstan türbəsi

Gülüstan türbəsi Culfa rayonunun indiki Gülüstan kəndindən şərqdə Araz çayının sol sahilində yerləşir. Arxeoloji araşdırmalar zamanı müəyyən olunmuşdur ki, türbənin ətrafında vaxtilə Orta əsr yaşayış yeri olmuşdur. Azərbaycanın memarlıq abidələrini



**Şəkil 105.** *Gülüstan türbəsi (təmirdən əvvəl)*



**Şəkil 106.** *Gülüstan türbəsi təmirdən sonra*

araşdıran tədqiqatçılar Orta əsrlərdə Naxçıvanda memarlıq abidələrinin başlıca olaraq bişmiş kərpicdən inşa olunduğunu söyləmiş və mərkəzi Azərbaycanda formalaşan memarlığı Naxçıvan memarlıq məktəbi, bəzən isə Naxçıvan-Marağa memarlıq məktəbi adlandırmışlar. Amma araşdırmalar göstərir ki, Naxçıvan ustaları yalnız kərpiclə kifayətlənməmiş, daşla inşa olunmuş memarlıq abidələrinin gözəl nümunələrini yaratmışlar. Əlincə qalanın daşla inşa olunmuş memarlığı buna nümunə ola bilər. Bundan başqa Naxçıvan ərazisindəki çoxsaylı körpülər və qəbirüstü abidələr daş yonma sənətinin yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Bizim apardığımız araşdırmalar zamanı Culfa rayonunda Kırna və Göydərə kəndləri yaxınlığında aşkar olunan daş karxanaları bunu bir daha təsdiq edir. Naxçıvanda daşla inşa olunmuş memarlıq abidələrindən biri də Gülüstan türbəsidir. Türbənin üzərində kitabə qalmadığından tikilmə tarixi dəqiq müəyyən edilməmişdir. Lakin tikinti üslubuna görə mütəxəssislər türbəni XII əsrə aid edirlər.

Azərbaycan memarlarının ən gözəl sənət əsərlərindən biri olan Gülüstan türbəsi özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Qülləvari türbələr tipinə aid olan memarlıq abidəsinin xarakterik cəhətlərindən biri sərdabənin yerin üstündə yerləşdirilməsidir. Sərdabənin kvadratşəkilli özülündən qülləvari hissəyə keçid kvadratın künclərindən qalxan iki üçbucaq şəkilli müstəvi ilə həll edilmiş, nəticədə qüllə üçün on iki üzlü əsas yaradılmışdır. Kürsülük və qüllənin qovuşması stalaktit qurşağı ilə birləşdirilmişdir. Stalaktit qurşağının biçim zənginliyi və gözəlliyi onun üzərində ucalan qüllənin bədii xüsusiyyətləri ilə ahəngdarlıq təşkil edir. Qülləvari hissənin üzləri zəngin naxışlarla işlənmişdir.

Gülüstan türbəsinin interyeri, bir çox Azərbaycan türbələrində olduğu kimi bəzəksizdir. Həm sərdabə, həm də qülləvari hissə içəridə dairəvi biçimlidir. Sərdabə qüllədən yastılanmış günbəzlə ayrılmışdır. Günbəz kərpiclə inşa edilmişdir. Sərdabə iri daş bloklarla üzlənmiş, qüllənin iç səthi ağ suvaqla örtülmüşdür.

Gülüstan türbəsi memarlıq üslubuna Azərbaycan və Anadolu memarlığının müəyyən xüsusiyyətlərini əks etdirsə də naxışların incəliyi, kvadrat əsasdan prizmaya keçidin həlli baxımından olduqca mükəmməl sənət əsəridir. Mürəkkəbliyinə və biçim zənginliyinə görə Gülüstan türbəsinin naxışları yalnız Möminə Xatun türbəsinin naxışları ilə müqayisə edilə bilər. Ancaq Gülüstan türbəsinin daşda yonulmuş naxışları Möminə Xatun türbəsinin kərpicdən yığılmış naxışlarına nisbətən daha incə və zərifdir. Türbənin üst çadır örtüyünün bütünlüklə dağılması örtüyün piramidal, yoxsa konik biçimli olması ilə bağlı müxtəlif mübahisələr yaranmışdır. Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bərpa edilmişdir.

## Əlincəçay xanəgahı

Xalq arasında Şeyx Xorasan xanəgahı da adlandırılan bu memarlıq kompleksi Culfa rayonunun Xanəgah (keçmiş Xanağa) kəndi yaxınlığında, Əlincəçayın sol sahilində yerləşir. Kompleksdən dövrümüzə qədər yalnız türbə, məscid, təyinatı məlum olmayan sütunların qalıqları və yonulmuş daşlardan inşa olunmuş çeşmə qalmışdır. Kompleksin



**Şəkil 111.** *Şeyx Xorasan məscidinin mehrabı bərpadan sonra*



**Şəkil 112.** *Şeyx Xorasan pirinin kitabəsi*

ət-
ra-





**Şəkil 113.** *Şeyx Xorasan pirində mehrablar*

fında Orta əsr qəbiristanlığı, ondan bir qədər aralıda isə yaşayış yeri vardır. Araşdırma göstərir ki, xanəgah yaşayış yerinin şimal-şərq hissəsində salınmışdır.

Memarlıq kompleksinə daxil olan türbə əmir, sipəhsalar, böyük alim Uluğ Qutluğ Lala bəy tərəfindən tikdirilmişdir. Türbənin kitabəsində memarın adı (Memar Cəmaləddin) qalsa da, kitabənin tarix yazılan hissəsi dağıldığından onun nə vaxt tikildiyini dəqiq müəyyənləşdirmək mümkün olmamışdır. Kitabədə memarın adı aşağıdakı şəkildə yazılmışdır: ”Bu binanı tikən (memar) Xacə, hörmətli Camal-əd-din”. Tədqiqatçılar üslub xüsusiyyətlətinə görə türbəni XII əsrin sonu – XIII əsrin əv-vəllərinə aid edirlər.

Türbənin yuxarı hissəsindəki səkkizbucaqlı tağvari konstruksiya stalaktitlər vasitəsi ilə günbəzin çadırvari oturacağını əmələ gətirmişdir. Türbənin giriş qapısının hər iki tərəfində şərti olaraq “mehrab” adlandırılan düzbucaqlı taxçalar gəcdən oyulmuş qabarıq naxışlar və dini məzmunlu kitabələrlə bəzədilmişdir. Bunlar dünya memarlığı tarixində gəc üzərində plastik oymanın ən gözəl nümunələrindən biridir. Türbənin baştağının memarlıq həlli Möminə Xatun türbəsi ilə bənzərdir. Onun inşasında kərpiclə yanaşı, firuzəyi kaşıdan da istifadə olunmuşdur. Qeyd edək ki, türbənin bərpası zamanı türbənin içərisində müsəlman adəti ilə dəfn edilən dörd skelet qalığı aşkar olunmuşdur. Onların ikisi türbənin içərisindəki mehrabların qarşısında, digər ikisi isə onlardan bir qədər aralıda aşkar olunmuşdur. Türbərin üzərindəki kitabədə onun kimin şərəfinə tikildiyi saxlanmamışdır. Lakin yerli əhali arasında yayılan məlumata görə hürufilik təliminin

banisi Fəzlullah Nəimi burada dəfn olunmuşdur. Ancaq türbənin tikilmə tarixi ilə Fəzlullah Nəiminin ölüm tarixi arasında xeyli fərq olduğundan bu fikir uzun müddət inandırıcı kimi görünməmişdir. Türbənin içərisində bir neçə qəbirin aşkar olunması Fəzlullah Nəiminin burda dəfn edildiyini təsdiq etməkdədir. Ehtimal ki, Şeyx Fəzlullah Nəimi əvvəlki dövrdə inşa olunmuş türbədə dəfn edilmişdir. Bu xanəgahın ətrafındakı kitabələrin oxunması nəticəsində bir çox sufi şeyxləri, Elxani hökmdarlarından Olcaytu Xudabəndə və Əbu Səidin vəziri olmuş Tacəddin Əlişah, Əlincəqalanın müdafiəsində iştirak etmiş Əmir Seyid Əhməd Oğulşami haqqında da məlumat əldə edilmişdir.

Türbənin ön tərəfində, baştağa bitişik tikilmiş məscid iki dayaqla altı hissəyə bölünmüş və hər hissə də günbəzlə örtülmüşdür. Məlum olduğu kimi, hürufilik təriqətinin banisi, görkəmli ideoloq və tarixi şəxsiyyət olan Fəzlullah Nəimi bir müddət Naxçıvanda Astrabad adlı şəhərdə yaşamış və öz ideyalarını təbliğ etmişdir. Orta əsr qaynaqlarında onun Əlincəqala yaxınlığında edam edilməsi haqında məlumat vardır. Bəzi tədqiqatçıların fikrinə və xalq arasında yayılan rəvayətlərə görə Fəzlullah Nəimi Əlincəçay xanəgahında dəfn edilmişdir. Bu məsələni aydınlaşdırmaq üçün H.F.Səfərli Əlincəçay xanəgahındakı kitabələri və tarixi mənbələri yenidən araşdırmışdır. Əlincəçay xanəgahı kompleksindəki kitabələrin oxunması nəticəsində Fəzlullah Nəimi ilə bağlı heç bir məlumat aşkar olunmasa da, Orta əsrlərin digər görkəmli şəxsiyyətləri haqqında məlumat əldə edilmişdir. Məlum olmuşdur ki, Xanəgah kompleksinə daxil olan binalardan biri hicri 901-ci ildə (1495-1496) Şeyx Hacı Lələ Məlik üçün Həvva Bədr Bikə xatunun səyi ilə inşa edilmişdir. Qeyd etmək istərdik ki, məscid adı ilə tanınan bu binanın içərisində aparılan bərpa işləri zamanı binanın qərb divarları yaxınlığında skelet qalıqlarının aşkar olunması Şeyx Hacı Lələ Məliyin burada dəfn edilməsi ehtimalını təsdiq edir. Həvva Bədr Bikə xatın vəfat etdikdən sonra özü də xanəgahın ətrafında dəfn edilmişdir.

### Əmirxan türbəsi

Əmirxan türbəsi Xanəgah kəndində Əlincəqalanın Şərq ətəyində yerləşir. Türbə xalq arasında Təkyə adlanır və bəzi tarixi ədəbiyyatda elə təkyə kimi də təqdim edilir. Vaxtilə türbənin üzərində belə bir kitabə olmuşdur. Kitabənin mətni belədir: "Bu şərəfli günbəzin bina olunmasına mərhum, xoşbəxt şəhid, əmir Seyyid Əhməd əl-Oğul-Şaminin oğlu, sahib əl-əzəm Hacı Məhəmməd vəfat etmiş oğlu Əmirxan üçün ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında–Allah onun hökmranlığını əbədiləşdirsin-əmr etmişdir. Və adı çəkilən bani dəvət edən məqbərəyə..... əkilmiş yer... bu dəfn yeri olan günbəzə ildə ... vəqf etmişdir" (Nemət M., 1992, s. 51-52; Səfərli F. 2013, s. 77-78).

Kitabənin mətnindən göründüyü kimi, memarlıq abidəsi Əmirxanın xatirəsinə tikilmişdir. Abidənin təkyə adlandırılmasının səbəbi şübhəsiz ki, burada dini mərasimlərin keçirilməsi ilə bağlı olmuşdur. Abidə 1978-ci ildə ərazidə torpaq işləri görülərkən aşkar olunmuşdur. Planda kvadrat formalı olan binanın günbəzi dairəvi formalıdır. Kvadrat əsasdan günbəzə keçid tağvari stalaktitlərlə həll edilmişdir. Binanın kvadrat



**Şəkil 119.** *Əmirxan türbəsi.*

formalı hissəsi yonulmuş daşdan, günbəzi isə bişmiş kərpicdən əhəng məhlulundan istifadə edilməklə inşa edilmişdir. Türbə tikinti-memarlıq üslubuna görə Əlincəçay xanəgahındakı türbə və Kəngərli rayonunun Xıncab kəndindəki Yaralı Sultan türbəsi ilə bənzərdir. Bu tip türbələr XV əsr üçün xarakterik olmuşdur. Əmirxan türbəsinin kitabəsində adı çəkilən "Sultan Cahanşah Bahadur xan" Qaraqoyunlu hökmdarı Cahanşahdır. Kitabədə dəqiq tarix yazılmayıb. Amma Qaraqoyunlu Cahanşahın hakimiyyət illəri 1435-1467-ci illər olduğundan, türbənin də həmin tarixdə inşa olunduğunu demək olar.

## Kırna türbəsi

Kırna türbəsi eyni adlı kənddən şərqdə yerləşir. Türbə mərkəzi günbəzli memarlıq abidələri sırasına daxildir. Üzərində kitabəsi yoxdur. Abidənin ümumi quruluşu məscidə bənzəsə də, onun həcmi bunu deməyə imkan vermir. Ehtimal ki, türbə tikildikdən sonra burada müəyyən dini ayinlər icra edilmişdir. Planda



**Şəkil 120.** *Kırna türbəsi*

kvadratşəkilli olan bina çadırvari günbəzlə örtülüb. Kvadratşəkilli hissədən çadırvari hissəyə keçid stalaktitlərlə həll olunub. Günbəz içəridən çatmatağlı, xaricdən isə piramidaşəkillidir. Türbə zamanəmizədək tam şəkildə qalmadığından onun ümumi konstruksiyası haqqında fikir yürütmək çətindir. Lakin bu abidə Azərbaycanın, o cümlədən Naxçıvanın günbəzli-qülləvari tikintilərindən özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Türbənin dörd girişinin olması və uzunsov tağvari memarlıq elementləri onun fərqləndirici cəhətlərindəndir. Memarlıq xüsusiyyətləri və dörd girişin olması onu Qarabağlar türbəsi ilə yaxınlaşdırır. Lakin bəzi xüsusiyyətlərinə görə Dər kəndindəki türbəyə də bənzəyir. Memarlıq xüsusiyyətlərini nəzərə alaraq türbəni XIV əsrə aid etmək olar.

## Ərəfsə piri

Ərəfsə piri dağlıq və ucqar bir ərazidə, eyni adlı kəndin şimalında, Əlincəçayın sol sahilində yerləşir. Bu pir ziyarətə gələn zəvvarların sayına görə muxtar respublikada əvvəlinci yerlərdən birini tutur. Buradakı əsas ziyarət yeri mərkəzi otaqda olan qəbirlərdir. Qəbirlərin üzərində baş daşı yoxdur. Ziyarətgah Zəngəzurdan Naxçıvana gələn ticarət-karvan köç yolunun, həmçinin Xanağa xanəgahı ilə eyni xətt üzərində yerləşir.

Tədqiqatçıların fikrinə görə Ərəfsə sözü Skif mənşəli "Arsak" tayfaları ilə bağlı olmuşdur. Bu tayfalar Naxçıvan ərazisində yaşayan qədim türkdilli tayfalardan biridir. Tədqiqatçı F.Səfərli qeyd edir ki, vaxtilə sufi mərkəzi olan və sufi şeyxinin qəbiri hesabına ziyarətgaha çevrilən bu xanəgah zaman keçdikcə unudulmuş, adamların yaddaşında pir kimi qalmışdır. Culfa bölgəsinin ucqar bir kəndində, gediş-gəlişin

çətin olduğu bir ərazidə yerləşməsinə baxmayaraq, bu ziyarətgah Orta əsrlərdə olduğu kimi, indi də əhalinin çox böyük hörmət və ehtiramla ziyarətə gəldiyi bir yerdir (F.Səfərli, səh.228-230). Ziyarətgah iki böyük otaq və balkonlardan ibarət bir tikilidir.

## Göynük piri

Göynük piri eyni adlı kəndin içərisində yerləşir. Onun divarları çiy kərpicdən dördkünc formada hörülüb. Pirin giriş qapısı cənub tərəfdəndir. Onun şərq divarında dördkünc formalı kiçik pəncərəsi vardır. Binanın içərisi sadə olub, palçıqla suvanmışdır. İçərisində müsəlman adəti ilə götürülmüş qəbir vardır. Qəbir daşlarında yazı yoxdur. Binanın döşəməsinə palaz salınmış, divarlarına İslam müqəddəslərinin şəkilləri asılmışdır. Araşdırmalardan görünür ki, pir binası bir neçə dəfə bərpa edilmişdir. Hazırda olan bina XIX əsrə aiddir. Lakin onun ətrafından tapılan keramika nümunələri piri XIII-XIV əsrlərə aid etməyə imkan verir.

## Yağmur piri

Yağmur piri rayonun Teyvaz kəndindən şərqdə, hündür təpənin üzərində yerləşir. Pir daş hörgü ilə iki hissəyə bölünüb. Oraya giriş cənub tərəfdəndir. Onun cənub, şərq və qərb divarlarında şam yandırmaq və nəzir qoymaq üçün xüsusi taxçalar düzəldilib.



**Şəkil 121.** *Yağmur piri. Teyvaz kəndi*



**Şəkil 122.** *Yağmur piri. Teyvaz kəndi*

Pirin divarları Azərbaycanın qədim memarlığı üçün xarakterik olan tikinti texnikası ilə ucaldılıb. Divarlar yanlarda iri daşlarla hörülüb, onların arası isə kiçik həcmli daşlarla doldurulub. Divarlar bərkidici məhlul olmadan inşa edilib. Pirin arxitektura özəllikləri və daşların şibyə ilə örtülməsi onun uzun müddətdən bəri istifadə edildiyini göstərir. Pirin içərisindəki taxçalarda XII-XIV əsrlərə aid yağdanlara rast gəlinib. Lakin pirin tikilmə tarixi e.ə. IX-VI əsrlərə aiddir.

## Nəhəcir piri

Nəhəcir piri eyni adlı kəndin mərkəzində yerləşən dördkünc formalı binadan ibarətdir. Tikintinin girişi şərq tərəfdəndir. Bina daşdan tikilərək, xaricdən palçıqla suvanıb. İçərisi və döşəməsi sadə olub, gəclə suvanmışdır. Pirin içərisində müsəlman adəti ilə qurulmuş bir qəbir vardır. Pirin yaranması Orta əsrlərə aiddir.

Hazırda pirin üzərində tikilən bina XVIII-XIX əsrlərə aid edilə bilər.

## Sürməli piri

Sürməli piri eyni adlı kənd qəbiristanlığının cənubunda yerləşir. Pir ortasında böyük oyuq olan qaya parçasından ibarətdir.

Pirin tarixini onun yaxınlığında yerləşən qəbiristanlıqla eyni dövrə - XVI-XVIII əsrlərə aid etmək olar.

## Tut piri

Tut piri Nəhəcir kəndinin qərbində, bulağın yaxınlığında yerləşir. Qurumuş tut ağacı və onun ətrafı kənd əhalisi tərəfindən müqəddəs hesab edilir. Pir türk xalqları arasında geniş yayılan ağac inancı ilə bağlıdır.

Piri XVIII-XIX əsrlərə aid etmək olar.



**Şəkil 123.** *Tut piri. Nəhəcir kəndi*

## Alməmməd (Camaldın) piri

Alməmməd (Camaldın) piri eyni adlı kənddən təxminən 4-5 kilometr şərq tərəfdə, yüksək dağın ətəyində yerləşir. Bu pir böyük bir binadan ibarətdir. Binanın giriş hissəsində qəbir vardır. İçəridə daha bir qəbir vardır ki, insanlar daha çox o qəbiri ziyarət edirlər. Qəbirlərin üzərində heç bir yazı yoxdur.

Tədqiqatçılar qeyd edirlər ki, Alməmməd piri Orta əsrlərdə müxtəlif bölgələrdən gələn adamların toplanış, ibadət və ziyarət yeri olmuşdur. Orta əsrlərdə bir sıra sufi təriqətlərinə mənsub adamlar-zahidlər insanlardan kənar yerlərdə, xüsusilə dağlarda, mağaralarda məskən salır, orada tərki-dünya həyat keçirirdilər. Pirin içərisindəki



**Şəkil 124.** *Almməmməd piri. Camaldın kəndi*

qəbirin isə burada fəaliyyət göstərən xanəgahın rəhbər şeyxinə aid olması göstərilir (F.Səfərli, səh.230-232).

## Qazançı piri

Qazançı pirinin yalnız qalıqları durur. İki otaqdan ibarət olan bu bina daşdan tikilmişdir. Otaqlar ara divarlarda olan keçidlərlə əlaqələndirilib. Binanın girişi şimal tərəfdən olmuşdur. Onun içərisində kiçik taxçaların qalıqları vardır. Taxçalarda his qalıqlarına rast gəlinir.

Binanın divarları iri qaya parçalarından tikilərək palçıqla bərkidilmişdir. Divarların eni 1 metrdir. Pirin yaxınlığında Orta əsrlərə aid müsəlman qəbiristanlığı yerləşir. Ətrafda Son Orta əsrlər üçün xarakterik olan keramika parçalarına rast gəlindi. Pirin daşdan inşa olunmuş tikintisinin qalıqları XIX əsrə aiddir.

## Seyidlər piri

Seyidlər piri Göynük kəndinin şimalında, dağın yamacında bir-birinin yaxınlığında yerləşən üç ayrı binadan ibarətdir. Binaların girişi cənub tərəfdəndir. Onların içərisində müsəlman adəti ilə düzəldilmiş qəbirlər vardır. Pirlərin divarları İslam dininin müqəddəsləri, dini yazılar, müxtəlif süjetli rəsmlərlə bəzədilib. Dini yazılar Quran ayələrindən ibarətdir.

Pirdən şimal-qərb tərəfdə qaya daşlarının üst-üstə yığılması ilə düzəldilmiş dördkünc formalı ziyarətgah da vardır.

Araşdırmalar pirlərin müqəddəs şəxslərin qəbirləri üzərində tikilən binalardan ibarət olduğunu göstərir. Tədqiqatlardan görünür ki, pirə aid binalar dəfələrlə bərpa olunmuşdur. Onun yaxınlığında olan müsəlman qəbiristanlığı indi də qalır.

Seyidlər pirini XIV-XVIII əsrlərə aid etmək olar



**Şəkil 125.** *Seyidlər piri*

## Camışayağı piri

Camışayağı piri Milax kəndinin cənubunda, asfalt yolun kənarında yerləşir. Pir itburnu kolu və onu əhatə edən daş düzümlərindən ibarətdir.



**Şəkil 126.** *Camışayağı piri. Milax kəndi*

Pirin yaxınlığında e.ə. III-I minilliklərə aid yaşayış yeri və qəbiristanlıq vardır. Bunları nəzərə alıb piri e.ə. III-I minilliklərə aid etmək olar.

## Dilək piri

Dilək piri Qazançı kəndinin cənubunda, kəndin içərisində yerləşir. Pir daşdan tikilmiş bir otaqlı binadan ibarətdir. Girişi cənub tərəfdəndir. Şərq tərəfdə bir pəncərə, qərb divarının içəri tərəfində bir dördkünc formalı taxça var. Binanın interyeri sadə olub, gəclə suvanmışdır. Binanın fasadında isə kiçik həcmli üçbucaq formalı taxça vardır. Taxça hisdən qaralıb. Taxçada çıraq, ya da şam yandırıldığından, ora gələnlər daş yapışdırmaqla niyyət edirlər. Binanın içərisi İslam dininin müqəddəs şəxsiyyətlərinin şəkilləri və dini motivli digər rəsmlərlə bəzədilib.

Pirin indiyədək qalan tikintiləri XIX əsrə aid olsa da, ətrafdan aşkar olunan şirli və şirsiz saxsı məmulatı onun erkən Orta əsrlərdən fəaliyyət göstərdiyini deməyə əsas verir. Onu VIII-XI əsrlərə aid etmək olar.

## Qəfər piri

Qəfər piri Milax kəndinin qərbində, Zoğalaya gedən yolun sağ tərəfində yerləşir. Pir iri və kiçik qaya parçalarını nizamsız şəkildə düzməklə düzəldilmişdir. Dördkünc formalı olan pirin küncləri dəyirmiləşdirilib. Girişi cənub-qərb tərəfdəndir. Pirin ətrafında aşkar olunan şirli saxsı məmulatı onu XIV əsrə aid etməyə imkan verir.

## Dəlikdaş piri

Dəlikdaş piri Göydərə kəndinin qərbində, hündür dağın üzərində yerləşir. Dağın ən yüksək zirvəsində olan qayanın şərq tərəfində yaranan taxça tipli təbii oyuqlar əhali tərəfindən müqəddəs hesab edilərək ziyarət edilir. Araşdırmalara əsaslanaraq onu e.ə. III-II minilliklərə aid etmək olar.

## Bayat piri

Bayat piri Göydərə kəndinin içərisində yerləşir. Hazırda pir əsasən dağılmışdır. Onun yalnız iki divarının qalıqları qalmışdır. Divar qalıqlarına əsasən demək olar ki, pirin binası dördkünc formalı olmuşdur. Tikinti materialı kimi möhrədən və çiy kərpicdən istifadə olunmuşdur. Pir binası hazırda ziyarət edilmir. Piri XI-XIV əsrlərə aid etmək olar.

## Peyğəmbər ayağı piri

Peyğəmbər ayağı piri Kırna kəndindən şərqdə, dağ silsiləsinin Əlincəçay vadisinə doğru uzantılarından birinin üzərində, qayalığın yamacında yerləşir. Yerli əhalinin inancına görə peyğəmbər buradan keçərkən onun ayaq izləri qayanın üzərində qalmışdır. Araşdırma zamanı qayaların üzərində insan ayağına bənzər izlərə rast gəlinir. Onlar qayada yaranan təbii oyuqlardan ibarətdir. Hazırda peyğəmbər ayağının qaldığı yerlər insanlar tərəfindən müqəddəs hesab edilərək ziyarət olunur. Pirin yaranma tarixini VIII-XI əsrlərə aid etmək olar.

## Ağaclı piri

Ağaclı piri Gal kəndindən qərbdə, dağ silsiləsinin ətəyində yerləşir. Pir ağacın altında daşdan tikilmiş dördkünc formalı binadan ibarətdir. Binanın cənub tərəfində yerləşən girişi olduqca darısqaldır.

Pir binasının müasir üslubda tikilməsinə baxmayaraq, girişin memarlığı Erkən Orta əsrlər üçün xarakterikdir. Pirin binası isə VIII-XI əsrlədə tikilmiş, sonralar isə bərpa edilmişdir.

## Gal piri

Gal piri Gal kəndindən qərbdə, Orta əsr yaşayış yerinin yaxınlığında yerləşir. Pir iri qaya parçası və onun ətrafında olan ağacdan ibarətdir. Pirin yaxınlığında bulaq vardır.

Onomastik materialların araşdırılması bu ərazinin pirə çevrilməsinin qədim türklərlə bağlı olduğunu göstərir. Piri VII-IX əsrlərə aid etmək olar.

## Üçqardaş piri

Üçqardaş piri Kırna kəndinin şərqində, hündür dağın üzərində yerləşir. Pir dağın başında yan-yana düzülmüş üç təbii qaya parçasından ibarətdir. Onun yerləşdiyi dağ və ətrafı yerli əhali tərəfindən müqəddəs hesab edilir. Pirin yaxınlığında dərədən çıxan bulaq və onun ətrafındakı ağaclar da müqəddəs hesab edilir. Pir ətraf kəndlərin əhalisi tərəfindən ziyarət edilir. Onu e.ə. III-I minilliklərə aid etmək olar.



**Şəkil 127.** *Üçqardaş piri. Kırna kəndi.*

## Pirmaşa piri

Pirmaşa piri Camaldın kəndinin içərisində, hündür qayalığın üzərində yerləşir. Pir müqəddəs şəxsiyyətlərdən birinin qəbri üzərində, müasir üslubda, bişmiş kərpicdən

tikilmiş altıüzlü prizma şəkilli binadan ibarətdir. Binanın hər üzündə yerləşən ensiz pəncərələr onun görünüşünü daha da ahəngdar edir. Pirin tavanı konusvari başlıqla örtülmüşdür.

Yerli əhalinin məlumatına görə, burada vaxtilə möhrədən tikilmiş bina olmuşdur. Pirin ətrafından Orta əsrlərə aid keramika məmulatının tapılması onun uzun müddət ziyarətgah kimi istifadə olunduğunu təsdiq edir.

Pirin köhnə tikintilərini və ziyarətgaha çevrilməsini onun ətrafında olan qəbiristanlıqla eyni dövrə - XIV-XVIII əsrlərə aid etmək olar.

## Yaycı piri

Yaycı piri rayonun eyni adlı kəndinin qərbində yerləşir. Pir müasir üslubda bişmiş kərpicdən tikilmiş bir böyük bina, qəbir yerləşən kiçik bir otaq və balkondan ibarətdir.



**Şəkil 128.** *Yaycı pirində istifadə olunan mis kasa.*

Pir binasının içərisi sadə olub, gəclə suvanmışdır.

Pirin ziyarətgaha çevrilməsini e.ə. III-I minilliklərə, onun İslam aləmində məhşurlaşmasını isə XI-XIV əsrlərə aid etmək olar.

## Ləkətağ məscidi

Ləkətağ məscidi kəndin mərkəzində, yolun kənarında yerləşir. Girişi cənub tərəfdəndir. Şərq və cənub tərəfdən açıq balkonla əhatə edilib. Pəncərələri və qapısı dördkünc formalı olub, yuxarıda yarımdairəvidir. İçəri hissədə məscid bölünərək qadınların ibadəti üçün yer ayrılmışdır. Bina çay daşlarından və kubşəkilli daşlardan tikilmişdir. Xarici divarları suvaqsız, interyeri sadədir. Divarlar gəclə suvanıb. Məscidin günbəzi digər məscidlərdən fərqli olaraq binanın damının mərkəzi hissəsində yerləşdirilib.

Yerli əhalinin məlumatına görə, vaxtilə məscidin binası möhrə tikilidən ibarət olub. Məscid XX əsrdə yenidən bərpa edilib. Binanın tikilməsini XIX-XX əsrlərə aid etmək olar.

## Xanəgah məscidi

Xanəgah məscidi kəndin qərbində, Əlincəqalanın ətəyində yerləşir. Qadınların ibadəti üçün xüsusi dayaqlarla ikinci mərtəbə hazırlanmışdır. Cənubdan və şimaldan girişi vardır. Pəncərə başlıqları yarımdairəvidir. Məscidin mərkəzi hissəsində yerləşən minarə və məscid dördkünc formalıdır. Məscid binası XX əsrdə yenidən bərpa edilib. Məscidin şimal-şərq tərəfindəki xüsusi tikintilər Orta əsrlərə aiddir. Tədqiqatlar zamanı məscidin həyətindən Orta əsrlərə aid məişət və tikinti keramikası aşkar edildi.

Aşkar edilən arxeoloji materiallara və tikinti texnikasına əsasən məscidin inşa edilmə tarixini XIV-XV əsrlərə aid etmək olar.

## İmam Həsən məscidi

İmam Həsən məscidi Bənəniyar kəndində yerləşir. Üç mərtəbəlidir. Girişi şimal tərəfdəndir. Qapı və pəncərələrinin başlıqları tağvari formadadır. Dördkünc formada tikilən məscidin dörd günbəzi vardır. Silindrik formalı günbəzlər konusvari örtüklə tamamlanır. Girişin sol tərəfində dəmir borudan minarə qoyulub. Məscid binası təmir olunaraq yenidən istifadəyə verilib. Daşdan inşa edilmiş divarlara bişmiş kərpicdən üzlük çəkilib.



**Şəkil 129.** *Bənəniyar məscidi.*

Binanın içərisi sadə olub, gəclə suvanmış, İslam müqəddəslərinin rəsmləri ilə bəzədilmişdir. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə məscidin yerində möhrədən tikilmiş bina olmuşdur. Məscidin ətrafından aşkar olunan keramika nümunələri məscidin XVIII əsrdə tikildiyini deməyə imkan verir. Məscidin bərpa edilmiş binası XX əsrə aiddir.

## Nəhəcir məscidi

Nəhəcir məscidi kəndin mərkəzində yerləşir. Dördkünc formalı binadan ibarət olan məscid hündürlüyü 1 metr olan kürsülük üzərində tikilmişdir. Girişi şimal tərəfdəndir. Vaxtilə məscidin kitabəsi olmuşdur. Məscidə aid olan kitabələrin biri hazırda şərq tərəfdəki pəncərənin yuxarı hissəsinə yerləşdirilib. Məscidin içərisi iki yerə bölünərək, qadınlar və kişilərin ibadəti üçün yer düzəldilmişdir.

Məscidin ətrafından aşkar edilən şirli keramika məmulatı Son Orta əsrlərə aiddir. Ehtimal ki, məscid XVIII əsrdə tikilmiş, sonradan isə təmir edilmişdir.

## I Yaycı məscidi

I Yaycı məscidi kəndin mərkəzi meydanında yerləşir. Divarları daşdan hörülmüş, fasadı bişmiş kərpiclə üzlənmişdir. Girişi şimal tərəfdəndir. Giriş qapısının üstü və pəncərə başlıqları tağvarı formada işlənib. Dördkünc formalı kiçik pəncərələr divarların yuxarı hissəsində yerləşdirilib. Məscidin cənub tərəfində açıq balkon düzəldilib. Günbəzi dəmir örtüklə qapadılıb.

Məscidin içərisi gəclə suvanmış, divarlarında Quran ayələrindən sətirlər yazılmışdır. Məscid binası bir neçə dəfə bərpa edilmişdir. Hazırda mövcud bina XIX əsrdə tikilmişdir.

## Ləkətağ körpüsü

Ləkətağ körpüsü rayonun Ərəfsə kəndindən şimal-şərqdə, Əlincəçayın üzərində yerləşir. Körpü Əlincəçayın sol sahilində olan kəndləri Culfa rayonun digər kəndləri ilə əlaqələndirir.

1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu ərazidə işləyərkən körpünü müxtəlif aspektlərdən tədqiq etmişdir. Körpü tağvari formada olub, müxtəlif həcmli çay və dağ daşlarından tikilmişdir. Onun tağı kənarlarda yonulmuş ağ daşlarla, ortada isə müxtəlif çay daşları ilə hörülmüşdür. Bərkidici maddə kimi iri qum və əhəng qarışığı olan gəcdən istifadə edilmişdir. Aşağı hissədə körpunun eni 7 metrdir. Onun hündürlüyü daş özülə qədər 5 metr, çaya qədər isə 6,5 metr təşkil edir. Eni 2,7 metr olan körpünün üst hissəsi tamamilə uçub dağılmış, tağı isə uçmaq təhlükəsi ilə üz-üzə qalmışdı. 2019-2020-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə



**Şəkil 130.** *Ləkətağ körpüsü (bərpadan əvvəl)*



**Şəkil 131.** *Ləkətağ körpüsü (bərpadan sonra)*



**Şəkil 132.** *Ləkətağ körpüsü (bərpadan sonra)*

körpü bərpa edilmişdir. Belə hesab etmək olar ki, orta əsrlərdə Əlincəçay vadisi ilə uzanan yol Ərəfsə kəndinin yaxınlığından başlayaraq çayın sol sahili boyunca davam etmişdir.

Tikinti texnikasına əsasən körpünü XVI-XVII əsrlərə aid etmək olar.

## Gülüstan körpüsü

Gülüstan körpüsü Araz çayının üzərində Gülüstan kəndi yaxınlığında inşa edilmişdir. Körpünün indiyədək yalnız bir qismi, Araz çayının sağ sahilində qalmışdır. Körpü XII əsrdə Araz çayının sağ və sol sahilini birləşdirən mühüm kommunikasiya xəttinin - böyük karvan yolunun üzərində yerləşərək Orta əsr ticarətində əhəmiyyətli rol oynamışdır. Bu karvan yolu Böyük İpək yolunun bir hissəsi olmuşdur. Körpü tarixi mənbələrdə Ziya-ül-mülk körpüsü də adlandırılmışdır. Həmdullah Qəzvini "Nüzhət əl Qülub" əsərində Mərənd tümənindəki ticarət şəhəri Gərgər haqqında qısa məlumat verərkən yazmışdır ki, "...onun yanında, Araz çayı üstündə Ziya-ül-mülk Naxçıvani gözəl körpü tikmişdir. Bu xeyriyyəçilik sahəsində ən parlaq tikililərdən biridir."

Qırmızı qumdaşından və əhəng məhlulundan istifadə edilməklə tikilən körpünün konstruktiv quruluşu inşaat texnikasının yüksək səviyyədə olmasından, seysmik davamlığın və təbii fəlakətlərin nəzərə alındığını göstərir. Yalnız sahil dayağı və kiçik bir hissəsi salamat qalan körpünün divarlarında yağış sularının axması üçün kiçik mazğallar düzəldilmişdir. Belə mazğallara Əlincə qalanın tikintisində də rast gəlmək olur. Bu körpünün çoxəsrlik memarlıq ənənəsinə əsaslandığını sübut edir. Əmir Teymurun tarixçisi Şərəfəddinin aşağıdakı təsvirini tədqiqatçılar Gülüstan körpüsünə



**Şəkil 133** *Gülüstan körpüsü*

aid edirlər: "Yonulmuş daşdan tikilmiş sarsılmaz möhkəmliyi olan yastı və düz körpü, dünya körpülərinin ən gözəlidir. Daşlarının gözəlliyi, möhkəmliyi və dözümlü düzümü bütün memarları təəccübləndirir; iki tağbəndi çox ucadır və enlidir, su azalanda ölçülərkən biri 60 gəz (18,0 metr), o biri 50 gəz (15,0 metr) idi; kiçik tağbəndin aşağı qurtaracağında karvansaray, körpünün iki ucunda isə qayalarda tayı olmayan gözəllikdə qapılar tikilmişdi." Gülüstan körpüsünün sahil dayağı içərisində bir sıra yerləşgələr indi də qalmaqdadır. Körpünün sahil dayağına bitişik tikinti qalıqlarını isə tədqiqatçılar karvansara hesab edirlər. Gülüstan körpüsünün yaxınlığında xalq arasında Şah Abbas körpüsü adı ilə tanınan ikinci bir körpü, onun yaxınlığında isə Araz çayının hər iki sahilində karvansara var. Ehtimal ki, bu körpü Gülüstan körpüsünün dağılıb öz əhəmiyyətini itirməsindən sonra inşa edilmişdir.

## Şah Abbas körpüsü

Şah Abbas körpüsü Araz çayı üzərində salınmışdır. Hazırda körpünün yalnız iki dayaq sütunu yarım dağılmış vəziyyətdə qalır. Çəhrayı rəngli daşdan tikilən dayaq sütununun üzlük daşları düşüb. Dayaq sütunları iri daşlardan tikilmiş, onların arası isə kiçik həcmli daşlarla doldurularaq əhəng məhlulu ilə bərkidilmişdir. Aşırımlar arasındakı məsafə əraziyə uyğun olaraq müxtəlif olmuşdur.

Körpünün qalıqlarını XVI-XVII əsrlərə aid etmək olar.

## Şurut körpüsü

Şurut körpüsünün qalıqları kəndin cənubunda yerləşir. Körpünün yalnız bir dayaq sütunu indiyədək salamat qalmışdır. Onun qalan hissəsinin hündürlüyü 8, ön tərəfdən eni 1,5, yandan 2 metrdir.



**Şəkil 134.** *Şurut körpüsü.*

Körpü çay daşlarından və qaya parçalarından tikilərək əhəng məhlulu ilə bərkidilmişdir. Körpünün tikinti texnikası Azərbaycanın Orta əsr memarlığı üçün xarakterikdir. Körpünü XVII əsrə aid etmək olar.

## Qazançı körpüsü

Qazançı körpüsü Culfa rayonunun Qazançı kəndinin cənub tərəfində, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsidir. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur. Körpü XVI-XVII əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək yoluna xidmət edən bu körpü vasitəsi ilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir. Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55, uzunluğu

10,85, hündürlüyü 8,8 metrdir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağların haşiyə və arxivoltu təmiz yonulmuş qumdaşındandır. Bunun sayəsində tağların kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.





**Şəkil 135.** *Qazançı körpüsü (bərpadan əvvəl)*







**Şəkil 136.** *Qazançı körpüsü (bərpadan sonra)*

## II Qazançı körpüsü

II Qazançı körpüsü eyni adlı kənddən şərqdə, Əlincəçayın üzərində salınıb. Körpü AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Dayaq sütunlarının qalıqlarına əsasən demək olar ki, körpü üçtağlı olmuşdur. Əraziyə



**Şəkil 137.** *II Qazançı körpüsü.*

uyğun olaraq tağlar arasındakı məsafə müxtəlifdir. Körpünün sütunları yanlarda iri yonulmuş daşlardan tikilmiş, onların arası isə müxtəlif həcmli çay daşları ilə doldurularaq əhəng məhlulu ilə möhkəmləndirilmişdir.

Körpünün qalıqlarını XVII əsrə aid etmək olar.

## Gülüstan karvansarası

Gülüstan şəhəri ərazisində yerləşən karvansara, Azərbaycanda bu tipli abidələrin ən gözəl nümunələrindən biridir. Karvansara xalq arasında Şah Abbas karvansarası da adlanır. Şübhəsiz ki, bu karvansarada Şah Abbas dövründə aparılan bərpa, təmir və tikinti işləri ilə bağlı olmuşdur. Karvansaranın yaxınlığında Şah Abbas dövründə inşa olunan körpünün qalıqları indiyədək qalmaqdadır. Bu karvansaranın qalıqları 1974-cü ildə aparılan araşdırmalar zamanı aşkar edilmiş, 1978-ci ildə isə karvansaranın planı tamamilə müəyyənləşdirilmişdir. 1939-1940-cı illərdə Bakı-Culfa dəmir yolunun çəkilişi zamanı karvansaranın böyük bir qismi dağılmışdır.

Tədqiqatlar nəticəsində Gülüstan karvansarasının Azərbaycanda yolüstü karvansaraları içərisində ən görkəmli və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir.

Gülüstan karvansarası ilə eyni tipli olan digər bir karvansara Araz çayının sağ sahilində - Cənubi Azərbaycan ərazisində yerləşir. Bu abidə dağıntıya uğramadan öz monumentallığını qoruyub saxlamışdır. Bu isə Orta əsrlərdə ipək yolunun bir istiqamətinin də Araz çayı boyunca keçdiyini göstərir. Mütəxəssislər karvansaraların inşa tarixini XIII əsrə aid etmişdir.

Karvansara çay daşından inşa edilmiş, bərkidici kimi əhəng məhlulundan istifadə olunmuşdur. Bəzi hissələrdə saxlanan qalıqlara əsasən demək olar ki, binanın xarici və daxili səthi bişmiş kərpiclə üzlənmişdir. Karvansaranın salamat qalmış hissəsində çoxlu yaşayış otaqları vardır. Otaqların örtüyü çatma tağla örtülmüş və bu örtüklər bütövlükdə mürəkkəb və maraqlı konstruksiya yaratmışdır. Binanın şimal tərəfində sağ və solda tağvarı formada tamamlanan taxçaları olan böyük otağın təyinatı ilə bağlı qəti fikir olmasa da, ehtimal ki, bu otaq tacirlərin alış-veriş və yığıncaq yeri olmuşdur.

## Camaldın karvansarası

Camaldın karvansarası eyni adlı kənddən cənub-qərbdə, əkin sahələrinin arasında yerləşir. Onun mərkəzi hissəsinin sahəsi təxminən 6750 kvadratmetrdir. Burada mədəni təbəqənin qalınlığı 1-2 metr arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formalı tikintilərin qalıqları vardır. Tikintilər demək olar ki, tamamilə dağılıb. Abidə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınaraq araşdırılıb.

Yerüstü materiallar, başlıca olaraq, bişmiş kərpic və çəhrayı rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Keramika nümunələrinin bir qrupu şirlidir.

Aşkar olunan arxeoloji materiallara əsasən Camaldın karvansarasını XII-XVII əsrlərə aid etmək olar.



**Şəkil 138.** *Camaldın karvansarası*

## Kırna dəyirmanı

Kırna dəyirmanı kəndin qərb qurtaracağında, Əlincəçayın sahilində yerləşir. Dəyirman dördkünc formalı binadan ibarətdir. Girişi cənub tərəfdəndir. İçərisi sadə olub, palçıqla suvanmışdır. Üstü tirlərlə örtülüb. Binanın içərisi iki hissədən ibarətdir. Birinci hissə nisbətən aşağıdadır və orada dəyirman daşları yerləşdirilib. İkinci hissə nisbətən hündürdə yerləşir. Dəyirmanın unluğu burada quraşdırılıb. Unluğun ətrafındakı hissə kiçik meydança şəklindədir. Ondan dən taylarının yığılması üçün istifadə edilib. Üst-üstə qoyulmuş dəyirman daşlarının diametri 1,2 metrdir. Dördkünc binanın altında dəyirman daşlarını fırlatmaq üçün su pəri yerləşdirilən donuzluq vardır. Donuzluğun çıxışı çaydaşları ilə hörülüb. Dəyirman XIX-XX əsrlərə aiddir.

## Saltaq dəyirmanı

Saltaq dəyirmanı kəndin mərkəzində, yolun kənarında yerləşir. Dəyirman dördkünc formalı binadan ibarətdir. Girişi cənub tərəfdəndir. Dəyirmanın unluğu dəyirman daşlarından 2 metr hündürlükdə yerləşdirilib. Unluğun ətrafında dən taylarının yığılması üçün kiçik meydança düzəldilib. Dəyirman daşlarının diametri 1 metrdir.

Binanın altında dəyirman daşlarını fırlatmaq üçün su pəri yerləşdirilən donuzluq vardır. Donuzluğa giriş dəyirmanın içərisindəndir. Dəyirman işlək halda olsa da hazırda samanlığa çevrilmişdir. Onu XIX-XX əsrlərə aid etmək olar.

## Gəlindaş

Gəlindaş Kırna kəndinin şərqində insan fiquruna bənzər qaya parçasıdır. Bu abidə XI-XII əsrlərə aid edilə bilər.

## Şeyx Məhəmməd gölünün bəndi

Şeyx Məhəmməd gölünün bəndi yonulmuş daşlardan tikilib. Uzunluğu 18,8, hündürlüyü 5 metrdir. Bəndin üstü hamarlanmış, kənarları 40 santimetr hündürlükdə xüsusi divarla əhatələnmişdir. Onun ön tərəfi yarımdairəvi kontrforslarla möhkəmləndirilib. Bəndin ön tərəfində yerləşdirilən 1 metr hündürlüyündə olan ensiz taxçalar onun arxitektura özəlliyini daha da artırır. Tikintidə bərkidici maddə kimi əhəng məhlulundan istifadə edilib.

Tikinti texnikasının xüsusiyyətlərini nəzərə alaraq bəndi XVIII-XIX əsrlərə aid etmək olar.

# III FƏSİL

# QƏDİM KÖÇ YOLLARI VƏ MƏDƏNİ ƏLAQƏLƏR

Culfa əlverişli coğrafi mövqeyə malik olduğundan qədim dövrlərdən Azərbaycanın mühüm iqtisadi-mədəni və ticarət mərkəzlərindən biri olmuşdur. Orta əsrlərdə beynəlxalq ticarətdə Culfanın mövqeyi daha da artmış, buradan keçən İpək yolu bir neçə istiqamətdə haçalanmış və demək olar ki, Naxçıvanın bütün ərazisini əhatə etmişdir. Muxtar respublika ərazisində, o cümlədən Culfa rayonunda aşkar olunan çoxsaylı körpülər və karvansaralar bunu bir daha təsdiq edir.

## Culfa bölgəsinin qədim yurd adları və köç yolları

Culfa rayonunun ərazisi qədim türk ellərinin yurd adları ilə zəngindir. Yerli əhali hər hansı bir ünvanı başqasına bildirmək üçün həmin yurd yerlərinin-toponimlərin adını çəkir. Bu qədim yurd adları minilliklərdən soraq verir. İnsanlara bu adlar ulu babalarından yadigar qalmış, onlar neçə-neçə nəsillərin yaddaşından süzülərək bu günümüzə qədər gəlib çatmışdır.

Nəhəcir və Göynük kəndlərinin ətraf ərazilərində "İydəli ağıl", "Qızıl ağıl", "Atuçan", "Təpələrarası", "Tap", "Dəmiritən", "Sarıdərə", "Nişanqoyulan", "Kürənin düzü", "Aralıq", "Qızılqaya" yer adları var. "Təpələrarası" adlanan yer beş təpənin arasında yerləşir. "Tap" sözünün mənası "Dağların üstü" deməkdir. Dağların üstündə düzənlik olan yerlər belə adlanır. Bu ərazidə iki Tap adlanan yer var. Onlardan biri Nəhəcir kəndinin şimal tərəfində, Nəhəcir dağının üstündə olan düzənlikdə, digəri isə kəndin cənub tərəfində olan təpələrin üzərində yerləşir. "Kürənin düzü" sözünün mənasına gəldikdə isə, onu deyə bilərik ki, yerli əhali özlərini dulusçular nəsli adlandırır. Onların dediyinə görə, ata-babaları nəsilbənəsil dulusçuluqla məşğul olmuşlar. Kəndin cənub tərəfində, böyük bir ərazidə çoxlu dulus kürəsinin qalıqları bu yaxınlara qədər qalmaqda idi. Ona görə də əhali bu ərazini "Kürələr olan düz" və ya "Kürənin düzü" adlandırmışdır.

Göynük kənd sakinlərinin verdiyi məlumata görə, kəndin şimal və şimal-şərqində, "Məşədiəkən" adlı yerin yaxınlığında, dağın ətəyində mağara var. Həmin mağara indiyədək tədqiq edilməyib. Bura yaxın ərazidə, kəndin cənubunda "Bayramuçan" adlı yerin yaxınlığında isə "Naxışnərgiz" adlı yaşayış məskəni olub. Bu kənd hazırda yoxdur.

Kənd ağsaqqalları kəndlərini "Kəklikli diyar", və ya "Civirli diyar" adlandırırlar. Deyilənə görə, "Civir" kolun, söyüdün bir növüdür. Onların babaları deyərmişlər ki, 150-200 il əvvəl buralar boyhaboy civir meşəsi olub. Bizim əcdadlarımız isə nəsilbənəsil dulusçu olublar.

Nəhəcir kəndindən "Plovtəpə"yə və onun ətəyində qeydə aldığımız qədim su kanalı olan əraziyə qədər uzanan yol "Bağırsaqdərə" və "Davılı yer" adlanan sahələrdən

keçir. Bu arx yağış suları nəticəsində yaranan süni göllərdən öz mənbəyini götürərək, ətraf ərazilərdə olan bir neçə hektar torpaq sahəsini suvarmaq üçün kifayət edir. Çünki, kəndin ətrafında bu gün də mövcud olan süni su anbarları-göllər buna əyani sübutdur. Arxın bir ucu "Sürəməlik" və "Kəlbərza" adlı yerdən Qotur Dizə kəndinə qədər uzanır. Bu yerə "Bağırsaqdərə" adını ona görə veriblər ki, yol dərə və təpələrin arasından burularaq keçir. "Davılı yer" (dava, döyüş olan yer) adı yerli qəbilələr arasında olan mübahisələrlə bağlıdır.

Buradan Qazançı istiqamətinə gedən köç yollarının üzərində "Göllər", "Xornu çayı", "Xaraba Keçili", "Hacıölən", "Gədik", "Milax yurdu", "Kola dərəsi", "Mərcanlı", "Sarıçeşmə" və s. kimi yurd adları vardır.

Culfa rayon sakinləri ilə söhbətlərdən və araşdırmalardan məlum oldu ki, xalqın soykökünə və tarixinə söykənən bu toponimlər dünənin, bu günün deyil, çox uzaq keçmişimizlə bağlıdır.

Orta Tunc dövrü abidələrinin tədqiqi göstərir ki, bu mədəniyyət oturaq və köçmə təsərrüfat həyat tərzini mənimsəmiş tayfalar tərəfindən yaradılmışdır (Belli Oktay, Bahşaliyev Veli, 2001, s.60). Bu dövrdə Naxçıvanda və Azərbaycanın cənub bölgələrində boyalı qablarla xarakterizə edilən mədəniyyət mövcud olmuşdur (V.Baxşəliyev, A.Seyidov, 1995, s.27-35). Naxçıvan ərazisində son illər aparılan araşdırmalar köçmə təsərrüfat həyat tərzi keçirən tayfaların köç yollarını müəyyən etməyə imkan vermişdir. Bu baxımdan, aparılan araşdırmalar zamanı toplanan toponomik və etnoqrafik materialların əhəmiyyəti vardır.

Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Orta Tunc dövründə əkinçi-maldar tayfaların əsas yaşayış mərkəzi Arazboyu ovalıq olmuşdur. Bu yaşayış məskənləri arasında I Kültəpə, II Kültəpə, Şahtaxtı, Xalac və b. başlıca yer tutmuşdur. Araz ovalığında məskunlaşan yarımköçmə təsərrüfatla məşğul olan əhali müxtəlif istiqamətlərdə dağlara köç etmişdir.

Aran ərazilərdən köç edən qədim maldar tayfalar Nəhəcir-Göynük-Qazançı-Milax-Ərəfsə-Boyəhməd yolu ilə Göygölə, oradan isə Gəmiqaya yaylaqlarınadək gedib çıxmış və şübhəsiz ki, bu dövrün bənzərsiz mədəniyyət abidələrindən olan Gəmiqaya təsvirlərinin yaranmasında iştirak etmişlər. Bu abidələrdə qədim tayfaların dini mifoloji görüşləri, həyat haqqında düşüncələri öz əksini tapmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Culfa rayonunun dağətəyi ərazilərinin Orta Tunc dövrü keramikası bir sıra lokal xüsusiyyətləri ilə fərqlənməklə, Cənubi Qafqazda yayılan boyalı qabların ortaq xüsusiyyətlərini özündə cəmləşdirir. Belə hesab edirik ki, Nəhəcir abidələrinin gələcəkdə daha geniş və hərtərəfli tədqiqi olduqca zəruridir.

## Culfa abidələrinin Azərbaycan və Cənubi Qafqaz tarixində yeri

Naxçıvan ərazisində ilk arxeoloji qazıntıların aparılmasından yüz əlli ilə yaxın vaxt keçsə də, bu müddət ərzində ərazidə xeyli tədqiqatlar aparılmış, zəngin abidələr və maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Həmin abidələr sırasında Culfa

rayonunun öz yeri vardır. Müəyyən olunmuşdur ki, bu region Azərbaycanın cənub bölgəsində boyalı qabların yayıldığı, bu mədəniyyətin inkişaf tapdığı ərazilərdən biridir.

Rayonun ərazində qeydə alınan və tədqiq olunan İlk, Orta, Son Tunc və Erkən Dəmir dövrünə aid yaşayış yerlərində və nekropollarda aparılan qazıntılar uğurlu nəticələr verdi. Bu baxımdan kromlexlə əhatə olunmuş torpaq qəbirin qazıntısı böyük əhəmiyyət daşıyır. Aşkar olunan keramika məmulatı Azərbaycanın Orta Tunc dövrü mədəniyyətinin erkən mərhələsini əks etdirən bir sıra elementləri dəqiqliklə izləməyə imkan verir. Qəbirlər kompleksində çəhrayı və boz rəngli qabların olması diqqəti daha çox çəkir. Çəhrayı rəngli qablar qırmızı boya ilə örtülməzdən əvvəl yaxşı cilalanmışdır. Onların bəzisi tünd qəhvəyi rəngli dalğalı və düz xətlərlə naxışlanıb. Belə hesab edirik ki, boya ilə örtülmədən birbaşa qabın narıncı rəngli səthinə çəkilən ornament boyalı qabların ən qədim nümunələrindəndir.

Məlum olduğu kimi, I Kültəpə və II Kültəpə qədim yaşayış yerlərinin İlk Tunc dövründən Orta Tunc dövrünə keçid laylarında bu tip çəhrayı rəngli keramikaya rast gəlinib. Bu tip boyalı qablar Cənubi Azərbaycanda Göytəpə yaşayış yerindən də məlumdur (Burton Brown, 1951, s.69).

Nəhəcir kromlexindən aşkar olunan digər çəhrayı rəngli qablar da Orta Tunc dövrünün erkən mərhələsi üçün xarakterik xüsusiyyətlərə malikdir. Nəhəcir boyalı küpəsi naxışlanma motivinin bəzi xüsusiyyətlərinə görə Təzəkənd materialları ilə həmahəngdir. Xüsusilə, bir-birinin ardında yerləşdirilmiş qövsvari xətlər Təzəkənd boyalı qablarının bəzəkləri ilə yaxınlıq təşkil edir. Məlum olduğu kimi, bu motivə Haftavantəpədə də rast gəlinmişdir (Burney, 1983).

Lakin bu motivlər Təzəkənd xaricində çox az yayılmışdır. Buna bənzər bəzi motivlərin Naxçıvan abidələrində rast gəlinməsinə əsaslanan tədqiqatçılar bu mədəniyyətin Naxçıvandan yayılması ehtimalını irəli sürmüşlər (Belli Oktay, Bahşaliyev Veli. 2001, s.53).

Tapıntılar içərisində boz rəngli, qara cilalı qablar olduqca əhəmiyyətlidir. Kasa, badya, küpə və çölmək tipli qablarla təmsil edilən bu keramikanın əsas xüsusiyyəti onların bir çoxunun çəhrayı astarlı olmasındadır. Bu baxımdan, qara cilalı, basma üsulla naxışlanmış qablar diqqəti cəlb edir. Çəhrayı astarlı olan belə qablar keyfiyyətli bişirilmiş, xaricdən qara rənglə örtülərək, parıldayanadək cilalanmış, birinin üzəri həndəsi, digəri isə təbərzin formalı naxışla bəzədilmişdir.

Basma üsulla naxışlanmış qablara Trialeti (Kuşnareva, 1993, s.109), Təzəkənd, Üzərliktəpə, II Kültəpə (Əliyev, 1979, s.34), Şahtaxtı və digər abidələrdə rast gəlinir.

Üzərliktəpədən aşkar olunan materiallar basma naxışlı bəzəyin Orta Tunc dövrünün ilk mərhələsində meydana gəldiyini və Azərbaycanın Qarabağ zonası üçün xarakterik olduğunu göstərir. Basma naxışlı keramika nümunələrinə II Kültəpədə dulus kürələrinin içərisində rast gəlinməsi, belə keramikanın Naxçıvanda da istehsalının olduğunu göstərir (Aliev, 1991, s.29-30).

Boz rəngli qabların bir qisminin çəhrayı astarlı olması Kür-Araz mədəniyyəti üçün xarakterik olan arxaik ənənələrin davam etdiyini sübut edir (Seidov, 1993, s.57). İri həcmli badya tipli qabları Orta Tunc dövründə geniş yayılan monoxrom boyalı qabların prototipləri hesab etmək olar. Belə badyalar və kasalar Naxçıvanda Şahtaxtı, Qaraçuğ, Çalxanqala, Qıvraq, Yaycı (Belli O. Bahşaliyev V. 2001, s.94) və digər abidələrdən məlumdur.

İstər boz, istərsə də çəhrayı rəngli keramika üzərində qulaqçıqşəkilli şiş çıxıntıların olması da arxaik elementlərdən hesab edilə bilər. Onlara Naxçıvanın Kür-Araz keramikasında, Trialeti mədəniyyətinə aid abidələrdə (Kuşnaryeva, 1993, s.104) rast gəlinmişdir. Ümumiyyətlə, Culfa abidələrinin, xüsusilə Nəhəcir nekropolunun materialları Orta Tunc dövrünə aid boz rəngli keramikanın xarakterik xüsusiyyətlərini dəqiqləşdirmək üçün olduqca əhəmiyyətlidir. Bu tapıntılar Orta Tunc dövründə boz rəngli keramikanın boyalı keramika ilə bərabər işlədildiyinin göstəricisidir. Qabarıq və batıq zolaqlardan ibarət bəzək və naxışlama Nəhəcirin Orta Tunc dövrü keramikasının əsas xüsusiyyətlərindən biridir. Nəhəcir nekropolunun materialları içərisində rast gəlinən formalar-uzunsov küpələr, yuvarlaq çölməklər, gövdə hissədə qabarıq kasalar aydın şəkildə özünü göstərir. Bu dövrün əsas xüsusiyyətlərindən biri də qabların qulpsuz olmalarıdır.

Arxeoloji materiallar içərisində monoxrom boyalı, səkkiz guşəli ulduzla naxışlanmış çölmək Naxçıvanda yaşayan qədim tayfaların inanclarını öyrənmək baxımından əhəmiyyətlidir. Boyalı qabların ulduz təsviri ilə bəzədilməsinə əvvəllər də rast gəlinmişdir (Aliev, 1991, s.110). Lakin bu çölmək belə motivdə naxışlanmış ən qədim nümunələrdən hesab edilə bilər. Belə naxışlarda qədim Naxçıvan tayfalarının inancında göy cisimlərinə sitayişin geniş yer tutduğu görünür. Hazırlanma texnologiyası və naxışlanma motivinə görə Naxçıvan boyalı qabları ilə yaxın bənzərlik göstərən bu nümunə ağzının və oturacağının formasına görə özünəməxsus xüsusiyyətə malikdir. Onun ağzının kənarı qapaq qoymaq üçün pilləli, oturacağı halqadabanlıdır. Bu tip çölməyə indiyədək Cənubi Qafqazın gil məmulatı arasında rast gəlinməmişdir.

Halqadabanlı qablar Göytəpənin Eneolit dövrünə aid boyalı qabları üçün xarakterikdir (Burton-Braun,1955). Ön Asiyanın Eneolit dövrü boyalı qabları ilə Azərbaycanın Orta Tunc dövrü boyalı qabları arasında Kür-Araz mədəniyyəti ilə kəsilən böyük fasilənin olmasına baxmayaraq, Orta Tunc boyalılarının Eneolit dövrünün boyalı keramikasını forma və naxışlanma motivinə görə təkrarlaması onlar arasında müəyyən genetik bağlılığın olduğunu göstərir (Baxşaliyev V. 1992, s.10-27).

Orta Tunc dövrü boyalı qablarının yalnız Cənubi Qafqazın cənub bölgələrində geniş yayılması onun Ön Asiya ilə bağlılığı ehtimalını doğurur. Belə ki, Naxçıvan-Urmiya hövzəsi və Şərqi Anadolu ərazisində boyalı qablar mədəniyyətinin çiçəkləndiyi bir dövrdə Cənubi Qafqazın digər bölgələrində qara rəngli keramika ilə xarakterizə edilən bir mədəniyyət mövcud olmuşdur.

Naxçıvanda yayılan Orta Tunc dövrü mədəniyyətinin hansı tayfalar tərəfindən yaradılmasını ortaya çıxarmaq tədqiqatçıların qarşısında duran ən mühüm vəzifələrdən

biridir. Qədim yazılı mənbələr Orta Tunc dövründə Naxçıvanda yaşayan tayfalar haqqında məlumat vermir. Lakin araşdırmalar göstərir ki, Naxçıvanda mövcud olan boyalı qablar mədəniyyəti qapalı xarakter daşımamışdır. Bu mədəniyyət Urmiya hövzəsini və Şimal-Şərqi Anadolu da daxil olmaqla, böyük bir ərazini əhatə etmişdir (Belli, Bahşaliyev, 2001, s.61). Belə hesab edirik ki, Naxçıvanda yaşayan tayfalar Urmiya hövzəsi və Şimal-Şərqi Anadolu tayfaları ilə etnik və mədəni cəhətdən vahid bir topluma daxil olmuşlar.

Məlum olduğu kimi, qədim yazılı mənbələr e.ə. III minilliyin sonunda Urmiya hövzəsində yaşayan prototürklər-kuti, lullubi, su və turukki tayfalarının adını xatırlamışdır (Azərbaycan tarixi, 1994, s. 69-81). İ.M.Dyakonovun fikrincə, kutilər qüvvətlənən lullubi tayfaları tərəfindən Ön Qafqaza sıxışdırılmışdır (Dyakonov, 1966, s.116). Ehtimal ki, boyalı qablar mədəniyyətinin yaradılmasında lullubi, su, turukki (türk) tayfalarının mühüm rolu olmuşdur.

Beləliklə, yuxarıda söylənənlər Culfa abidələrinin böyük tarixi əhəmiyyəti olduğunu göstərir. Aparılan araşdırmalardan aşağıdakı nəticəyə gəlirik ki, bu tapıntılar Azərbaycanın Orta Tunc dövrü mədəniyyətinin mənşəyinin araşdırılması üçün çox əhəmiyyətlidir. Xüsusən, Nəhəcir yaşayış yerindən aşkar olunmuş boyalı keramika Orta Tunc dövrü mədəniyyətinin ilk və inkişaf etmiş mərhələsini özündə əks etdirir. Qablar qırmızı boya ilə örtülərək, parıldayanadək cilalanmış, qara rənglə naxışlanmışdır. Ümumiyyətlə, Nəhəcir keramikasında Naxçıvan boyalı qablarının ilk mərhələləri üçün xarakterik olan bütün xüsusiyyətlər izlənilir. Burada monoxrom boyalı keramikaya bol-bol rast gəlindiyi halda, polixrom boyalılara heç rast gəlinmir. Yəqin ki, gələcək araşdırmalar zamanı boyalı qablar mədəniyyətinin digər mərhələlərini də izləmək mümkün olacaqdır.

# NƏTİCƏ

Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun ərazisi təbii cəhətdən bol sulu çaylarla, otlaq sahələri yeraltı və yerüstü sərvətləri ilə zəngin olduğundan, burada ibtidai insanlar 5-6 min il bundan əvvəl yaşamağa başlamışlar. Apardığımız arxeoloji tədqiqatlar nəticəsində minilliklər ərzində burada yaşamış qədim tayfalara mənsub abidələr kompleksi araşdırılmışdır. Ərazinin İlk, Orta, Son Tunc, Antik, Orta əsrlər dövrü abidələrinin kompleks tədqiqi arxeoloji mədəniyyətlərin bütövlüyünü göstərir. Aşkar olunan arxeoloji materiallar həm də bu dövrdə qədim tayfaların oturaq və yarımköçmə təsərrüfat həyatını mənimsədiyinə işarədir.

Culfa rayonu ərazisindəki qədim yaşayış yerlərinin müdafiə üçün əlverişli mövqelərdə salınması, müxtəlif dövrlərdə qədim tayfaların xarici basqınlara məruz qaldığını və tayfalararası ziddiyyətlərin kəskinləşdiyini göstərir. Yaşayış yerlərinin bəzi hissələrində qalan, müdafiə məqsədilə tikilən divar qalıqları da bunu sübut edir.

Rayonun qədim dövr abidələri muxtar respublikanın digər bölgələrinə nisbətən zəif öyrənilsə də, qəbir abidələrinin və digər tarixi, arxeoloji mədəniyyət qalıqlarının tədqiqi hələ Tunc dövründən başlayaraq bu məkanda sinifli cəmiyyətin və təbəqələşmənin mövcudluğundan xəbər verir. Belə ki, sıravi qəbilə üzvləri sadə daş qutu qəbirlərdə dəfn edildiyi halda, çox güman ki, kromlexli kurqanlar adlı-sanlı adamlar üçün düzəldilmişdir. Diametri 22 metrə çatan belə kurqanların qurulması da müəyyən təşkilati işin, idarəçiliyin olduğunu sübut edir.

Culfa tapıntıları Tunc dövrünün mərhələlərini izləmək üçün də dəyərlidir. Arxeoloji materialların araşdırılması göstərir ki, bu dövrdə Kür-Araz mədəniyyəti üçün xarakterik olan bəzi xüsusiyyətlər sonrakı mərhələlərdə də davam etmişdir.

Qeyd edək ki, ilkin metallurgiyanın inkişafını təmin edən mərgümüş yataqları Culfa rayonundan 8-9 km şimal-şərqdə, Darıdağ ərazisində yerləşir. Bu yataq qədim zamanlardan məlumdur. Yüz illərlə bu ərazidən realqar və auripiqment çıxarılmışdır. Məlumdur ki, bu minerallar çox gözəl, gözoxşayan rənglərə malikdir. Realqar narıncı, auripiqment isə sarı rəngdədir. Buna görə də bu minerallar qədim mədənçilərin diqqətini cəlb etimiş və onlardan ən qədim zamanlardan istifadə olunmuşdur. Bu minerallar prof. İ.R.Səlimxanovun rəhbərliyi ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji-Texnoloji Laboratoriyasında tədqiq olunaraq müəyyən edilib ki, məhz realqar və auripiqment (mislə əridilib) mis-mərgümüş ərintiləri almaq üçün istifadə olunmuşdur.

Darıdağda antimonit (sürmənin mineralı) mərgümüş və digər minerallarla paragenezisdə yerləşir. Antimonit üç sahədə müşahidə olunur: şimal-qərbdə, cənub-şərqdə və mərkəzdə. Şimal-qərb və cənub-şərq sahələrində antimonit az miqdarda, realqar və auripiqmentlə müşahidə olunur. Mərkəzi sahədə antimonit yuva tipli filizdən ibarət olmaqla, yatağın əsas hissəsini təşkil edir.

Naxçıvanın Tunc və Erkən Dəmir dövrü arxeoloji abidələrindən tapılmış metal əşyaların miqdarı-spektral analizlərinin nəticələrindən məlum olur ki, onlar tərkibinə görə iki qrupa ayrılır:

- tərkibində qalay olmayan əşyalar;

- qalaylı əşyalar.

Birinci qrupa aid (tərkibində qalay olmayan əşyalar) əşyaların tarixi e.ə. VI minilliyin birinci yarısı və ya ortalarından başlayır və bəzi hallarda e.ə. III minlliyin ikinci yarısına qədər davam edir. Bu metallurgiyanın erkən dövrüdür və iki mərhələyə bölünür:

1. İnsanın təbii metalla tanışlığı. Bu təbii mis olmuşdur. İbtidai insan onu dərk edərək əvvəl onun emalı ilə soyuq döymə üsulu ilə məşğul olmuş, sonralar isti döymə üsulu ilə ondan xırda bəzək əşyaları hazırlamağı bacarmışdır. Bir qədər sonra insan misi əritməyə başlamış və mis əşyalar meydana çıxmışdır (1 Kültəpə, Ovçular təpəsi). Misi əritməklə bərabər, insan mis-mərgümüş ərintisindən tunc əldə etmişdir (1 Kültəpədə 2 mis-mərgümüşlü əşya). Bu mərhələ e.ə.VI minilliyin birinci yarısı və ortalarından e.ə.V minilliyin sonlarına qədər davam edir. Bu dövr metallurgiya sahəsində ilk addımların atılmasıdır. Bu mərhələnin metal məmulatı yaşayış yerləri və qəbir abidəsindən (1 Kültəpə) tapılmış kiçik məişət və bəzək əşyalarından ibarətdir.

2. E.ə. IV minillikdən e.ə. III minilliyin ortaları və ya ikinci yarısına qədər davam edir. Bu mərhələdə insan artıq mis-mərgümüş metallurgiyasını mənimsəyir və əksər metallarda yüksək faizli mərgümüş filizi müşahidə olunur. Bu mərhələ Azərbaycanda mis-mərgümüş dövrü adlanır. Əsas ərinti kimi mərgümüş başlıca rol oynayır. Təkcə metal əridilməsi yox, onun qəliblərə tökülməsi işi mənimsənilərək, daha geniş yer alır. Məhsulların çeşidi artır. Daha böyük və keyfiyyətli əşyalar istehsal olunur.

Son olaraq qeyd etmək istəyirik ki, bununla Culfa bölgəsinin abidələrinin öyrənilməsini bitmiş hesab etmək olmaz. Biz bu günə qədər bu ərazidə aparılmış arxeoloji tədqiqat və qazıntı işlərini, qədim abidələri bir araya toplamaqla mövcud araşdırmaları toplu halında ümumiləşdirdik. Lakin Culfa rayonu ərazisində onlarla açılmamış abidə öz tədqiqatçısını gözləyir. Söz yox ki, gələcək tədqiqatçılar yeni materiallar əsasında bir sıra açıq qalmış məsələlərin daha dolğun, geniş izahını verəcək və o zaman bizi də öyrənilmə tarixinə keçirib, öz yeni fikirlərini söyləyəcəklər.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Эльм, 1982, 314 с.
2. Абибулаев О.А. К изучению холма Кюльтепе. – ТИИФ, Баку, 1956
3. Абибулаев О.А. Некоторые итоги изучения холма Кюль-Тепе в Азербайджане.- СА, №3, 1963.
4. Алиев В.Г. Археологические исследования памятников эпохи бронзы Нахчывана. ММНК. Археология и Этнография Кавказа, Баку, 2000, с.40-42.
5. Алиев В.Г. Поселения куро-аракcской культуры Нахичеванского края. Тезисы докладов международной научной сессии, Тбилиси, 1997, с. 56-58.
6. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Эльм, 1991, 256 с.
7. Алиев В.Г., Бахшалиев В.Б. Новые археологические находки по древней металлургии Нахичевани. АЭИА, Баку: Эльм, 1986, с. 11-14.
8. Алиев Н.Г., Нариманов И.Г. Культура Северного Азербайджана в эпоху позднего энеолита. Баку: Агридаг, 2001, 144 с.
9. Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана. Баку, Издательство АН Азербайджанской ССР, 1960, 249 с.
10. Алекперов А.А. Крашеная керамика Нахичеванского края и Ванское царство. СА, №4, 1937.
11. Алекперов А.И. Терракота древнего Азербайджана. – Автореф. Дисс.канд.ист.наук., Киев, 1986.
12. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древней Мингечаур (Эпоха енеолита и бронзы). – Баку, 1959.
13. Аразова Р.Б., О поселениях эпохи ранней бронзы в Кусарском районе – ДАН Азербайджанская ССР, т.XXXVI, №1, 1980.
14. Арциховский В.В. Основы археологии. М., 1954.
15. Ахундов Т.М., Махмудова В.А. Южный Кавказ в кавказско-переднеазиатских этнокультурных процессах IV тыс.до н.э., Баку, 2008.
16. Ашуров С.Г. Результаты археологических раскопок международных экспедиций в Нахичеванской АР Азербайджанской Республики. Историко-культурное наследие Арало-Каспийского региона. Материалы международной научно-практической конференции. Актау, 2007.
17. Ашуров С.Г. Новые исследования куро-аракских памятников Нахчывана. Проблемы хронологии и периодизации археологических памятников и

культур Северного Кавказа. XXVI “Крупновсие чтения” по археологии Северного Кавказа. Магас – 2010.
18. Aşurov S.H. Baxşəliyev V.B. Şərurda arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı, 2008.
19. Aşurov S.H. Maxta Tunc dövrü yaşayış yerləri. AEA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1991, №4
20. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, 2002.
21. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002). Bakı: Nafta-Press, 2003, 120 s.
22. Aşurov S.H., Baxşəliyev V.B., Hüseynova S., Əliyeva F.A., Əliyev O.K. I Maxtada 2009-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar 2009, Bakı 2010.
23. Ashurov S.G. An introduction to Bronze Age sites in the Sarur plain Archaologische Mitteilungen aus Iran and Turan. Berlin, № 37, 2005.
24. Бибиков С.Н. Раннетрипольское поселение Лука – Врублевская. МИА СССР, №38, 1953.
25. Бунятов Т.А. К истории молотьбы в Закавказье. – В кн.; Кавказ и Восточная Европа в древности. М., 1973.
26. Bahaeddin Ögel Türk kültürünün gelişme çağları. İstanbul, 1988.
27. Belli Oktay, Bahşaliyev Veli. Middle and Late Bronz Age Painted Pottery culture of the Nahchıvan Region. Istanbul: Arkeoloji ve Sanat Yayınları, 2001.
28. Bahshaliyev V. The archaeology of Nakhchivan. İstanbul: Arkeoloji ve Sanat, 1997, 128 s.
29. Bakhshaliyev V., Ristvet L., Ashurov S. The Chronology Kura-Arakses Sites: 2006 Excavations at Kultepe II and Maxta I. Azerbaijan-Land between East and West. Transfer of knowledge and technology during the “First Globalization” of the VIIth-IVth millennium B.C. Berlin-Baku, 2009, p. 82-87
30. Bakhshaliyev V., Ristvet L., Ashurov S. The Chronology of Kura-Araxes Sites; 2006 Excavations at Kultepe II and Maxta I Azerbaijan. Land between East and West. Transfer of knowledge and technology during the “First Globalization” of the VIIth – IVth millennium BC. Berlin 2009.
31. Bakhshaliyev V., Marro, C. The Archaeology of Nakhichevan: Ten years of new discoveries. Istanbul: Ege, 2009, 118 s
32. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
33. Baxşəliyev V., Seyidov A., Aşağı Daşarx., Bakı, 2012.
34. Brown T.B. Excavations in Azerbaijan, 1948., London: John Murray, 1951, 279 p.

35. Burney C.A. The Excavations at Janic Tepe, Azerbaijan. Second Preliminary Report. “Irag”, vol.XXIV, 1961
36. Burney C.A. Eastern Anatolia in the Chalcolithic and Early Bronze Age. Anatolian studies, 1958, vol., VIII, p. 157-199.
37. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında), Bakı, Elm, 2000, 187 s.
38. Cəfərov H.F. Qədim Azərbaycanda atçılığın və ata sitayişin təşəkkülü və inkişafı tarixindən. Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçılarının üçüncü respublika elmi konfransının məruzələr məcmuəsi. Bakı, 1995.
39. Calvet Yves Un niveau de la period Uruk a Tell El| Oueili. Oueili travaux de 1985. Sous la direction de Jean-Louis Huot. Paris: Editions Recherch sur les Civilisations, 1991, p.159-209.
40. Гаджиев М.Г. Раннеземледельческая культура северо-восточного Кавказа. (эпоха энеолита и ранней бронзы), Москва: Наука, 1991, 264 с.
41. Гулиев Ф. Урукская керамика Южного Кавказа // Археология, этнология, фолклористика Кавказа. Баку: Нурлан, 2005, 82.
42. Гуммель Я.И. Археологические очерки. Баку, 1940.
43. Гуммель Я.И. Археологические раскопки в районах Азербайджанская ССР. Азербайджанский ФАН СССР. 1939, №3.
44. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М.: Изд-во иностранной литературы, 1956, 383 ъ.
45. Чубинишвили Т.Н. Оседло-земледельческая энеолитическая культура Южного Кавказа (V-и IV тысячелетия до н.э.) и ее некоторые параллели из археологии Ирана. – т.д. всесоюзной конференции по искусству и археологии Ирана, М., 1969.
46. Чубинишвили Т.Н. К древней истории Южного Кавказа. – Тбилиси, 1971
47. Чубинишвили Т.Н. Амиранис-гора. Тбилиси, 1963.
48. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку, 1984.
49. Джафаров Г.Ф. Древнейшие связи Азербайджанских племен со странами Ближнего Востока. (Из серии “Памятники материальной культуры Азербайджана”), Баку: Эльм, 1985, 18 с.
50. Джапаридзе О.М. Культура раннеземледельческих племен на территории Грузии (ВЫЫ Международный конгресс антропологических и этнографических наук). – М., 1964.

51. Джапаридзе О.М. К истории грузинских племен на ранней стадии медно-бронзовой культуры. – Автореф. дисс. докт. ист. наук, Тбилиси, 1962.
52. Джафарзаде И.М. Наскальные изображения Кобустана. Археологические исследования в Азербайджане. – Баку, 1965.
53. Джапаридзе О.М. Ранний этап древней металлургии в Грузии. Тбилиси: Издательство ГТЛ, 1955, 108 с.
54. Хлопин И.Н. Образ быка в первобытных земледельцев Средней Азии. – В кн.: Древний восток и Мировая культура., М., . 1981.
55. Кавтарадзе Г.Л. Хронология археологических культур Грузии эпохи энеолита и бронзы в свете новых данных. Тбилиси, “Мацниереба”, 1981, 169 с.
56. Кубарев В.Д. Древнетюркские изваяния Алтая. Новосибирск, 1984.
57. Крупнов Е.И. Древняя история Северного Кавказа. – М., 1960.
58. Крупнов Е.И. Древнейшая культура Кавказа и Кавказская этническая общность (к проблеме происхождения коренных народов Кавказа. – СА, №1, 1964.
59. Котович. В.М. Верхнегунибское поселение. Махачкала, 1965.
60. Котович В.Г. Новые археологические памятники Южного Дагестана. МАД, Махачкала, 1959.
61. Киквидзе Я.А. Раннебронзовое поселение Хизанаант-гора. – Тбилиси, 1972.
62. Круглов А.П. Северо-восточный Кавказ во II-I тысячелетиях до н.э. – В Кн.: Древние племена и народности Кавказа, МИА СССР, №65, М.-Л., 1958.
63. Казиев С.М. Археологические раскопки в Мингечауре. – МКА, т.I, Баку, 1949.
64. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси: Издательство АН Грузинской ССР, 1941, 231 с.
65. Куфтин Б.А. Урартский “Колумбарий” у подошвы Арарата и куро-аракский энеолит. Тбилиси: Изд-во АН Грузинской ССР, 1944, с. 73-117.
66. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград: Наука, 1970, 191 с.
67. Кушнарева К.Х. Южный Кавказ в IX-II тысячелетиях до н.э. Санкт-Петербург, 1993, 312 с.
68. Исмаилов Г.С. Археологические исследования древнего поселения Бабадервиш. Баку: Элм, 1978, 101 с.
69. Исмаилов Г.С. Археологические исследование древнего поселения Баба-Дервиш. – Баку, 1977.

70. Исмаилов Г.С. Исследования наскальных изображений в верховьях р. Тертерчай. Археологические Открытия, 1976, Москва, 1977, с. 492.

71. Исмаилов Г.С. Раннебронзовая культура Азербайджана. Автореф. диссерт. на соиск. докт. ист. наук. Тбилиси, 1983, 39 с.

72. Исмаилов Г.С. Орнаментация керамики древнего поселения Баба-Дервиш и ее взаимосвязи с энеолитическими памятниками Закавказья. – АИА, Баку, 1965.

73. Исмаилов Г.С. Новые данные о развитии крупного рогатого скота в древнем Азербайджане. – ДАН Азербайджанская ССР, т.XXII. №11, 1966.

74. Жоржикашвили Л.Г., Гогадзе Э.М. Памятники Триалети ранней и средней бронзы. Тбилиси: Мечниереба, 1974, 125 с.

75. Лисицына Г.Н. Орошаемое земледелие эпохи энеолита на юге Туркмении. Москва, "Наука", 1965.

76. Массон В.М. Поселения Джейтун. Ленинград, "Наука", 1971.

77. Махмудов Ф.Р., Нариманов И.Г. О раскопках на поселении Аликемектепеси. АО 1971 г., М.: Наука, 1972, с.480-481.

78. Мунчаев Р.М. Каякентское поселение и проблема Кавказского энеолита. – СА, XXII, 1955.

79. Мунчаев Р.М. Кавказ на заре бронзового века. М.: Наука, 1975. 414 с

80. Мунчаев Р.М. Древнейшая культура Северо-Восточного Кавказа. МИА СССР, М., 1961, № 100. 191 с.

81. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Автореф. диссерт. на соиск. канд. ист. наук, Баку, 1974, 30 с.

82. Нариманов И.Г. Культура древнейшего земледельческо скотоводческого населения Азербайджана. – Баку, 1987.

83. Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии меди на территории Азербайджана. Советская Археология, № 1, 1990, с. 5-14.

84. Нариманов И.Г. Культура равнин Восточного Закавказья в ранней бронзе. Тезисы докладов конференции "Культурный прогресс в эпоху бронзы и раннего железа". Ереван: Издательство АН Арм. ССР, 1982, с.44-45.

85. Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлатепе. Баку, 2007.

86. Рагимова М.Н. Свинец в древнем Азербайджане. Из серии ПМКА., Баку, 1985.

87. Сеидов М.М. Изучение памятников эпохи поздней бронзы и раннего железа в Нахичеванской АССР. (из серии "Памятники материальной культуры Азербайджана"), Баку, 1985, 10 с.

88. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977.
89. Пиотровский Б.Б. Археология Закавказья (с древнейших времен до I тыс. до н.э.), Курс лекции. – Л., 1943.
90. Пиотровский Б.Б. Поселение медного века в Армении. – СА, т.XI, 1949.
91. Пиотровский Б.Б. Развитие скотоводства в древнейшем Закавказье – СА, XXIII, 1955.
92. Хрестоматия по истории древнего Востока. М., 1980, часть I.
93. Шарифов Д. Раскопки близ села Човдар Гянджинского уезда. Изв. Аскомсториса, 1928, вып. IV.
94. Akhundov T. Sites de migrants venus du Proche-Orient en Transcaucasie. Sous la direction de Bertille Lyonnet. Les cultures du Caucase (VIe-IIIe millenaires avant notre ere). Paris: CNRS EDUTIONS, 2007, p. 95-121.
95. Dyson R.H. Problems in the relative chronology of Iran 6000-2000 b.c. JOWA, 1964.
96. Edwards M.R. The pottery of Haftavan Tepe VI B (Urmia Ware). Iran, 1981, volume, XIX, p.101-140.
97. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2010.
98. Ələkbərova M.İ. Maraqlı tapıntılar. – “Elm və həyat” jurnalı, №9, 1984.
99. Əliyev V.H., Aşurov S.H. Naxçıvan arxeoloji ekspedisiyasının 1988-ci il tədqiqatlarının hesabatı. Azərbaycan EA Tİ EA inv. № H-487, 28.
100. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
101. Əliyev V.H. Qədim Naxçıvan. – Bakı, 1979.
102. Əliyev V.H. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüqüq), 1983, № 4, s.79-87.
103. Əliyev V.H., Aşurov S.H. Naxçıvan arxeoloji ekspedisiyasının 1989-cu il qazıntılarının hesabatı.- Azərbaycan SSR EA TİÇTŞA, h-№466a
104. Frangipane M. The Late Chalcolithic/ EB I sequence at Arslantepe. Chronoligical and cultural remarks from a frontier site. In C. Marro and H. Hauptmann, Chronologie des Pays du Caucase et de l’Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d’Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, Paris, 2000, p.439-471.
105. Gülçur S. Die Chalkolitische Keramik von Norsuntepe (Elazig/Südosttürkei). Unpublished PhD. Thesis, University of Tübingen 1988.

106. Gülçur, S. Norşuntepe : die chalkolitischen Keramik (Elazığ/Ost Anatolien. In C. Marro and H. Hauptmann, Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, 2000, Paris, p.375-418.
107. Hauptmann H. Die Grabungen aus dem Norsuntepe, 1973. In Keban Project 1973 Activities, METU, Keban Project Publications, Series I n°6, Ankara, 1979, p.61-78.
108. Hauptmann H. Die Grabungen auf dem Norşun-tepe 1974 ". In Keban Project 1974-1975 Activities, METU, Keban Project Publications, Series I n°7, Ankara, 1982, p. 41-70
109. Helwing B.  Regional variation in the cjmposition of Late Chalcolithic pottery assemblage. In C. Marro and H. Hauptmann, Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, Paris, 2000, p.145-164.
110. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1959, 134 s.
111. Hüseynova S.A., Əliyeva F.A. I Maxta yaşayış yerinin ocaq qurğuları. "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, 2009, №2
112. İsmayılov Q.S. Baba-Dərviş abidəsindən tapılan gil fiqurlar. – Azərbaycan SSR EA "Məruzələri", №10, XVIII c., 1962
113. İsmayılov Q.S. Azərbaycan ərazisində ən qədim əkinçi-maldar qəbilələrin tarixinə dair. – Tarix, ictimaiyyat, coğrafiya tədrisi jurnalı, №6, Bakı, 1969.
114. İsmayılov Q.S. Fizuli rayonunda Uzuntəpə İlk Tunc dövrü yaşayış yeri. – Azərbaycan SSR EA "Xəbərlər"i (TFHS), №4, 1973.
115. İsmayılov Q.S. Çoxsəhifəli tarixi səlnaməmiz.- "Elm və həyat" jurnalı. №6, 1979.
116. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. – Bakı, 1981.
117. Kiguradze T. The Chalcholithic – Early Bronze Age transition in the eastern Caucasus. In C. Marro and Hauptmann H. Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, Paris, 2000, p.321-325
118. Kosaj H., Turfan K. Erzurum Karaz kazisi reporu. Türk tarih kurumu. Bulleten, cild XXIII, saji 91, 1959.
119. Lebeau M. La ceramique Obeid 1 de Tell el Oueili. Rapport Preliminaire. Oueili travaux de 1985. Sous la direction de Jean-Louis Huot. Paris: Editions Recherch sur les Civilisations, 1991 , p.211-266.

120. Lyonnet B. La Mésopotamie et le Caucase du Nord au IVème et au début du IIIème millénaires av. n.è.: leurs rapports et les problèmes chronologiques de la culture de Majkop. Etat de la question et nouvelles propositions. In C. Marro and H. Hauptmann (ed.), Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, 2000,Paris , p. 299-320.
121. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavations at Ovchular tepesi (Nakhchivan, Azerbaijan). First preliminary report: The 2006-2008 seasons. Anatolia Antiqua XVII (2009).
122. Marro C., Bakhshaliyev V., Aşurov S. Excavation at Ovchular tepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons. Anatolia Antiqua, XIX, 2011, s. 53-100.
123. Marro C. Late Chalcolithic ceramic cultures in the Anatolian Highlands. ANES, Edited by Karen S.Rubinson and Antonio Sagona. Leuven-Paris-Dudley, 2008, p.9-37.
124. Marro C. Upper-Mesopotamia and Transcaucasia in the Late Chalcolithic period (4000-3500 BC). Sous la direction de Bertille Lyonnet. Les cultures du Caucase (VIe-IIIe millenaires avant notre ere). Paris: CNRS EDUTIONS, 2007, p. 77-94.
125. Marro, C. and A. Özfirat. Pre-classical Survey in Eastern Turkey. First preliminary Report : the Agrı Dag (Mount Ararat) region. In Anatolia Antiqua, 2003, XI, IFEA, Paris, p.385-422.
126. Marro C. and A. Özfirat. "Pre-classical Survey in Eastern Turkey. Third preliminary Report : the Dogubeyazit region". In Anatolia Antiqua, 2005,XIII, IFEA, Paris, p. 319-356
127. Marro C., Tibet A. et Ergeç R. Fouilles de sauvetage de Horum Höyük (province de Gaziantep): deuxieme rapport preliminaire. Anatolia Antiqua VI, 1999, p. 349-678.
128. Mellart J. The Neolithic of the Near East. London, 1975.
129. Məmmədov S.M. İntensiv urbanizasiya mühitində kənd təsərrüfatının inkişafı. Bakı, 2010.
130. Muradova F.M., İsmayılov Q.S., Azərbaycan ərazisində "Kür-Araz mədəniyyətinə" aid ocaq qurğuları. Azərbaycan SSR EA "Xəbərləri" (t.f.h seriyası) №2, 1972.
131. Muradova F.M. Qobustan Tunc dövründə. Bakı: Elm, 1979, 117 s.
132. Müseyibli N. Böyük Kəsik Eneolit yaşayış məskəni. Bakı: Nafta-Press, 2007.
133. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008.

134. Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
135. Nərimanov İ.Q. Sarıtəpə yaşayış yerində arxeoloji qazıntılar (1956-1957). – Azərbaycan SSR EA "Xəbərlər"i (İES), №3, 1959
136. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982.
137. Özgen E., Helwing B., Engin A., Niewenhuyse O., Spoor R. Oylum Höyük 1997-1998. Die spatchalkolitische Siedlung auf der Westterrasse. Anatolia Antiqua VII, 1999, p. 19-67.
138. Rəhimova M.N. Azərbaycanın qədim metallurgiyasında sürmə., Bakı, 2011.
139. Rzayev N., Möcüzəli qərinələr. Bakı, 1984.
140. Sarit Paz. A Home Away from Home? The Settlement of Early Trans Caucasian Migrants at Tel Bet Jerah. Tel AVIV. Journal of the Institute of Archaeology of Tel-Aviv University. 2009, vol 36
141. Seyidov A.Q. Azərbaycan ərazisində qədim metallurgiya və onun inkişaf mərhələləri (e.ə.IV-II minilliklər) Sosial bilgilər, 2000a, № 2, s.8-13.
142. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə., Bakı, 2003.
143. Seyidov A.Q. Həsənova Ə.M., Naxçıvanın qədim metalı., Bakı, Elm, 2005.
144. Seyidov A.Q. Naxçıvan 5000., Bakı, 2011.
145. Seyidov A.Q. Gəmiqaya., Bakı, 2003.
146. Seyidov A.Q. Naxçıvan Tunc dövründə. Bakı: Elm, 2000b, 318 s.
147. Seyidov A.Q. Naxçıvanın İlk Tunc dövrü abidələri və onların dövrləşdirilməsi (Azərbaycan və ingilis dillərində), Bakı: Çaşıoğlu, 2000, 110 s.
148. Seyidov A., Baxşəliyev V., Mahmudova V. Xələc. Bakı: 2010, 218 s.
149. Seyidov A., Baxşəliyev V. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
150. Seyidov A., Baxşəliyev V. Sədərək. Bakı: Elm, 2011, 184 s.
151. Seyidov A., Baxşəliyev V., Nəhəcirdə arxeoloji araşdırmalar, Bakı, "İqtisad Universiteti", 2002, 12,5 ç.v.
152. Seyidov A., Culfa rayonu ərazisində arxeoloji kəşfiyyat işləri., 2013-2014-cü ildə aparılmış və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş Elmi sessiyanın Materialları. Bakı, 24 aprel, 2015, səh. 111.
153. Seyidov A., Babək və Culfa rayonları ərazisində 2015-ci ildə aparılmış arxeoloji qazıntı işləri. Azərbaycanda Arxeoloji Tədqiqatlar 2015-2016, Bakı, 2017, səh.
154. Seyidov A., Naxçıvan ərazisində orta əsrlərdə karvan yolları üzərində salınan körpülər. Lənkaran Dövlət Universiteti, 4-5 may, 2017. səh.
155. Seyidov A., Əlibəyova G., Qədim Naxçıvan tayfalarının ideoloji baxışlarının

izləri kurqan abidələrində (e.ə.ıv-ıı minilliklər). “Tarix, insan və cəmiyyət” jurnalı, № 3, 2017 (18), səh.13-20.

156. Seyidov A., Culfa bölgəsində arxeoloji kəşfiyyat işləri. AMEA-nın müxbir üzvü Arif Abbasovun 80 illik yubileyinə həsr olunmuş Konfransın materialları, Bakı, dekabr, 2017.
157. Seyidov A., Nəhəcir qədim abidələr kompleksi. “Şərq qapısı”. 10 avqust, 2002.
158. Seyidov A., Nəhəcir qalası. “Şərq qapısı” 29 avqust, 2002.
159. Seyidov A., Nəhəcir qədim abidələr kompleksi. “Azərbaycan Arxeologiyası” jurnalı, 2002, №-3-4. s.20-22.
160. Seyidov A., 2002-ci ildə Culfa rayonu ərazisində aparılmış arxeoloji tədqiqatlar haqqında. AEİ-nin 10 illiyinə həsr olunmuş elmi konfr. material., Bakı, 2003. s.39-41.
161. Seyidov A., Nəhəcir kurqanlarının dəfn adəti. Naxçıvan Regional Elm Mərkəzi, əsər. VII bur. Bakı, “Elm”, 2003. s.64-65.
162. Seyidov A., Orta Tunc dövrünə aid Nəhəcir daş qutu qəbri. AEİ-nin 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2003. s.41-43.
163. Seyidov A., Nəhəcirin Orta Tunc dövrü keramikasının bəzi xüsusiyyətləri. Elmi praktik. konfransı. tezisləri, Bakı, 2003. s. 237.
164. Seyidov A., Göynük abidələri. “Şərq qapısı”. 26 avqust, 2003.
165. Seyidov A., Nəhəcir qalasında arxeoloji araşdırmalar. Elmi praktik konfransı. tezisləri, Bakı, 2003. s. 238.
166. Seyidov A., Göynük abidələri. “Arxeologiya və Etnoqrafiya” jurnalı. №3, 2003. s.70-75.
167. Seyidov A., Naxçıvanın Tunc dövrü mədəniyyəti. Doktorluq dissertasiyası. Avtoreferatı. Bakı, 2003. 3,1 çap vərəqi.
168. Seyidov A., Culfa rayonu ərazisində aparılmış arxeoloji qazıntıların hesabatı. AMEA AEİ EA.Bakı, 2003,1,8 ç.v.
169. Seyidov A., 2002-2003-cü illərdə Culfa rayonu ərazisində arxeoloji tədqiqatlar. Azərbaycan maddi mədəniyyət toplusu, 2004. s. 41-44.
170. Seyidov A., Culfa rayonunun Göynük kəndi ərazisində arxeoloji tədqiqatlar. Elmi sessiyanın materialları. (2003-2004), Bakı, 2005. c.33-35.
171. Səfərli H.F. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013, 328 s.
172. Сеидов А.Г. Памятники куро-аракcской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.

173. Сеидов А.Г. Раннебронзовая культура Нахчывана., Воронеж, 2002.
174. Tobler A.J. Excavations at Tepe Gawra, v.II. Philadelphia, 1950.
175. Turan Takaoğlu. Hesrth structures in the religious pattern of Early Bronze Age northeast Anatolia. AS. Vol.50, (2000)
176. Xəlilov C.Ə. Qərbi Azərbaycanın Tunc dövrü və Dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.

**Vəli BAXŞƏLİYEV**
**Abbas SEYİDOV**

**Q Ə D İ M**
**C U L F A**

Çapa imzalanmış 14.12.2020.
Formatı 64X90 1/8. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 22 ç.v.
Sifariş № 936. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.